RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 29 (9484) 10 FEVRAL 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Prezident İlham Əliyev və oğlu Heydər Əliyev Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində olublar



**Fevralın 9-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və oğlu Heydər Əliyev Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində olub və silahlanmaya yeni qəbul edilən "Akıncı" hücum PUA-larının uçuşunu izləyiblər.**

AZƏRTAC xəbər verir ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Prezident İlham Əliyev PUA Akademiyasında yaradılan şəraitlə tanış oldu.

→ 2

## "Avropa Şurasının "Terrorçuluğun qarşısının alınması haqqında" Konvensiyasına Əlavə Protokol"un təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Avropa Şurasının "Terrorçuluğun qarşısının alınması haqqında" Konvensiyasına 2015-ci il oktyabrın 22-də Riqa şəhərində imzalanmış Əlavə Protokol Azərbaycan Respublikasının müvafiq bəyanatları ilə təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2023-cü il*

## Dünya liderləri İlham Əliyevi təbrik edirlər

**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edib. AZƏRTAC xəbər verir ki, bu barədə "Emarat Al Youm" qəzeti məlumat yayıb.**

Paylaşımda deyilir: "Prezident İlham Əliyevi son prezident seçkilərində qələbə qazanması münasibətilə təbrik edir, ona Azərbaycanın daha da inkişafı naminə fəaliyyətində uğurlar arzulayıram. Ölkələrimizin və xalqlarımızın maraqları naminə ikitərəfli əlaqələrin möhkəmləndirilməsi və qarşılıqlı maraqlar bazasının genişləndirilməsi məqsədilə onunla birgə işi davam etdirməyi səbirsizliklə gözləyirəm".

**Bəhreynin Kralı Həməd bin İsa Al Xəlifə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi prezident seçkilərində qazandığı parlaq qələbə münasibətilə təbrik edib.**

AZƏRTAC xəbər verir ki, bu barədə Bəhreyn Xəbər Agentliyi (BNA) məlumat yayıb.

Məlumatda bildirilib ki, Kral Həməd bin İsa Al Xəlifə Prezident İlham Əliyevə Azərbaycan xalqının tərəqqi və firavanlıq arzularının reallaşması istiqamətində vəzifəsində davamlı uğurlar arzulayıb.

**Albaniya Respublikasının Baş naziri Edi Rama Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edib.**

AZƏRTAC xəbər verir ki, Edi Rama "X" sosial şəbəkə hesabında bununla bağlı paylaşım edib.

Paylaşımda deyilir: "Əziz dostum İlham Əliyevə dost Azərbaycanın şəksiz lideri olmasının bir daha təsdiqlənməsi münasibətilə səmimi təbriklərimi çatdırıram. Çalışqan xalqı olan Azərbaycan sevimli ölkədir və onun rəhbərliyi ilə daha da irəliləyəcək. Tezliklə Bakıda Albaniyanın yeni səfirliyinin açılışında iştirak etməyi səbirsizliklə gözləyirəm".

## Qalib xalq Qalib Liderinə - Zəfər yolunun davamına səs verdi!

20 il əvvəl - 2003-cü ildə xalqın böyük dəstəyi ilə Prezident seçilən İlham Əliyev demişdir: "Mən hər bir vətəndaşın Prezidenti olacağam". Prezident arxada qalmış 20 il ərzində sözünə sadiq qaldı, hər bir vətəndaşın sevimli Prezidenti oldu. Elə bu sadiqliyin, sədaqətin nəticəsidir ki, bu gün təkcə böyüklər deyil, hətta azyaşlı uşaqlar da çox haqlı olaraq qürurla İlham Əliyevə "mənim Prezidentim" deyə müraciət edirlər. Bütün bunlar



isə xalqın Prezidentə sonsuz sevgisindən qaynaqlanan başlıca amillərdir.

Fevralın 7-də Azərbaycan xalqı ərazi bütövlüyü və suverenliyi tam təmin olunmuş müstəqil dövlətinin ilk prezident seçkilərini keçirdi. Seçkiləri kütləvi fəallıqla, ləyaqətlə, böyük inam və sevgi ilə keçirdi. Elə buna görə də 7 fevralda xalqımız ədalətə, sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa səs verdi.

→ 8

## Prezident seçkiləri yeni dövrün başlandığının mesajını verdi

**Fevralın 7-i suverenliyinə tam nail olmuş Azərbaycanın tarixinin unudulmaz səhifələrindən birinə çevrildi. Həmin günə təyin olunmuş prezident seçkiləri ölkəmizin bütün ərazilərini əhatə etdi.**

Respublikamızın digər bölgələri kimi, Qarabağın və Şərqi Zəngəzurun da hər yerində - Şuşada, Ağdamda, Füzulidə, Qubadlıda, Zəngilanda, Cəbrayılda, Ağ-




dərədə, Kəlbəcərdə, Laçında, Xocavənddə, Xocalıda, Xankəndidə seçki məntəqələri fəaliyyət göstərdi.

**200 illik tariximizin ən böyük qələbəsindən sonra keçirilən ilk seçki**

Artıq bu ölkənin vətəndaşlarının bir hissəsi səsverməyə məcburi köçkün kimi getmədi.

→ 5

## Fransanın insan haqlarından danışmağa haqqı yoxdur

Fransanın ölkəmiz əleyhinə guya ermənilərin etnik təmizlənməsi ilə bağlı qəbul etdiyi qətnamələr qərəzlidir. Hər zaman qanunun aliliyinə, insanların hüquq və azadlıqlarına böyük hörmətlə yanaşan Azərbaycana qarşı belə böhtan atmaq ədalətsizlikdir. Fransa ünvanımıza saxta ittihamlar səsləndirməklə heç nə əldə edə bilməyəcək. AŞPA-da Azərbaycana qarşı nümayiş etdirilən qərəzin və ikili standartların müəllifi də Fransadır. Ümumiyyətlə, Parisin əli milyonlarla insanın qanına bulaşıb. Demokratik prinsipləri ayaq altına atan bu ölkənin Azərbaycandan nəsə tələb etməyə haqqı yoxdur.

→ 9

## Fransa məqsədli şəkildə regionda gərginlik yaradır

Afrikada siyasi-iqtisadi maraqları iflasa uğrayan Fransa Ermənistan vasitəsi ilə Cənubi Qafqaza yerləşib uduzduqlarını bu regionda kompensasiya etməyə çalışır. 2020-ci ilin payızından Azərbaycana qarşı ardıcıl olaraq qərəzli mövqe tutan Paris regiona gedən bütün körpüləri özü dağıdıb. Yolunun bağlandığını hiss edən Paris yenidən Cənubi Qafqaza dönmək üçün qarışıqlıq yaradıb, gərginliyi artırıb, hərbi toqquşmalara səbəb olmaq üçün hər cür iyrənc vasitələrə əl atır. Emmanuel Makron hesab edir ki, Ermənistan və Azərbaycan arasında müharibə baş verərsə, Paris bölgədə yenidən arbitr olaraq Cənubi Qafqazda yerləşib, mövqelərini möhkəmləndirə bilər. Görünən budur ki, Fransa XXI əsrdə insanlığa yaraşmayan məkrli siyasətini davam etdirməkdə hələ də israrlıdır.



→ 9

## Fransa Cənubi Qafqazı müharibəyə sürükləyir

### Rəsmi Paris Ermənistandakı revanşist qüvvələri qızışdırmaqla məşğuldur

Avropa Şurası, onun parlamenti qərəzli addımları ilə öz maraqlarına xidmət edən Fransa, Almaniya kimi dövlətlərin alətinə çevrildiyini göstərməklə, əslində, oyuncaq təsisat olduğunu bir daha sübut edir. AŞPA-nın son addımı da Fransanın tarixi zəfərimizdən sonra Azərbaycana qarşı açıq müstəviyə keçən qərəzli kampaniyasının davamıdır.

Paris əlində olan bütün Avropa təsisatlarına Azərbaycana qarşı qərarlar, qətnamələr qəbul etdirməklə, mətbuatda ölkəmiz əleyhinə yazılar dərc etdirməklə, eyni zamanda hərbçilərini və silah-sursatını Ermənistana göndərməklə vəziyyəti gərginləşdirməyə çalışır.

→ 9

# Prezident İlham Əliyev və oğlu Heydər Əliyev Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində olublar







*Əvvəli 1-ci səh.*

Zakir Həsənov və Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar dövlətimizin başçısına akademiyada yaradılan şərait və pilotsuz uçuş aparatları barədə məlumat verdilər. Bildirildi ki, burada hərbi qulluqçuların hazırlığı üçün hər cür şərait yaradılıb. Akademiya müasir standartlara cavab verən bütün növ zəruri texnika və avadanlıqlarla təchiz olunub.

Sonra Ali Baş Komandan hərbi obyektdə müxtəlif tipli PUA üçün uçuş-enmə zolağına gəldi. "Akıncı" hücum PUA-sının havaya qalxmasını izlədikdən sonra idarəetmə məntəqəsinə gələn Prezident İlham Əliyev burada PUA-nın idarə olunmasını praktiki həyata keçirdi.

PUA-nın yerə enməsini izləyən Azərbaycan Prezidenti uçuş vasitəsinin üzərinə xatirə imzasını çəkdi.

Daha sonra Prezident İlham Əliyev anqar komplekslərinə baxış keçirdi.

Anqarlar müxtəlif tipli pilotsuz uçuş aparatları, eləcə də silahlanmaya yeni qəbul edilən "Akıncı" hücum PUA-sı və digər aviasiya-texniki vasitələrin saxlanılması üçün nəzərdə tutulub.

Müzəffər Ali Baş Komandan burada "Akıncı" hücum PUA-sı və aviabombaları ilə də tanış oldu.

Sonra birgə foto çəkdirildi.











# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə təbriklərimi çatdırmaq və fürsətdən istifadə edib yeni səlahiyyət müddətinizdə müvəffəqiyyətlər arzu etmək istərdim.

Daha təhlükəsiz və firavan ATƏT regionu naminə birgə fəaliyyətimizi davam etdirməyi səbirsizliklə gözləyirəm. Bu baxımdan, qarşıdan gələn Münxen Təhlükəsizlik Konfransı zamanı Sizi yenidən görmək və təbriklərimi şəxsən çatdırmaq fürsətinə malik olacağıma ümid edirəm.

Azərbaycan və ATƏT arasında mövcud olan uzunmüddətli əməkdaşlığın qarşıdakı aylar ərzində inkişaf etməkdə və möhkəmlənməkdə davam edəcəyinə inanıram.

Zati-aliləri, yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Helqa Maria ŞMİD,***
***ATƏT-in Baş katibi***

Zati-aliləri cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.

Azərbaycan Respublikası ilə İslam Əməkdaşlıq Təşkilatı arasında mövcud olan möhkəm əlaqələri qeyd etməkdən məmnunam. Sizi əmin etmək istəyirəm ki, bu əlaqələri qarşılıqlı faydamız naminə genişləndirməkdə qətiyyətliyəm.

Mən qadir Allaha dua edirəm ki, qüdrətli ölkənizin inkişafı üçün göstərdiyiniz nəcib səylərinizdə Zati-alinizə uğurlar bəxş etsin.

Cənab Prezident, xahiş edirəm Sizə ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Hissein Brahim TAHA,***
***İslam Əməkdaşlıq Təşkilatının Baş katibi***

Hörmətli cənab Prezident.

Xahiş edirəm, Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Bu, Prezident olaraq Sizin ötən illər ərzində Azərbaycan xalqı və dövləti üçün göstərdiyiniz xidmətdə qazandığınız uğurun sübutudur. Əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan bundan sonra da hərtərəfli inkişaf etməkdə davam edəcəkdir.

Bu fürsətdən istifadə edərək fəal və konstruktiv ikitərəfli dialoqdan məmnunluğumu ifadə edir, həmçinin ölkələrimiz arasında uğurlu strateji tərəfdaşlığın gələcəkdə daha da inkişaf edərək dərinləşəcəyinə əminliyimi bildirirəm.

Cənab Prezident, Sizə möhkəm cansağlığı və Azərbaycan Respublikasını daha da inkişaf etdirmək, dost Azərbaycan xalqının rifahını yüksəltmək naminə ali dövləti fəaliyyətinizdə yeni nailiyyətlər arzu edirəm.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Rumen RADEV,***
***Bolqarıstan Respublikasının Prezidenti***

Hörmətli İlham Heydər oğlu.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Seçkilərdə qələbəniz Azərbaycan xalqı tərəfindən Sizin fədakar əməyinizə və dövlət suverenliyinin möhkəmləndirilməsi, əhalinin rifah halının yüksəldilməsi, müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev tərəfindən əsası qoyulmuş müstəqil və açıq xarici siyasətin davam etdirilməsi üzrə Sizin səylərinizə hörmətin və dəstəyin bariz nümunəsi oldu.

Hazırda strateji xarakter daşıyan Qırğızıstan-Azərbaycan dostluq münasibətlərinin inkişafına Sizin şəxsi töhfənizi bizim ölkəmizdə yüksək qiymətləndirirlər.

Ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın dərinləşməsi üzrə birgə səylərimizi davam etdirməyə hazır olduğumuzu bir daha təsdiqləyirəm.

Sizə möhkəm cansağlığı, qardaş Azərbaycanın rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə və ən xoş diləklərlə,*

***Sadır JAPAROV,***
***Qırğız Respublikasının Prezidenti***

Hörmətli cənab Prezident.

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin. Sizə və Azərbaycan xalqına sülh, firavanlıq arzulayıram.

Ümidvaram ki, Moldova Respublikası ilə Azərbaycan Respublikası arasında mövcud olan, qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan ənənəvi dostluq münasibətləri bundan sonra da ölkələrimizin əməkdaşlığının inkişafı üçün əsas təşkil edəcək.

Dövlətlərimiz arasında siyasi dialoqun konstruktiv xarakterini vurğulamaq və ölkəmin ikitərəfli münasibətlərin dərinləşməsinə açıq olduğunu təsdiqləmək istərdim. Əminəm ki, biz birgə səylərlə ölkələrimizin vətəndaşlarının mənafeyi naminə iqtisadi-ticari, investisiya, enerji və kənd təsərrüfatı sahələrində Moldova-Azərbaycan əməkdaşlığını daha da intensivləşdirə biləcəyik.

Zati-aliləri, ali dövləti fəaliyyətinizdə Sizə yeni uğurlar və nailiyyətlər arzulayır, yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***Maya SANDU,***
***Moldova Respublikasının Prezidenti***

Cənab Prezident, əziz dostum.

İcazə verin, ölkənizdə keçirilən prezident seçkilərində tarixi qələbəniz və aşkar zəfəriniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırım. Bu, siyasi, iqtisadi daxil olmaqla Sizin hər bir strategiyanızın doğru olduğunu təsdiq edən parlaq qələbədir. Azərbaycan Respublikasını möhkəm addımlarla sabit və firavan gələcəyə aparmaqda xalqınızın Sizə və Sizin müdrikliyinizə inamı və etimadı vardır.

Cənab Prezident, seçicilərin bu qərarı təkcə Azərbaycan və onun xalqı üçün deyil, habelə bütün regionda və dünyada sülh uçun önəmlidir.

Biz Serb Respublikasında Azərbaycandakı seçki kampaniyasını və seçkilərin nəticələrini diqqətlə izlədik və mən birmənalı olaraq dəstəyimi və Sizin qalib gələcəyinizə dair ümidimi açıq şəkildə ifadə etdim.

Zati-aliləri, Azərbaycan Respublikasının möhtərəm Prezidenti, fürsətdən istifadə edərək Sizi növbəti yeddiillik prezidentlik müddətiniz münasibətilə bir daha təbrik edirəm.

Sizə dərin minnətdarlığımı bildirir, cansağlığı, dost Azərbaycan xalqına rifah, firavanlıq və inkişaf arzulayıram.

*Hörmətlə,*

***Milorad DODİK,***
***Bosniya və Herseqovinanın Serb Respublikasının Prezidenti***

Zati-aliləri.

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan, vətəndaşlarınız və ölkəniz üçün faydalı işlərdə uğurlar arzulamaqdan məmnunluq duyuram.

Azərbaycan xalqının Sizə göstərdiyi etimad əvvəlki dövrdə görülən müsbət və məsuliyyətli işin, ölkənizin tərəqqisinin, sabitliyinin və firavanlığının gələcəkdə də davam etməsi istəyinin təsdiqidir.

Əminəm ki, mandatınız çərçivəsində Bosniya və Herseqovina, Serb Respublikası və Azərbaycan Respublikası arasında mehriban münasibətlər bundan sonra da dostluq şəraitində inkişaf edəcək, əməkdaşlığımız ölkələrimizin və xalqlarımızın qarşılıqlı rifahı naminə daha da yaxşı və səmərəli olacaqdır.

Zati-aliləri, Sizi seçkilərdə qələbəniz münasibətilə bir daha təbrik edir, möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Jelka TSVİYANOVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb üzvü***

Zati-aliləri, əziz dostumuz.

Nikaraqua hökuməti və xalqı adından Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə təbrik edirik.

Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan dövləti və xalqı dünyada mövcud olan çağırışların dialoq və konsensus yolu ilə həllinə bundan sonra da öz töhfəsini verəcəkdir.

Bizi tarixən birləşdirən dostluğumuzu, elm, sosial, mədəniyyət, siyasət sahələrində əməkdaşlığımızı, həmrəyliyimizi möhkəmləndirməyi davam etdirməyə ümidvarıq. Sizi bir daha qələbəniz münasibətilə təbrik edir, dövlətinizə və xalqınıza səmimi arzularımızı çatdırırıq.

*Hörmətlə,*

***Daniel Orteqa SAAVEDRA,***
***Nikaraqua Respublikasının Prezidenti,***

***Rosario MURİYO,***
***Nikaraqua Respublikasının vitse-prezidenti***

Hörmətli cənab Prezident.

Növbəti müddətə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Sizə həvalə olunmuş ali vəzifənizin icrasında, ölkənizi və xalqınızı məqsəd və arzularına doğru aparmağınızda davamlı müvəffəqiyyətlər arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək ikitərəfli münasibətlərimizdən qürur duyduğumu, ölkələrimizin və xalqlarımızın rifahı naminə onu gücləndirmək və inkişaf etdirmək üçün birgə işimizi davam etdirmək niyyətində olduğumu və Fələstinin haqq işi ilə bağlı mövqeyinizə görə minnətdarlığımı bildirirəm.

Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, ölkənizin və xalqınızın tərəqqisi və firavanlığı üçün ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Mahmud ABBAS,***
***Fələstin Dövlətinin Prezidenti, Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri***

Zati-aliləri, əziz qardaşım.

Sizin seçkilərdəki uğurunuz və Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz Sizə ən xoş arzularımı və ən səmimi təbriklərimi çatdırmaq üçün gözəl fürsətdir. Bu fürsətdən istifadə edərək Sizə Albaniya hökuməti adından və şəxsən öz adımdan aramızdakı yüksək səviyyəli dialoqa və iqtisadiyyatlarımız üçün, xüsusilə enerji və turizm kimi əhəmiyyətli sahələrdə əməkdaşlığa görə minnətdarlığımı bildirirəm.

Qəti şəkildə inanıram ki, Sizin yeni prezidentlik mandatınız dost ölkələrimiz arasındakı münasibətlərə yeni təkan olacaq. Həmçinin Albaniya Respublikasının tezliklə Bakıda səfirliyinin açılması aramızdakı kommunikasiyanın daha da sürətlənməsinə töhfə verəcək.

Bir daha ən xoş arzularımı çatdırıram. Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Edi RAMA,***
***Albaniya Respublikasının Baş naziri***

Möhtərəm İlham Heydər oğlu.

Bakıdan Moskvaya qayıdarkən Sizi Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə bir daha səmimi-qəlbdən təbrik etmək istədim.

MDB müşahidəçiləri missiyasının rəhbəri kimi növbəti dəfə ölkənizin vətəndaşlarının böyük əksəriyyətinin Sizə yüksək etimadının şahidi oldum.

Qəti əminəm ki, Sizin dövlət başçısı vəzifəsində fəaliyyətiniz gələcəkdə də Azərbaycan Respublikasının ardıcıl inkişafına, onun beynəlxalq arenada mövqelərinin möhkəmlənməsinə, həmçinin Müstəqil Dövlətlər Birliyi məkanında inteqrasiya proseslərinin dərinləşməsinə kömək edəcəkdir.

Fürsətdən istifadə edərək seçki kampaniyasına hazırlıq və seçkilərin keçirilməsinin bütün mərhələlərində səmərəli monitorinqi həyata keçirməyə imkan verən MDB müşahidə missiyasının fəaliyyəti üçün yaradılan əlverişli şəraitə görə minnətdarlığımı bildirirəm.

Prezident seçkilərində qələbəniz münasibətilə səmimi təbrik sözlərimə Sizə möhkəm cansağlığı, əmin-amanlıq və Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləklərimi əlavə etmək istəyirəm.

*Dərin hörmətlə,*

***Sergey LEBEDEV,***
***Müstəqil Dövlətlər Birliyinin Baş katibi***

Hörmətli cənab Prezident,

Azərbaycan Respublikasında 2024-cü il fevralın 7-də yüksək səviyyədə keçirilmiş prezident seçkilərində inamlı qələbəniz münasibətilə Zati-alinizi TÜRKSOY-un Baş Katibliyi, Türk dövlətləri mədəniyyət nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı bildirməkdən məmnunluq duyuram.

Seçkilərdə Azərbaycan xalqının Sizin namizədliyinizi hərtərəfli dəstəkləməsi ölkənin ərazi bütövlüyünü tam bərpa etmiş və tarixi ədaləti bərqərar etmiş Ali Baş Komandanına və müdrik liderinə sonsuz inamının əyani təzahürüdür.

Zati-alinizin zəngin təcrübəsinin və müdrik siyasətinin yeni dönəmdə də Azərbaycanın tərəqqisinə və xalqın rifahına böyük töhfə verəcəyinə, TÜRKSOY ilə Azərbaycan Respublikası arasındakı məhsuldar əməkdaşlığın və mədəni əlaqələrin daha da genişlənərək inkişaf edəcəyinə inanıram.

Əminəm ki, beynəlxalq TÜRKSOY təşkilatının üzv ölkələrimiz arasında mədəni əlaqələrin inkişaf etdirilməsi və Türk dünyasının ayrılmaz parçası olan Azərbaycanın zəngin mədəniyyətinin dünyada tanıdılması istiqamətində apardığı fəaliyyətlər bundan sonra daha geniş vüsət alacaqdır.

TURKSOY-a diqqətini və dəstəyini əsirgəməyən Zati-alinizi bu mühüm qələbə münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə və ailənizə möhkəm cansağlığı, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və davamlı tərəqqi arzulayıram.

*Ən dərin hörmət və ehtiramla,*

***Sultan RAEV,***
***TÜRKSOY-un Baş katibi***

Hörmətli cənab Prezidentim.

Fevralın 7-də keçirilən növbədənkənar Azərbaycan Respublikasının Prezidenti seçkilərində parlaq qələbəniz münasibətilə Sizə ən səmimi təbriklərimi, qardaş Azərbaycan xalqına sülh və rifah arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Azərbaycanın azad edilmiş ərazilərində ilk dəfə keçirilməsi baxımından tarixi önəm daşıyan bu seçkilər Azərbaycan xalqının dəyərlərə bağlılığını, cəsarətini və müdrikliyini bir daha nümayiş etdirdi.

Zati-alinizə nailiyyətlər arzulayır, Uca Allahdan seçkilərin nəticələrinin Azərbaycan xalqı və bütün Türk dünyası üçün xeyirli olmasını diləyirəm.

Hörmətlə,

***Binəli YILDIRIM,***
***Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

Zati-aliləri.

Seçkilərdə qazandığınız qələbə və yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Seçkilərin nəticələri Azərbaycan xalqının Zati-alinizin liderliyinə, eləcə də birliyi, tərəqqini və sülhü möhkəmləndirmək qətiyyətinə davamlı dəstəyini və inamını nümayiş etdirdi.

Bu fürsətdən istifadə edərək bildirmək istəyirəm ki, BMT-nin Sivilizasiyalar Alyansı (UNAOC) dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi ilə bağlı hökumətin irəli sürdüyü müxtəlif təşəbbüslərdə, o cümlədən "Bakı Prosesi"ndə Azərbaycanın uzunmüddətli tərəfdaşı olmaqda davam edir. UNAOC 2024-cü ilin mayında Bakıda keçirilməsi nəzərdə tutulan 6-cı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun beynəlxalq İşçi Qrupunun üzvüdür. Komandamız artıq proqram üzrə əsas məsləhətləşmələrə başlayıb və 6-cı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda UNAOC-u şəxsən təmsil etməyi, müzakirələrə qatılmağı və uğurlu nəticələr əldə olunmasına töhfə verməyi səbirsizliklə gözləyirəm.

UNAOC Xarici İşlər, Mədəniyyət nazirlikləri və Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəliyi ilə sıx əlaqədə işləyərək əməkdaşlığın və Azərbaycan hökuməti ilə birgə fəaliyyətin daha da möhkəmləndirilməsinə sadiq olduğunu bildirir.

Bu fürsətdən istifadə edərək Zati-alinizə ən yüksək ehtiramımı ifadə edirəm.

*Hörmətlə,*

***Migel Anxel MORATİNOS,***
***BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi***

Möhtərəm cənab Prezident.

Sizi 2024-cü il fevralın 7-də Azərbaycanda keçirilən prezident seçkilərində parlaq qələbəniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz müstəqil Azərbaycan Respublikasının tarixinə yeni səhifə yazaraq, ölkəmizin bütün ərazisində keçirilən seçkilərdə ilk Prezidenti oldunuz. Torpaqlarımızın azad olunması, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpa edilməsi məhz Sizin rəhbərliyinizlə həyata keçdi və bütün bunlar Sizin adınızla bağlıdır. Sizin rəhbərliyinizlə müasir ordu quruldu, ölkəmizin iqtisadiyyatı bölgədə aparıcı iqtisadiyyata çevrildi və Azərbaycan lider dövlətlər sırasına daxil oldu.

Bu qələbəni Siz qalib Prezident kimi qazandınız. İnanıram ki, Sizin rəhbərliyinizlə Azərbaycan yeni uğurlara nail olacaq, dərin tarixi və zəngin mədəniyyəti olan ölkəmizin dünyada nüfuzu daha da artacaqdır.

Möhtərəm cənab Prezident, Sizi bir daha parlaq qələbə münasibətilə təbrik edir, möhkəm cansağlığı və ölkəmizi yüksək zirvələrə aparan yolda böyük uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi***

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram. Bu əlamətdar hadisə Azərbaycan xalqının Sizin liderliyinizə göstərdiyi davamlı inam və etimadı bir daha nümayiş etdirdi.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan böyük nailiyyətlər əldə edib. Uğurlu siyasətiniz Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu təməllər üzərində müstəqil, suveren, müasir Azərbaycanın uğurlu inkişafına gətirib çıxarıb.

Azərbaycanın beynəlxalq əlaqələrdə həm regional, həm də qlobal səviyyədə artan rolu və nüfuzunu yüksək qiymətləndirirəm. Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi və qarşıdan gələn BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etməsi ölkənin aktual qlobal çağırışların həllində hərtərəfli yanaşmanın tərəfdarı olduğunu nümayiş etdirir.

Bundan əlavə, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə göstərdiyiniz davamlı dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm. Zati-alinizin regionda əməkdaşlığın və dialoqun möhkəmləndirilməsinə sadiqliyi həqiqətən də təqdirəlayiqdir. Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin gündəliyindəki müxtəlif məsələlər üzrə, xüsusilə də Azərbaycanın əlaqələndirici kimi fəaliyyətdə olduğu təhlükəsiz və səmərəli nəqliyyat dəhlizi sistemlərinin inkişaf etdirilməsi sahəsində əməkdaşlığımızı davam etdirməyi səbirsizliklə gözləyirəm.

Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə uğurlar və firavanlıq arzulayıram. Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan inkişaf yolunu davam etdirəcək, ölkədə və regionda dayanıqlı sülhə və tərəqqiyə bundan sonra da töhfə verəcəkdir.

*Hörmətlə,*

***Kayrat SARIBAY,***
***Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi***

Zati-aliləri, hörmətli cənab Prezident,

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik etməkdən məmnunam. Seçkilərin demokratik, qanuni şəkildə keçirildiyini beynəlxalq müşahidəçilər, o cümlədən səsvermə prosesini izləyən Braziliya Federal Senatından iki həmkarım da təsdiq etdi. Sizin Azərbaycana rəhbərliyiniz dövründə ölkənin tərəqqisinin, iqtisadi və sosial inkişafının, müxtəlif sahələrdə qazanılan uğurların davamlı olacağına inanıram.

Braziliya Federal Konqresində parlamentlərarası dostluq qrupunun həmsədri olaraq ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni əməkdaşlığın, eləcə də parlamentlərarası əlaqələrin dərinləşməsi üçün səylərimi əsirgəməyəcəyəm.

Sizi bir daha təbrik edirəm, cənab Prezident.

*Hörmətlə,*

***Klaudio KAJADO,***
***Braziliya Federal Konqresinin Nümayəndələr Palatasının deputatı, Braziliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri***

Möhtərəm İlham Heydər oğlu.

Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi təbrik edirəm.

Sizin fəaliyyətiniz və səyləriniz seçicilər tərəfindən layiqincə qiymətləndirildi. Siz ölkənin və onun vətəndaşlarının rifahı, əmin-amanlığı naminə fəaliyyət göstərən əsl Lidersiniz.

Sizə möhkəm cansağlığı, bütün təşəbbüslərinizdə uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Viktor PİNSKİ,***
***Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının Komissiya sədri, Ümumhəmkarlar İttifaqları Konfederasiyasının Baş katibi***

Zati-aliləri, hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram. Mən Rumıniyanın Baş nazirinin strateji tərəfdaşlıqlar və xüsusi əlaqələr üzrə müavini vəzifəsində çalışarkən ölkələrimiz arasında güclü strateji tərəfdaşlığın şahidi olmuşam. Sizin liderliyiniz bu münasibətlərin daha da möhkəmlənməsində mühüm rol oynayıb və əminəm ki, əlaqələrimiz yeni dövrdə də inkişaf etməkdə davam edəcəkdir.

Seçkilərdəki qələbəniz Azərbaycan xalqının Sizin strategiya və liderliyinizə olan inam və etimadının göstəricisidir. Sizin rəhbərliyinizlə Azərbaycan iqtisadi inkişaf, beynəlxalq münasibətlər sahələrində mühüm nailiyyətlər əldə etmiş, vətəndaşların firavanlığı daha da yüksəlmiş, ölkənin ərazi bütövlüyü bərpa edilmiş və dünyada nüfuzu artmışdır. Bu nailiyyətlər Sizin ölkənizin tərəqqisinə sadiqliyinizi nümayiş etdirməklə yanaşı, Rumıniya ilə Azərbaycan arasında ortaq əməkdaşlıq ruhuna mühüm töhfə verir.

Gələcəyə baxarkən mən Sizin liderliyinizlə ölkələrimiz arasındakı əməkdaşlıq imkanları barədə nikbin düşünürəm. Rumıniya-Azərbaycan strateji tərəfdaşlığı regionlarımızda sabitlik, tərəqqi və sülh üçün möhkəm zəmindir. Ortaq strateji layihələrimizi daha da inkişaf etdirmək üçün Sizinlə sıx işləməkdə davam etməyə ümidvaram.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Ana BİRÇAL,***
***2018-2019-cu illərdə Rumıniyanın Baş nazirinin müavini və ədliyyə naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

Möhtərəm cənab Prezident.

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının Katibliyi adından Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə təbrik edirik.

Prezident seçkilərində inamlı qələbəniz vətəndaşların Sizə yüksək etimadının və Azərbaycan xalqının yekdil dəstəyinin parlaq sübutudur.

İnanırıq ki, Sizin fəaliyyətiniz gələcəkdə də əmin-amanlığa və Azərbaycanın tərəqqisinə, bütün dünyada nüfuzunun möhkəmlənməsinə kömək edəcəkdir.

Sizə - görkəmli dövlət xadiminə möhkəm cansağlığı və bu məsuliyyətli vəzifədə yeni məhsuldar fəaliyyət arzulayırıq.

*Hörmətlə,*

***Dmitri KOBİTSKİ,***
***MDB Parlamentlərarası Assambleya Şurasının Baş katibi,***

***Aydın CƏFƏROV,***
***MDB Parlamentlərarası Assambleya Şurası Baş katibinin müavini - Azərbaycan Respublikası Milli Məclisinin MDB Parlamentlərarası Assambleyasında səlahiyyətli nümayəndəsi***

Hörmətli cənab Prezidentim.

Azərbaycanda keçirilən prezident seçkilərində qazandığınız böyük qələbə münasibətilə Mərmərə Qrupu Vəqfi olaraq Zati-alinizi Türkiyənin vətəndaş cəmiyyəti adından təbrik edirik.

Bu seçkilər müəllifi olduğunuz Qarabağ dastanından sonra yeni bir demokratiya dastanıdır.

Biz bu seçkilərə əhəmiyyət veririk. Çünki Azərbaycan üçün önəmli olan bu seçkilər həm də Türk dünyası üçün mühüm sabitlik, həmrəylik və birlik nümunəsi oldu.

Zati-alinizi bir daha təbrik edirik.

*Ən dərin hörmətlə,*

***Akkan SUVER,***
***Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri***

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikası Prezidenti seçkilərində qələbəniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Bu seçkilərin yekunları Sizin ölkə vətəndaşları arasında danılmaz nüfuzunuzu, onların rəhbərliyinizlə fəal çalışmağa və strateji sosial-iqtisadi vəzifələri həll etməyə hazır olduqlarını göstərdi. Vətəndaşlarınız Sizə dövlətin taleyini və öz gələcəklərini etibar ediblər. Bu, hazırkı qlobal qeyri-sabitlik şəraitində xüsusilə qiymətlidir və Sizin güclü, təcrübəli dövlət xadimi, uzaqgörən, istedadlı siyasətçi kimi möhkəm nüfuzunuzun parlaq təsdiqidir. Sizə səmimi-qəlbdən böyük nailiyyətlər və Azərbaycan dövlətinin daha da möhkəmlənməsi və inkişafı üzrə bütün strateji məqsədlərə nail olmağı, xalqınızın rifahı naminə davamlı fəal işinizdə enerji və ruh yüksəkliyi arzulayıram.

Ümidvaram ki, bizim birgə səylərimiz sayəsində Rusiya-Azərbaycan münasibətləri çərçivəsində Tatarıstan ilə Azərbaycan arasında ənənəvi qarşılıqlı faydalı əməkdaşlığın çoxtərəfli potensialı gələcəkdə də məhsuldar şəkildə həyata keçiriləcək. Əminəm ki, qardaş xalqlarımız arasında çoxplanlı sıx əlaqələr ümumilikdə sülhün və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə olan mühüm töhfədir.

Sizə möhkəm cansağlığı, uğurlar və səadət diləyirəm.

*Səmimi ehtiramla,*

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi, "Rusiya-İslam dünyası" Strateji Baxış Qrupunun sədri***

Çox hörmətli cənab Prezident.

Bütün qaqauz xalqı adından və şəxsən öz adımdan Sizə ehtiramımı bildirirəm və ölkənizin müstəqilliyi dövründə ilk dəfə olaraq Azərbaycanın bütün ərazisində keçirilən prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan xalqı tərəfindən Sizə göstərilən bu etimad yüksək peşəkarlığınızın və şəxsi keyfiyyətlərinizin, eləcə də ölkə əhalisi arasında qeyd-şərtsiz nüfuzunuzun təsdiqidir.

Uzun illər ərzində Siz özünüzü Azərbaycan xalqının mədəniyyətini və tarixini, milli maraqlarını qoruyub saxlayaraq, sosial-iqtisadi inkişafı təmin edərək ölkəni mütərəqqi inkişaf yolu ilə irəliyə aparan alicənab və müdrik lider kimi göstərmisiniz. Sizin səyləriniz nəticəsində bu gün Azərbaycan ən inkişaf etmiş ölkələrdən biridir və onun beynəlxalq miqyasda nüfuzu ildən-ilə artır.

Qardaş xalqlarımız arasında münasibətləri yüksək qiymətləndiririk və Qaqauziya Muxtariyyətinə diqqətinizə görə Sizə minnətdarıq. İnanırıq ki, gələcək əməkdaşlığımız müxtəlif birgə layihələrdə öz əksini tapacaq.

Çox hörmətli cənab Prezident, Sizə dərin hörmətimi bildirirəm, möhkəm cansağlığı, tükənməz enerji və yeni uğurlar arzu edirəm. Biz Sizi Qaqauz torpağında görməyə həmişə şad olacağıq.

Sizə və bütün Azərbaycan xalqına sülh, tərəqqi və firavanlıq arzu edirəm.

*Dərin hörmət və ən xoş arzularla,*

***Yevgeniya QUTSUL,***
***Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumunun (Qaqauz Yeri) rəhbəri***

Möhtərəm İlham Heydər oğlu.

Dövlətlərarası Aviasiya Komitəsinin adından və şəxsən öz adımdan Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə səmimi təbriklərimizi qəbul edin.

Bu qələbə Azərbaycan xalqının Sizə, siyasi sabitlik və sosial-iqtisadi inkişaf istiqamətində həyata keçirdiyiniz kursa olan sonsuz etimadının göstəricisidir. Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası dünyada ən mütərəqqi dövlətlərdən birinə çevrilib.

İcazə verin, Sizə yeni-yeni uğurlar və Azərbaycan Respublikasının inkişafı naminə ali dövləti fəaliyyətinizdə daha böyük nailiyyətlər arzulayım.

*Dərin hörmətlə,*

***Oleq STORÇEVOY,***
***Dövlətlərarası Aviasiya Komitəsinin sədri***

Hörmətli cənab Prezident.

Avrasiya Uşaq Həkimləri Federasiyasının üzvləri adından və şəxsən öz adımdan seçkilərdə inamlı qələbəniz və yeni müddətə Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram.

Biz dost və böyük ölkə olan Azərbaycanda seçkilərin gedişini diqqətlə izləyirdik və şübhə etmirdik ki, Azərbaycanın müdrik xalqı bu taleyüklü gündə düzgün seçim edəcək. Xalq yenidən əsl vətənpərvər, dünyamiqyaslı rəhbər, dahi lider, müasir Azərbaycanın banisi Heydər Əliyevin davamçısını seçdi.

Biz Azərbaycanın nailiyyətləri ilə həmişə fəxr etmişik. Zati-alinizin uğurlu liderliyi ilə atılan inamlı addımlar sayəsində torpaqlar işğaldan tamamilə azad olundu. Səsvermənin nəticələri Sizin yüksək siyasi nüfuzunuzu, həyata keçirdiyiniz Azərbaycanın sosial-iqtisadi inkişafının sürətləndirilməsi, onun təkcə Türk dünyasında deyil, həm də beynəlxalq arenada mövqelərinin gücləndirilməsi kursuna ümumxalq dəstəyini tam şəkildə təsdiq etdi.

Əminəm ki, Qırğızıstan ilə Azərbaycan arasında qardaşlıq əlaqələri və həmrəylik gələcəkdə də münasibətlərimizin inkişafına kömək edəcək. Qardaş Azərbaycan xalqının Sizi yenidən öz lideri seçməsi təkcə Türk dövlətləri arasında münasibətlərin inkişafı deyil, eyni zamanda uzun illər sülhə və sabitliyə ehtiyacı olan Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin bərqərar olması baxımından da böyük nailiyyətdir.

Bu yaxınlarda Qırğızıstanda "Müzəffər Ali Baş Komandan: Əziz Şuşa, sən azadsan!" kitabının təqdimatında iştirak etdim. Bu kitabı oxuduqdan sonra bir daha Sizinlə fəxr etdim.

Qırğızıstanda Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin zəngin irsi geniş təbliğ olunur. Biz qərara gəldik ki, Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Xalqa bağışlanmış ömürdən anlar" kitabını qırğız dilinə tərcümə edək.

Bütün mütərəqqi insanlar Sizin həyata keçirdiyiniz strategiyanı və Azərbaycan dövlətinin möhkəmlənməsini dəstəkləyir. Bu düşüncələrlə arzu edirəm ki, seçkilərdə Sizin qələbəniz qardaş Azərbaycan xalqının, eyni zamanda regionumuzun rifahına xidmət etsin.

Sizə ali dövləti vəzifənizdə yeni-yeni uğurlar diləyirəm.

*Dərin hörmətlə,*

***Kamçibek UZAKBAYEV,***
***Qırğızıstandakı Avrasiya Uşaq Həkimləri Federasiyasının prezidenti, akademik, Əməkdar həkim***

Hörmətli cənab Prezident,

Sizi Azərbaycan Respublikası Prezidenti seçkilərində parlaq qələbə qazanmağınız münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Bu böyük zəfər təkcə bir seçkinin nəticəsi deyil. Bu, eyni zamanda ölkənizin demokratiyanın inkişafında mühüm uğurlarını və xalqınızın Sizə etimadını aşkar surətdə nümayiş etdirdi. Seçkilərin nəticəsi həm də Azərbaycan xalqının Sizin liderliyiniz ətrafında sıx birləşdiyini və parlaq gələcək üçün inamla irəlilədiyini göstərdi. Bu qələbə Azərbaycanın milli birliyini gücləndirməklə yanaşı, ölkənizin beynəlxalq aləmdəki rolunu daha da artıracaqdır.

Möhtərəm cənab Prezident, Siz hər zaman ölkənizin sabitliyi və inkişafı naminə çalışaraq öz qətiyyətinizlə fərqlənmisiniz. Seçkilərdəki mühüm qələbəniz münasibətilə Sizi Dünya Axıska Türkləri Birliyi və Azərbaycanda yaşayan yüz min axıska türkü adından ən səmimi hisslərimlə təbrik edir, prezidentliyinizin yeni dövründə Sizə böyük nailiyyətlər, Azərbaycana rifah dolu gələcək arzulayıram.

*Hörmətlə,*

***Ziyəddin KASSANOV,***
***Dünya Axıska Türkləri Birliyinin baş direktoru***

# Baş nazir Əli Əsədovla Gürcüstanın Baş naziri İrakli Kobaxidze arasında telefon danışığı olub

**Fevralın 9-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovla Gürcüstanın yeni təyin olunmuş Baş naziri İrakli Kobaxidze arasında telefon danışığı olub.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Ə.Əsədov Gürcüstanın Baş naziri vəzifəsinə təyin olunması münasibətilə İ.Kobaxidzeni təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Telefon danışığı əsnasında tərəflər Azərbaycan ilə Gürcüstan arasında müxtəlif sahələrdə dostluq münasibətlərinin və qarşılıqlı faydalı əməkdaşlığın inkişafını yüksək qiymətləndirib, gələcəkdə də strateji tərəfdaşlığın möhkəmləndirilməsinə ümidvar olduqlarını bildiriblər.

# Elçin ƏMİRBƏYOV: "Azərbaycan tərəfindən təhlükə mifini şişirdən Ermənistan ərazi bütövlüyümüzə qəsd etməkdə davam edir"

**Azərbaycan tərəfindən təhlükə mifini şişirdən Ermənistan bizim ərazi bütövlüyümüzə "de-fakto" qəsd etməkdə davam edir.**



AZƏRTAC xəbər verir ki, bu barədə "Azadlıq" radiosuna müsahibəsində Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov bildirib.

RFE/RL-in müxbiri Coşua Kuçeranın Ermənistan ilə Azərbaycan arasında sülh prosesinə həsr olunmuş məqaləsində qeyd olunur ki, müxtəlif vasitəçilərə münasibətdə yaranmış etimadsızlıq səbəbindən Bakı və İrəvan son zamanlar artıq öz konkret bəhrəsini verən ikitərəfli birbaşa təmaslar formatına üstünlük verirlər. Xüsusən, ötən ilin dekabrında hər iki tərəfdən saxlanılmış şəxslərin azad olunması üzrə tərəflərin əldə etdikləri razılaşmalara və Bakıda keçirilməsi nəzərdə tutulan COP29 beynəlxalq iqlim konfransı kontekstində qarşılıqlı diplomatik dəstəyə istinad edilir.

"Ermənistan və Azərbaycan artıq yetərincə yetkin dövlətlərdir, öz aralarında qalmış problemləri özləri həll etmək iqtidarındadır və bu istiqamətdə işlər tam sürətlə davam edir", - deyə Elçin Əmirbəyov iri aktorların kənardan qərəzli müdaxiləsinin sülh sazişini iki əks blokun geosiyasi rəqabəti teatrında risk altında olduğu barədə hazırda gündəmdə olan fikirlərin fonunda vurğulayıb.

Prezidentin köməkçisi bu kontekstdə Avropa diplomatiyasının başçısı Cozep Borelin Azərbaycanın Ermənistana qarşı ərazi iddialarını ehtiva edən və Bakını İrəvanla substantiv danışıqlara çağıran bu yaxınlardakı bəyanatını "tamamilə cəfəng" adlandırıb.

Elçin Əmirbəyov qeyd edib: "Ermənistana guya ərazi iddialarımızla bağlı Azərbaycana qarşı irəli sürülən ittihamlar ağrımayan başa dəsmal bağlamaq kimi uğursuz və faydasız cəhddən başqa bir şey deyil. Ermənistanın indiki Konstitusiyasına və onun qondarma "Ermənistan SSR-nin Dağlıq Qarabağla yenidən birləşdirilməsi" haqqında özbaşına və tamamilə qeyri-qanuni qərarı təsbit edən bu ölkənin müstəqillik bəyannaməsinə dair istinadlara baxmaq kifayətdir".

Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi sonda deyib: "Bu cür konkret faktlar çoxdur, ən azı Ermənistanın MDB-yə üzvlüyünün ratifikasiyası prosesində bu ölkənin parlamentinin qəbul etdiyi qərarları, Qarabağın Azərbaycana məxsus olmasını şübhə altına alan və ya 44 günlük müharibə bitdikdən sonra Ermənistanın Azərbaycana qarşı başlatdığı çoxsaylı məhkəmə iddialarını, ölkəmizə qarşı açıq ərazi iddiaları olan sənədləri göstərmək olar. Hələ mən Azərbaycanın Qarabağ bölgəsini tarixi Ermənistanın tərkib hissəsi kimi təqdim etməkdə davam edən Ermənistan Xarici İşlər Nazirliyinin rəsmi saytından danışmıram.

Biz yuxarıda qeyd etdiyimiz bütün narahatlıqlarımızı erməni tərəfinin diqqətinə dəfələrlə çatdırmışıq, lakin təəssüf ki, hələ də onların aradan qaldırılması üçün qarşı tərəfdən konkret addımlar atılmayıb. Ölkəmizə qarşı ərazi iddialarının qalması ilə paralel olaraq, Azərbaycandan gələn təhlükə barədə cəfəng şayiələrin qəsdən yayılması təkcə hiyləgərlik deyil, həm də sonu görünməyən bir yoldur".

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 74** QƏRAR Bakı şəhəri, 8 fevral 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 31 mart tarixli 91 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 31 mart tarixli 91 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 322 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı"nın 18-ci, 20 - 46-cı, 46-1 - 46-7-ci hissələri ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 75** QƏRAR Bakı şəhəri, 8 fevral 2024-cü il

## "Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili üçün xüsusi təhsilin dövlət standartları"nın təsdiq edilməsi haqqında

"Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanının 2.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili üçün xüsusi təhsilin dövlət standartları" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Dünya liderləri İlham Əliyevi təbrik edirlər

Fevralın 9-da ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd Əl-Malik Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

ICESCO-nun Baş direktoru dövlətimizin başçısına prezident seçkilərində qələbə qazanması ilə bağlı təbriklərini və xoş arzularını çatdırıb, ona Azərbaycanın tərəqqisi naminə fəaliyyətində yeni uğurlar arzulayıb. O, Prezident İlham Əliyevin İslam həmrəyliyi işinə verdiyi töhfəni bir daha yüksək qiymətləndirib.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycanla ICESCO arasında uzun illər davam edən səmərəli əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunub.

* * *

Fevralın 9-da Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

İrakli Kobaxidze İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik edib, ona Azərbaycanın rifahı naminə fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirərək, öz növbəsində İrakli Kobaxidzeni Gürcüstanın Baş naziri vəzifəsinə təsdiq olunması münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev və Baş nazir İrakli Kobaxidze dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərimizin bundan sonra da inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminliklərini bildirib, əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat xidməti***

Litva Prezidenti Gitanas Nauseda Azərbaycan Prezidenti İlham Əliyevə seçkilərdə qazandığı qələbə münasibətilə təbrik məktubu göndərib.

AZƏRTAC xəbər verir ki, məktubda dövlətimizin başçısına yeni uğurlar, ölkəmizə davamlı rifah diləyən Prezident Gitanas Nauseda qeyd edib: "Qəti əminəm ki, Sizin prezidentliyinizin yeni dövründə də Litva ilə Azərbaycan arasında səmərəli əməkdaşlıq münasibətləri, uğurlu ikitərəfli və çoxtərəfli tərəfdaşlıq daha da inkişaf etdiriləcək".

Prezident Gitanas Nauseda ölkələrimiz arasında əlaqələrin dərinləşdirilməsi, xüsusilə iqtisadiyyat, informasiya texnologiyaları və bərpaolunan enerji sahələrində ikitərəfli təmasların inkişaf etdirilməsi üçün geniş imkanların mövcud olduğunu vurğulayıb.

Prezident İlham Əliyevi seçkilərdə qazandığı qələbə münasibətilə bir daha təbrik edən Litva dövlətinin başçısı yeni mandatın regionda dayanıqlı sülhün qurulması üçün möhkəm təməl olduğunu qeyd edib.

* * *

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Denis Beçiroviç Azərbaycan Prezidenti İlham Əliyevi seçkilərdə qazandığı qələbə münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, Denis Beçiroviç dövlətimizin başçısına göndərdiyi təbrik məktubunda ölkələrimiz arasında münasibətlərin uzun illərdir səmimilik və dostluq xarakteri daşıyan yaxşı əməkdaşlıqla yadda qaldığını vurğulayıb. O, əmin olduğunu qeyd edib ki, qarşılıqlı maraq doğuran bütün sahələrdə ikitərəfli münasibətlər bundan sonra da dostluq ruhunda inkişaf edəcək.

Rəyasət Heyətinin üzvü ölkələrimizin və xalqlarımızın rifahı naminə tərəfdaşlığın qorunub saxlanılmasına və genişləndirilməsinə sadiqliyini ifadə edərək Prezident İlham Əliyev ilə yeni görüşləri və əməkdaşlığımızın davamını səbirsizliklə gözlədiyini diqqətə çatdırıb.

# Naxçıvanda muxtar respublikanın 100 illiyi təntənəli şəkildə qeyd olunub

Fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi ilə bağlı tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov, Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov, digər rəsmi şəxslər və ictimaiyyət nümayəndələri tədbirdə iştirak ediblər.





Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət ediblər. Abidə önünə güllər düzülüb, Ulu Öndərimizin xatirəsinə dərin ehtiram ifadə olunub.

Tədbir Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında davam edib.

Səlahiyyətli nümayəndəyə, həmçinin dövlət və hökumət nümayəndələrinə sarayın foyesində Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən muxtar respublikanın 100 illiyi ilə bağlı hazırlanmış veb-saytı, poçt markası, posterlər təqdim edilib.

"Şərq qapısı" qəzeti tərəfindən təşkil olunmuş fotosərgidə tədbir iştirakçıları muxtar respublikanın 100 illiyi ilə əlaqədar, eləcə də diyarımızın zəngin təbiətini, çoxəsrlik tarixini və təkrarsız abidələrini əks etdirən fotolara baxıblar.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın, Baş nazir Əli Əsədovun, eləcə də digər rəsmi şəxslərin muxtar respublikanın 100 illik yubileyi münasibətilə təbriklərini çatdırıb.

Naxçıvan Muxtar Respublikasının 100 illiyinin Azərbaycanın bütövlüyü və suverenliyi təmin olunmuş şəkildə qeyd olunmasını xüsusi xoşbəxtlik kimi dəyərləndirən Fuad Nəcəfli Prezident İlham Əliyevi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə təbrik edib, ali dövlətçilik fəaliyyətində yeni uğurlar arzulayıb.

Səlahiyyətli nümayəndə Prezident İlham Əliyevin 2023-cü il dekabrın 30-da "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında" imzaladığı Sərəncama əsasən, bu il ərzində əlamətdar tədbirlərin keçiriləcəyini diqqətə çatdırıb.

Fuad Nəcəfli muxtariyyət tarixinə nəzər salaraq vurğulayıb ki, 1921-ci ildə Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasını şərtləndirən 2 mühüm beynəlxalq sənəd - Moskva və Qars müqavilələri imzalanıb, muxtariyyətin əsasları, eyni zamanda Naxçıvan Muxtar Respublikasının ərazisi təsdiq olunub, bu ərazinin beynəlxalq müqavilələrlə qorunan toxunulmazlıq hüququ təsbit edilib. 1921-ci ilin martında Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan Naxçıvan diyarı təşkil olunub. Nəhayət, 1924-cü il fevralın 9-da Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə Naxçıvan diyarı Naxçıvan MSSR-ə çevrilib.

1990-1993-cü illərdə Ümummilli Liderin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi Naxçıvanı erməni işğalından, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas edib. Ulu Öndərin rəhbərliyi ilə 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan parlamentinin iclasında müstəqil dövlətçilik tariximizlə bağlı mühüm tarixi qərarlar qəbul olunub, muxtar respublikanın adından "sovet, sosialist" sözləri çıxarılıb, Ali Sovetin adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılıb. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunub və onun Azərbaycan Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi barədə Azərbaycan Respublikasının Ali Soveti qarşısında vəsatət qaldırılıb. Azərbaycan müstəqillik əldə etdikdən sonra Ümummilli Lider Heydər Əliyevin 1999-cu il 4 fevral tarixli Fərmanı ilə Naxçıvanın 75 illik yubileyi geniş qeyd olunub.

2003-cü ildən etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin digər bölgələri kimi, Naxçıvan Muxtar Respublikasında da mühüm infrastruktur tədbirləri həyata keçirilib, sosial-iqtisadi inkişaf təmin edilib, muxtar respublikanın müdafiə potensialı gücləndirilib. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Naxçıvan Muxtar Respublikasının 80, 85 və 90 illik yubileyləri dövlət səviyyəsində geniş qeyd olunub, 100 illik yubileylə bağlı imzaladığı sərəncamda da vurğulandığı kimi, Naxçıvan Muxtar Respublikasının yaranması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsi kimi yüksək qiymətləndirilib.

2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi ədalətin bərpa olunmasında və 2023-cü il sentyabrın 19-20 tarixlərində Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirlərində Naxçıvanın igid oğulları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazıblar. Beləliklə, istər tarixi Qələbəmiz, istərsə də dövlətimizin suverenliyinin onun bütün ərazisində bərpa olunması regionda yeni reallıqlar yaratmaqla bərabər, Zəngəzur dəhlizinin açılması perspektivində Naxçıvan Muxtar Respublikasının ölkəmizin digər bölgələri ilə quru əlaqəsini də təmin edəcək. Dövlətimizin başçısının diqqət və qayğısının nəticəsi olaraq Naxçıvanda müasir idarəetmə modelinin tətbiqi, aparılan institusional islahatlar, nəqliyyat imkanlarının genişləndirilməsi, Azərbaycanda ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublikanın "yaşıl enerji" zonası elan olunması, bütün bunların yekunu olaraq isə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın qəbul olunması Naxçıvanda yeni inkişaf mərhələsinin əsasını qoyub.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması ilə bağlı verdiyi sərəncama görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib, yubiley münasibətilə muxtar respublika əhalisini təbrik edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov çıxışında bildirib ki, "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında" Prezident İlham Əliyevin Sərəncamı muxtariyyətin Azərbaycan dövlətçiliyində oynadığı rola verilən yüksək qiymətdir. Naxçıvanın milli istiqlal ideyalarına bağlılıq nümayiş etdirərək dövlət müstəqilliyimizin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna xidmətlərinin olması, strateji mövqeyi ilə seçilməsi tarixən onu vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyarın qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etməsinin sərəncamda qeyd olunmasını xatırladan Anar İbrahimov bununla da ölkə başçısı İlham Əliyevin, Naxçıvan Muxtar Respublikasının yaranmasını Azərbaycanın siyasi tarixinin əhəmiyyətli hadisəsi kimi qiymətləndirməsinin göstəricisi olduğunu bildirib. Dövlət başçısının sərəncamda Naxçıvan Muxtar Respublikasının "yaradılması" deyil, məhz "yaranması" ifadəsini işlətməsi onun Naxçıvanın muxtariyyət statusunun qazanmasını kiminsə, ya da kimlərinsə fəaliyyəti deyil, bütövlükdə tarixi və siyasi proseslərin məntiqi davamı kimi qiymətləndirməsinin təzahürü, siyasi irsə, xüsusilə də Ulu Öndər Heydər Əliyevin siyasi irsinə verilən qiymət və sayğının nümunəsidir.

Həqiqətən də Naxçıvan əhalisi, həmin dövrün demokratik ruhlu ziyalıları bölgənin təhlükəsizliyinə, erməni ekspansionistlərinin hərbi basqınlarına qarşı mərdliklə mübarizə aparmış, qanları bahasına qədim diyarı qorumuşlar. Hələ 1918-ci ildə Naxçıvan Milli Şurası Xalq Cümhuriyyəti hökumətinə yazdığı məktubda göstərirdi ki, "biz ermənilərə tabe olmuruq, tezliklə Azərbaycan qoşunları tərəfindən Zəngəzurun azad edilməsini və Naxçıvanın Azərbaycana birləşməsini gözləyirik". Naxçıvan İnqilab Komitəsinin Azərbaycan hökumətinə 1920-ci il 10 avqust tarixli məktubunda da bildirilirdi: "Əhalinin yekdil qərarı ilə Naxçıvan özünü Azərbaycanın ayrılmaz hissəsi hesab edir".

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov qədim, zəngin, çoxəsrlik tarixə, mədəniyyətə, dövlətçilik ənənələrinə malik və "Şərqin qapısı" adlandırılan Naxçıvanın keçdiyi çətin, eyni zamanda, şərəfli inkişaf yolundan bəhs edib. Bildirib ki, Naxçıvanın muxtariyyətinin iki mərhələsi xüsusilə çətin və mürəkkəb dövr olub. Bunlardan biri 1920-1924-cü illəri əhatə edən muxtariyyətin yaranması, digəri isə 1990-1993-cü illərdə muxtariyyətin qorunub saxlanıldığı dövrdür.

1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaradılması bu qədim diyarın gələcək müqəddəratının həlli, ölkəmizin ərazi bütövlüyünün təmin olunması baxımından çox mühüm siyasi əhəmiyyətə malikdir. Bu mənada, Ulu Öndər Heydər Əliyevin Naxçıvanın Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi muxtariyyəti böyük tarixi nailiyyət adlandırması təsadüfi deyil. Muxtariyyət dövründə ikinci çətin mərhələ isə 1990-cı ildə Naxçıvanın Ermənistan tərəfindən blokadaya alınması olub. Həmin dövrdə Naxçıvan Ümummilli Liderimizin də dediyi kimi: "Taleyin ümidinə buraxılmış tənha bir adanı xatırladırdı". Bu gündən 33 il əvvəlki tarixə nəzər saldıqda açıq şəkildə görmək olur ki, Ulu Öndər o zaman Naxçıvana qayıtmasaydı, Naxçıvan da Qarabağ kimi işğala məruz qalacaqdı.

Səbuhi Məmmədov qeyd edib ki, bu gün Naxçıvan qalib Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi bölgə maraqlarından çıxaraq Şərq-Qərb tranzitində açar rolunu oynayan region kimi diqqət çəkir. Zəngəzur dəhlizinin açılması isə Naxçıvan Muxtar Respublikasının Türk dünyasına açılan bir qapı kimi rolunu artıracaq. Zəngəzur dəhlizi Türk dünyasının bütün ölkələrini Avropa və Asiya ilə birləşdirməklə əlaqələrinin genişləndirilməsində böyük rol oynayacaq. Bununla da gələcəkdə regionda sosial-iqtisadi münasibətlər daha da genişlənəcək. Zəngəzur dəhlizinin açılmasından sonra mühüm nəqliyyat habına çevriləcək qədim diyar həm də Cənubi Qafqazın iqtisadi inkişafına və təhlükəsizliyinə öz töhfəsini verəcək.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəylinin, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin və AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Hacıfəxrəddin Səfərlinin çıxışları dinlənilib. Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının inkişafına hər zaman böyük həssaslıqla yanaşıb, zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik bu qədim diyarın muxtariyyət tarixinin öyrənilməsinin və təbliğinin zəruriliyini mühüm vəzifə kimi qarşıya qoyub.

Sonra Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunmuş videoçarx və Naxçıvan Televiziyasının hazırladığı "Ulu torpaq, Ulu Öndər" filmi nümayiş etdirilib.

Tədbir bədii hissə ilə davam edib.

# Güclü lider, nüfuzlu Prezident, qalib Sərkərdə...

## İlham Əliyevə seçkilərdəki qələbəsi münasibətilə ünvanlanan hər bir təbrik dövlətimizin başçısına olan qlobal ehtiramın ifadəsidir

Azərbaycanı dünyanın sayılıb-seçilən ölkəsinə çevirən, onu tarixindəki ən qüdrətli çağına yetirən, torpaqlarının işğalına son qoyan, suverenliyini təmin edən Prezident İlham Əliyev xalqımıza həm də milli qürur xoşbəxtliyi bəxş edib. Buna görədir ki, fevralın 7-də Azərbaycan xalqı ona ardıcıl qələbələr ərmağan edən Müzəffər Rəhbərinə bir daha yüksək etimad göstərərək Zəfər seçkisinin qalibi etdi.

### Budəfəki təbriklər həm də Müzəffər Liderə ünvanlanıb

Ümumilikdə ölkəmizin, xalqımızın milli birliyinin təntənəsi sayılan bu parlaq qalibiyyət beynəlxalq aləmdə də böyük əks-səda doğurub, rəğbətlə qarşılanıb.

Zəfər seçkisinin ilkin nəticələrinin elan olunduğu zamandan etibarən İlham Əliyevə xarici dövlət və hökumət başçıları, tanınmış ictimai-siyasi xadimlər tərəfindən çoxsaylı zənglər edilir, təbriklər göndərilir.

Həmin zənglərin, təbriklərin İlham Əliyevin timsalında həm də savaşda zəfər çalmış Müzəffər Liderə ünvanlanması isə bir başqa qürurverici məqamdır.

Bu məktubların hamısının mətnində İlham Əliyevin şəksiz liderliyi, Azərbaycanı şəxsi əzmi və qətiyyəti, eləcə də siyasi iradəsi sayəsində Zəfər zirvələrinə yetirməsi, dünyada sözü keçən qüdrətli ölkəyə çevirməsi başlıca yer tutur.

O da gerçəklikdir ki, bu məzmunlu məktublar, təbriklər heç də bütün ölkə başçılarına göndərilmir...

Və bu da İlham Əliyevin qlobal lider, dünyanüfuzlu dahi siyasətçi olmasının daha bir göstəricisidir.

### Vladimir PUTİN: "Səsvermənin nəticələri Sizin yüksək siyasi nüfuzunuzu tam təsdiq edir"



Fevralın 7-də Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə İlham Əliyevə göndərdiyi təbrik məktubunda deyir: "Səsvermənin nəticələri Sizin yüksək siyasi nüfuzunuzu, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı və onun mövqelərinin dünya arenasında möhkəmləndirilməsi üzrə həyata keçirdiyiniz kursa ümumxalq dəstəyini tam təsdiq edir".

Bakı ilə müttəfiqlik münasibətlərinə böyük əhəmiyyət verdiklərini qeyd edən V.Putin, bütün sahələrdə səmərəli ikitərəfli əməkdaşlığın, beynəlxalq gündəliyin aktual məsələlərinin həllində tərəfdaşlıq qarşılıqlı əlaqələrinin genişləndirilməsi üzrə fəal birgə işin davam etdiriləcəyinə əminliyini bildirir: "Şübhəsiz ki, bu iş dost xalqlarımızın maraqlarına cavab verir, Cənubi Qafqazda və Xəzər regionunda sabitliyin, təhlükəsizliyin gücləndirilməsi istiqamətində gedir".

Eyni zamanda sözügedən tarixdə Rusiya Prezidenti Vladimir Putin Prezident İlham Əliyevə zəng edərək prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırıb, Ona Azərbaycanın inkişafı və xalqımızın firavanlığı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

### Rəcəb Tayyib ƏRDOĞAN: "Azərbaycanın torpaqlarını işğaldan azad etməsi və beynəlxalq aləmdə getdikcə artan nüfuzu bizim üçün daim qürurverici olub"



Fevralın 7-də Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubuna "hörmətli cənab Prezident, Əziz Qardaşım", xitabları ilə başlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, "bu gün keçirilən seçkilərdə uğur qazanaraq beşinci dəfə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizə millətim adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram. Zati-alinizin uğurlu liderliyi ilə Azərbaycanın əmin addımlarla əldə etdiyi inkişaf, bütün torpaqlarını işğaldan azad etməsi və beynəlxalq aləmdə getdikcə artan nüfuzu bizim üçün daim qürurverici olub"- deyə bildirib.

R.T.Ərdoğan onu da vurğulayıb ki, Türkiyə ilə Azərbaycan arasında "Sevincdə və kədərdə birlik" ilə "Bir millət, iki dövlət" şüarları zəminində formalaşan qardaşlıq və həmrəylik əlaqələri Şuşa Bəyannaməsi ilə münasibətlərimizin güclü əsasını təşkil etməyə davam edəcəkdir: "Qardaş Azərbaycan xalqı tərəfindən yenidən lider seçilməyinizin təkcə ölkələrimiz arasındakı bənzərsiz münasibətlər baxımından deyil, bölgəmizin uzun illərdir ehtiyac duyduğu sülh və sabitliyin bərqərar olması baxımından da böyük bir nailiyyət olduğunu düşünürəm.

Bu baxımdan müzəffər lider kimi seçkiləri uğurla başa vurmağınızdan sonra böyük əmək sərf etdiyiniz Ermənistanla müzakirələrin də sülh müqaviləsinin imzalanması ilə nəticələnəcəyinə ümid edirəm".

Fevralın 7-də Türkiyə Prezidenti R.T.Ərdoğan Prezident İlham Əliyevə zəng edərək dövlətimizin başçısının rəhbərliyi ilə Vətən müharibəsində Azərbaycanın Qələbə çalmasının və suverenliyimizin tam bərpa olunmasının böyük önəm daşıdığını bir daha vurğulayıb, bu xüsusda Azərbaycanda prezident seçkilərinin bütün ölkə ərazisində keçirilməsi münasibətilə də təbriklərini çatdırıb.

### Si CİNPİN: "Sizinlə birlikdə ikitərəfli münasibətlərin inkişafında və bütün sahələrdə əməkdaşlığın yeni səviyyəyə yüksəldilməsində birgə səylər göstərməyə hazıram"



Çin Xalq Respublikasının Sədri Si Cinpin fevralın 8-də İlham Əliyevə göndərdiyi məktubunda Onu yenidən Azərbaycanın Prezidenti seçilməsi münasibətilə təbrik edərək, əmin olduğunu bildirib ki, Azərbaycan İlham Əliyevin rəhbərliyi ilə bütün dövlət quruculuğu təşəbbüslərində yeni nailiyyətlər əldə edəcək: "Son illər Çin-Azərbaycan münasibətləri öz inkişafının nümunəvi və sabit olması ilə fərqlənir. Yüksək səviyyəli siyasi etimad mühiti yaranır, "Bir kəmər, bir yol" təşəbbüsünün birlikdə həyata keçirilməsində irəliləyiş, beynəlxalq münasibətlərdə sıx qarşılıqlı fəaliyyət müşahidə olunur".

S.Cinpin bildirib ki, O, Çin-Azərbaycan münasibətlərinə böyük əhəmiyyət verir: "Bizim işgüzar münasibətlərimizi və şəxsi dostluğumuzu yüksək qiymətləndirirəm. Sizinlə birlikdə ikitərəfli münasibətlərin inkişafında və bütün sahələrdə əməkdaşlığın yeni səviyyəyə yüksəldilməsində birgə səylər göstərməyə hazıram".

### Şavkat MİRZİYOYEV: "Azərbaycan dövləti şanlı zirvələri fəth edir"



Özbəkistan Prezidenti Şavkat Mirziyoyev fevralın 8-də İlham Əliyevə göndərdiyi təbrik məktubunda deyir: "Sizin namizədliyinizin əhali tərəfindən hərtərəfli dəstəklənməsi xalqınızın irəli sürdüyünüz strateji proqram və planlara sonsuz inamının əyani təzahürüdür. Bu, ilk növbədə, Azərbaycanın ərazi bütövlüyünün tam bərpası və tarixi ədalətin bərqərar olması, ölkənizdə bütün sahələrdə aparılan genişmiqyaslı islahatlar və böyük quruculuq işləri ilə bilavasitə bağlıdır desəm, əsl həqiqəti ifadə etmiş olaram".

Ş.Mirziyoyev onu da qeyd edir ki, "bu gün Sizin - öz xalqının həqiqi müdrik liderinin, vətənpərvər və fədakar, görkəmli siyasi xadiminin rəhbərliyi ilə Azərbaycan dövləti şanlı zirvələri fəth edir və onun beynəlxalq arenada nüfuzu, etibarı getdikcə artmaqdadır. Heç şübhəsiz, Sizin bu yüksək vəzifədə fəaliyyətiniz dövlətçiliyin əsaslarının hərtərəfli möhkəmlənməsinə və cəmiyyətin müasirləşməsinə, əhalinin həyat səviyyəsinin daha da yüksəlməsinə, ölkənin sosial-iqtisadi inkişafının təmin olunmasına xidmət edəcəkdir".

### Emoməli RƏHMON: "Qardaş Azərbaycanın ali dövlət vəzifəsinə yenidən seçilməyiniz Azərbaycan cəmiyyətinin Sizə olan yüksək etimadının daha bir inamlı təsdiqidir"



Tacikistan Prezidenti Emoməli Rəhmon təbrik məktubunda deyib: "Qardaş Azərbaycanın ali dövlət vəzifəsinə yenidən seçilməyiniz Azərbaycan cəmiyyətinin Sizə olan yüksək etimadının daha bir inamlı təsdiqidir və ölkənin ardıcıl sosial-iqtisadi inkişafına, həmçinin dövlətinizin beynəlxalq arenada nüfuzunun möhkəmləndirilməsinə yönəlmiş strateji kursunuzun xalqınız tərəfindən geniş şəkildə dəstəklənməsinin göstəricisidir".

"Ümumxalq səsvermənin yekunları Sizin çoxşaxəli islahatlar kursunuza tam etimadın və xalqın birliyinin, dövlətin ərazi bütövlüyünün və dinamik inkişafının təmin edilməsi işində xidmətlərinizin təsdiqinin parlaq sübutuna çevrildi", - deyə fevralın 8-də Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubunda Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bildirib.

Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubunda bildirib: "Səsvermənin nəticələri Azərbaycan xalqının Sizin dövlətçiliyin möhkəmləndirilməsinə və ölkənin sosial-iqtisadi inkişafına istiqamətlənmiş siyasi kursunuza yüksək səviyyədə etimadının və dəstəyinin göstəricisidir. Əminəm ki, bu mühüm hadisə Azərbaycan Respublikasının gələcəkdə də inkişafına və onun vətəndaşlarının rifahının yüksəldilməsinə kömək edəcəkdir".

### Aleksandar VUÇİÇ: "Bu qələbə Azərbaycan vətəndaşlarının Sizin liderliyinizə olan hədsiz etimadının təzahürüdür"



Serbiya Prezidenti Aleksandar Vuçiç İlham Əliyevə göndərdiyi təbrikində vurğulayıb: "Bu qələbə Azərbaycan vətəndaşlarının Sizin liderliyinizə olan hədsiz etimadının təzahürüdür. Bununla yanaşı, bu nəticə dahi Heydər Əliyev tərəfindən qoyulmuş təməl üzərində son 20 ildə Sizin daxili, regional və beynəlxalq müstəvidə əldə etdiyiniz misilsiz nailiyyətlərə verilmiş qiymətdir".

A.Vuçiç əlavə edib: "Sizin strateji siyasətiniz və sadiqliyiniz sayəsində Azərbaycan sosial və iqtisadi inkişaf istiqamətində ciddi irəliləyişə nail olmuş, hər bir vətəndaşın təhlükəsizliyi və firavanlığı təmin edilmiş, ölkəniz regional liderə çevrilərək beynəlxalq arenada həsədaparılası nüfuza sahib olmuşdur".

Belarus Prezidenti Aleksandr Lukaşenko fevralın 8-də Prezident İlham Əliyevə göndərdiyi təbrikində bildirib: "İyirmi il ərzində Sizin qətiyyətiniz, yüksək siyasi mədəniyyətiniz, xalqınızın səsini eşitmək bacarığınız sayəsində dünyada rəyi ilə hesablaşılan güclü, müstəqil dövlət qurulmuşdur. İqtisadi tərəqqi və vətəndaşların rifahının yüksəlməsi, ölkənin suverenliyinin möhkəmlənməsi və beynəlxalq aləmdə rolunun artması haqlı olaraq Sizin adınızla bağlıdır".

Xorvatiya Prezidenti Zoran Milanoviç fevralın 8-də göndərdiyi məktubunda bu sözləri vurğulayıb: "İnanıram ki, Siz dövlətinizin ümumi inkişafı və vətəndaşlarınızın firavanlığı naminə fədakarlıqla işləməyə davam edəcəksiniz".

Fevralın 8-də "X" sosial şəbəkə hesabında paylaşım edərək İlham Əliyevi prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edən Ukrayna Prezidenti Volodimir Zelenski yazıb: "Mən ölkələrimizin suverenliyi və ərazi bütövlüyünə qarşılıqlı dəstəyi yüksək qiymətləndirirəm. Dövlətimizin azadlıq mübarizəsinin tarixi dövründə humanitar və digər yardımlara görə Azərbaycana minnətdarıq".

"Prezident Əliyevlə şəxsi konstruktiv və etibarlı münasibətimi, razılaşmaların həyata keçirilməsini və komandalarımız arasında səmərəli qarşılıqlı fəaliyyəti yüksək qiymətləndirirəm. Əminəm ki, Ukrayna və Azərbaycan arasında strateji əlaqələr yalnız möhkəmlənəcək", - deyə Ukrayna Prezidenti təbrikində vurğulayıb.

Fevralın 8-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel İlham Əliyevə zəng edərək fevralın 7-də Azərbaycanda keçirilmiş seçkilərdə qələbə münasibətilə Onu təbrik edib və yeni mandatın icrasında dövlətimizin başçısına uğurlar arzulayıb.

### Sözü imzasıdır

Siyasi liderlik qabiliyyəti, qətiyyəti, əzmi, gücü, Vətənə olan tükənməz sevgisi sayəsində ötən müddətdə İlham Əliyevin ölkəmiz, xalqımız adına əldə etdiyi hərtərəfli qələbələr, xüsusilə də hərbi zəfərlər Azərbaycanın dünyadakı mövqeyini daha da möhkəmləndirib, nüfuzunu zirvələrə qaldırıb. Cənubi Qafqazın lider ölkəsi Azərbaycanın bu gün təkcə regional deyil, qlobalmiqyaslı məsələlərdə də həlledici rol oynaması, söz sahibi olması beynəlxalq səviyyədə də dilə gətirilən gerçəklikdir. Bu gün elə bir qlobal məsələ, beynəlxalq müstəvidə gerçəkləşdirilən elə bir layihə yoxdur ki, onunla bağlı Azərbaycanın rəyi və mövqeyi nəzərə alınmamış olsun. Ölkəmizin beynəlxalq tədbirlərə uğurla evsahibliyi etməsi, sivilizasiyalararası dialoqların baş tutduğu vacib platformaya çevrilməsi də onun dünyada hansı yüksək mövqeni tutduğunu bir daha göstərir.

Sözü imzası qədər keçərli olan İlham Əliyev şəxsiyyətinin etibarlı, bütöv, dönməz xarakterinin inikasıdır ki, əksər dövlət başçısı İlham Əliyevin timsalında əziz qardaşa, ən yaxın dosta, ən etibarlı tərəfdaşa malik olduğunu söyləyir.

Bütün bunlara görə heç də təəccüblü deyil ki, növbəti dəfə prezident seçkilərində xalqın mütləq əksəriyyətinin səsini qazanaraq qalib gələn Azərbaycanın Müzəffər Sərkərdəsi İlham Əliyevə dünyanın hər yerindən dövlət başçıları, mötəbər şəxslər, tanınmış ictimai-siyasi xadimlər tərəfindən təbrik məktubları gəlməkdə davam edir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## ABŞ-nin Etnik Anlaşma Fondunun prezidenti dövlətimizin başçısı İlham Əliyevi seçkilərdə qazandığı inamlı qələbə münasibətilə təbrik edib

ABŞ-nin Etnik Anlaşma Fondunun prezidenti Ravvin Mark Şnayer dövlətimizin başçısı İlham Əliyevi prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, Mark Şnayerin sosial şəbəkə hesablarında bununla bağlı etdiyi paylaşımda deyilir: "Zati-aliləri Prezident İlham Əliyevi yenidən seçilməsi münasibətilə təbrik edirəm. Mən Azərbaycanın dinlərarası və mədəniyyətlərarası dialoqun, həmçinin dünyada birgəyaşayışın dayaq məkanına çevrilməsində müstəsna liderliyinə, İsrail Dövlətinə və Yəhudi xalqına göstərdiyi nümunəvi dəstəyə görə əziz dostuma heyranam".

# Prezident seçkiləri yeni dövrün başlandığının mesajını verdi

*Əvvəli 1-ci səh.*

Vətən müharibəsində qazandığımız qələbə onları bu ağır mənəvi yükdən, ürək ağrısından qurtardı. Böyük Zəfərimizdən qısa müddət sonra işğaldan azad olunmuş ərazilərimizdə tikinti-quruculuq işlərinə başlanıldı. Sürətlə həyata keçirilən Böyük Qayıdış layihəsi çərçivəsində görülən işlərin nəticəsində işğalçıların xarabalığa çevirdikləri əzəli torpaqlarımızda həyat canlanmaqdadır. Yollar çəkilir, evlər tikilir, infrastrukturlar yaradılır.

Otuz illik ayrılıqdan sonra dədə-baba yurduna qayıdan, yeni evində yaşayan keçmiş məcburi köçkünlərin yaşlarından asılı olmayaraq, hər biri fevralın 7-də səsverməyə ilk dəfə gedirmiş kimi həyəcanla, sevinclə qatıldılar. Yurduna qovuşacağı vaxta sayılı günlər qalanlar isə illərdir məskunladıqları yerlərdə sonuncu dəfə səsvermədə iştirak edirdilər.

O gün respublikanın bütün regionlarında yaşayanlar bir əhvali-ruhiyyəyə kökləndilər. Hamı bir duyğu işərisində idi. Bu duyğunun adı qürurdu. Müstəqil Azərbaycan tarixində ilk dəfə müqəddəs bayrağımız dalğalanan bütün ölkə ərazilərində seçkilər keçirilirdi. 4 milyon 651 min 473 seçici bu tarixi hadisənin yalnız şahidi deyil, həm də iştirakçısı oldu.

Fevralın 7-də 200 illik tariximizin ən böyük qələbəsindən sonra ilk seçki keçirildi. Qalib ölkənin vətəndaşı olmağın fərəhi, iftixarı ilə səsvermədə iştirak etmək, dövlət başçısını seçmək bayram ovqatı yaratdı. Bu tarixi seçkidə - Zəfər seçkisində Azərbaycan xalqı öz seçimini etdi. Prezident seçkilərində seçicilərin 92,5 faizi Qarabağ və Şərqi Zəngəzuru işğaldan azad edən, respublikamızın suverenliyini tam təmin edən Qalib Liderə - İlham Əliyevə səs verdi.

Vətən müharibəsində qazandığmız Zəfər tariximizdə yeni mərhələnin başlanğıcı oldu. Xarici havadarlarından aldığı dəstəklə havalanan, özünü işğal altında saxladığı Azərbaycanın əzəli torpaqlarında - Qarabağ və Şərqi Zəngəzur ərazilərində yenilməz sayan Ermənistan 2020-ci ilin payızında cəmi 44 gün davam edən müharibədə xar oldu. Ermənistan silahlı qüvvələrinin Müzəffər Azərbaycan Ordusunun qarşısında nə qədər aciz, zəif, qeyri-peşəkar olduğunu bütün dünya gördü.

Azərbaycan xalqı bu tarixi Zəfəri Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə çox çətin sınaqlardan, böyük mübarizələrdən keçərək qazandı.

### Prezident seçkiləri dünyanın diqqət mərkəzində oldu

Otuz ildən sonra birinci dəfə ərazi bütövlüyünü tam təmin etmiş Azərbaycanda baş tutan prezident seçkiləri dünyanın bir çox ölkələrinin, nüfuzlu beynəlxalq təşkilatların diqqət mərkəzində idi. Seçkilər 90 min 372 müşahidəçi, 190 xarici media qurumunun 200-dən artıq nümayəndəsi, 72 beynəlxalq təşkilatı təmsi edən şəxslərin iştirakı ilə keçirildi. Seçkiləri müşahidə edən beynəlxalq təşkilatların nümayəndələri ayrı-ayrı bölgələrdə seçki məntəqələrində oldular, seçki prosesini izlədilər. Və prezident seçkilərinə hazırlığın yüksək səviyyədə təşkil olunduğunu, səsvermədə seçici fəallığını qeyd etdilər. Eyni zamanda xaricdə yaşayan soydaşlarımız və ya əcnəbilər 1000 seçki məntəqəsində quraşdırılan veb-kameralar vasitəsi ilə səsvermə prosesini canlı izləyə bildilər.

Mərkəzi Seçki Komissiyasının seçkinin nəticəsi ilə bağlı açıqladığı ilkin rəqəmlər 3 təşkilatın - Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının ABŞ-nin "ORACLE ADVISORY GROUP" təşkilatı ilə birgə, "Rəy" Monitorinq Mərkəzi və Sosioloji Tədqiqatlar Mərkəzinin keçirdiyi "exit-poll"ların nəticəsi ilə demək olar ki, üst-üstə düşdü.

Prezident seçkilərini müşahidə edən Parlamentlərarası Assambleyanın, Asiya Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının Gənclər Təşkilatının, TÜRKPA-nın Beynəlxalq Münasibətlər və hüquq komissiyasının, İslam Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının, Xəzər Strateji Araşdırmalar İnstitutunun, o cümlədən Türkiyə, Pakistan, Özbəkistan, Bosniya və Herseqovina, Meksika, Belarus, Mərakeş, Kamboca, İordaniya, İraq və Ərəb parlamentinin nümayəndə heyətlərinin yaydıqları bəyanatlarda, açıqladıqları hesabatlarda seçkilərin rahat, dinc şəraitdə keçdiyi açıqlandı. MDB-nin Baş katibi və təşkilatın müşahidə missiyasının rəhbəri Sergey Lebedev prezident seçkilərinin Azərbaycan Konstitusiyasına tam uyğun keçirildiyini bəyan etdi.

Beynəlxalq KİV-in də prezident seçkilərinə marağı diqqətçəkəndir. Dünyanın aparıcı mətbu orqanlarında yayımlanan məqalə və reportajlarda, məntəqələrdən edilən canlı yayımlarda beynəlxalq medianın nümayəndələri səsvermə prosesinin şəffaf və demokratik şəraitdə keçdiyi barədə məlumat verdilər. Onlardan biri - "Associated Press" agentliyi seçki məntəqələrindən birində canlı yayımında seçicilərin fəallıqla səs verdiklərini, seçki prosesinin sərbəst, maneəsiz şəkildə davam etdiyini vurğuladı.

Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) hələ seçkiyə qədərki dövrdə bir neçə dəfə paytaxt Bakıda və regionlarda müşahidəçilərlə görüşlər keçirdi, onlar üçün təlimlər təşkil etdi. BAMF-ın seçki günü müşahidəçilik missiyası seçkilər yekunlaşanadək aktiv fəaliyyətdə oldu. Müşahidəçi heyət üzvləri ümumilikdə 22 fərqli dairə olmaqla, 38 məntəqədə səsvermə prosesini izlədilər. Əlli nəfərlik heyətdən 10 nəfəri işğaldan azad olunmuş ərazilərdə - Xankəndi, Şuşa, Füzuli, Xocalı və Ağdərədə müşahidəçilik missiyasını yerinə yetirdi.

BAMF-ın Azərbaycan Respublikası Prezidenti seçkilərində müşahidəçilik missiyası ilə bağlı keçirdiyi brifinqdə əvvəlki seçkilərdən fərqli olaraq, seçicilərin aktivliyi nəzərəçarpacaq dərəcədə yüksək olduğu qeyd edildi: "İlk dəqiqələrdən etibarən açılışında iştirak etdiyimiz 38 məntəqənin hər birində izdiham müşahidə olunub. Səhər saatlarından başlayan bu izdiham ən azı 2-2.5 saat müddətində davam edib. Hətta bəzi məntəqələrdə seçicilərin sıxlığı 5-6 saatdan çox davam edib. Müşahidələr onu göstərir ki, əksər məntəqədə 85-90 faizə qədər seçici fəallığı izlənilib. Xüsusilə, məcburi köçkün qəsəbələrində və işğaldan azad olunmuş ərazilərdə yerləşən məntəqələrdə müşahidə olunan seçici fəallığı özünü göstərib və müşahidəçilərin qeydləri arasında öz əksini tapıb. Müşahidəçilərimizin qeydlərinə əsasən, seçki prosesi son dərəcə şəffaf və obyektiv şəkildə keçirilib".

BAMF-dan açıqlandı ki, həm müşahidəçilərin, həm də medianın fəaliyyətinə lazımi şərait yaradılıb və hər şey göz önündə olub.

Seçkilərin gedişi, nəticələri, yerli və beynəlxalq müşahidəçilərin iştirakı ilə səsvermə prosesi barədə Almaniyanın "ZDF" telekanalı, Argentinanın "realpolitik.com.ar", İndoneziyanın "Radio Republik İndoneziya" radiosu, Rusiyanın "Vedomosti", Bəhreynin "newsofbahrain.com" portalı, Çilinin "el periodista" saytı və digər media orqanları da yazıblar. Diqqətə çatdırıblar ki, seçkilərdə müşahidə aparmaq üçün 790 nəfəri beynəlxalq müşahidəçi olmaqla, minlərlə müşahidəçi, siyasi partiyaların təmsilçiləri və qeyri-hökumət təşkilatlarının üzvləri prosesin azad, şəffaf və demokratik şəraitdə keçdiyinə şahid olublar. Bu seçkilərin Azərbaycanın müstəqilliyinin bərpasından sonra bütün ölkə ərazisində baş tutan ilk seçkilər kimi ölkə tarixinə düşdüyünü xüsusi qeyd ediblər.

Azərbaycanın son illərdə yürütdüyü siyasət, dövlət başçısının ölkənin ərazi bütövlüyünün bərpası istiqamətində fəaliyyətinin əhalinin seçkilərdə aydın qərar verməsinə və Prezident İlham Əliyevin 92,12 faiz səslə qalib gəlməsinə aparıb çıxardığı beynəlxalq mətbu orqanlarda da vurğulanıb. Paytaxt Bakıda və regionlarda insanların səsvermənin nəticələri elan olunduqdan dərhal sonra böyük coşqu və sevinclə bayram etməsi, səsvermədən öncəki sorğuların seçkilərin nəticələri ilə üst-üstə düşdüyü nəzərə çatdırılıb.

### Antiazərbaycançı şəbəkəyə ağır zərbə

Şübhəsiz ki, keçirilən prezident seçkiləri ölkəmizin otuzillik işğala son qoymasını, suverenliyinə tam nail olmasını, bütün sahələrdə gündən-günə inkişaf etməsini gözü götürməyən, məkrini, qərəzini Azərbaycana qarşı böhtanlar yağdırmaqla, yalanlara əl atmaqla, ədalətsiz qərarlar verməklə bildirən antiazərbaycançı şəbəkəyə ağır zərbə oldu. Avropa Şurası Parlament Assambleyası (AŞPA), Qərb ölkələrinin ermənipərəst siyasətçiləri başda olmaqla, respublikamıza qarşı bütün xəbis niyyətlilər cəhdlərinin nə qədər boş, mənasız və uğursuz olduğunu bir daha gördülər. Fevralın 7-də dünya Azərbaycanın çox yüksək seçki təcrübəsini də, bu ölkənin vətəndaşlarının mütəşəkkil şəkildə seçkilərdə iştirak edərək inandığı, etimad göstərdiyi namizədə səs verdiyini də gördü.

Seçkilər ölkə konstitusiyasına və beynəlxalq qanunların tələblərinə uyğun şəkildə keçirildi. Bunu görməmək, etiraf etməmək mümkünsüzdür. Azərbaycan xalqının Qalib Lideri İlham Əliyevin fevralın 7-də Xankəndi şəhərində 122 saylı Seçki Dairəsinin 14 saylı seçki məntəqəsində səs verməsinin isə simvolik mənası var. Bununla o, dünyaya Qarabağda, Xankəndidə sülhün və sabitliyin bərqərar olduğu yeni dövrün başlandığının mesajını verdi.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# İraq Respublikası Parlamentinin müşahidə missiyasının üzvləri ilə görüş keçirilib



Fevralın 9-da Milli Məclisin Sədr müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli Azərbaycanda fevralın 7-də keçirilən prezident seçkilərini müşahidə etmək məqsədilə ölkəmizdə səfərdə olan İraq Respublikası Parlamentinin müşahidə missiyasının üzvləri ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan vitse-spiker Azərbaycanda keçirilən prezident seçkilərində müşahidəçi qismində iştirakına görə İraq Respublikası Parlamentinin müşahidə missiyasının üzvlərinə təşəkkür edib, bu seçkilərin tarixi və siyasi əhəmiyyətindən söz açıb, xalqın seçkilərdə mütəşəkkil iştirakını və yekdilliklə səs verməsini ölkəmizdə bərqərar olmuş xalq-dövlət birliyinin təzahürü kimi dəyərləndirib.

Fəzail İbrahimli Azərbaycan və İraq xalqlarını bir-birinə bağlayan dəyərlərdən söz açıb, ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olmasından danışıb. O, qonaqlarla Azərbaycanın qazandığı uğurlar, öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, bu səbəbdən də bəzi siyasi dairələrin təzyiqinə məruz qalması barədə fikirlərini bölüşüb.

Görüşdə İraq Respublikası Parlamentinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Cabbar Əl-Çənani onlara göstərilən qonaqpərvərliyə görə təşəkkür edib, seçkilərin uğurlu keçirilməsinə görə təbriklərini çatdırıb, seçki prosesinin beynəlxalq standartlara uyğun təşkil olunduğunu bildirib. O, Azərbaycan və İraq arasında siyasi əlaqələrin yüksək səviyyədə olmasını qeyd edib, münasibətlərin inkişafında qarşılıqlı səfərlərin, müntəzəm təmasların, o cümlədən parlamentlərarası əlaqələrin intensivliyinin rolunu vurğulayıb.

Görüşdə Milli Məclisin İraqla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri İlham Məmmədov, deputatlar Cavanşir Paşazadə və Əminə Ağazadə, İraqın Azərbaycandakı müvəqqəti işlər vəkili Maki Ressan Əl-Mamori Azərbaycanda prezident seçkilərinin beynəlxalq normalara uyğun və yüksək səviyyədə keçirildiyini vurğulayıblar, Azərbaycan və İraq arasında münasibətlər, parlamentlərarası əlaqələrin perspektivləri barədə fikirlərini bölüşüblər.

Söhbətdə tərəfləri maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan və Gürcüstan xarici işlər nazirləri arasında telefon danışığı olub

Fevralın 9-da Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Gürcüstanın yenidən təyin edilmiş xarici işlər naziri İliya Darçiaşvili arasında telefon danışığı baş tutub.




Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Bayramov Gürcüstanın yeni qurulmuş hökumətində yenidən xarici işlər naziri təyin edilməsi münasibətilə həmkarını təbrik edib və ona bu şərəfli vəzifəsində uğurlar arzulayıb.

Tərəflər iki ölkə arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin cari vəziyyətini və gələcəkdə bu əlaqələrin daha da inkişafı istiqamətində mövcud planlar və perspektivləri müzakirə ediblər.

Nazirlər, həmçinin regional məsələləri və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq istiqamətləri ətrafında fikir mübadiləsi aparıblar.

# Baş prokuror Saatlı rayonunda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.

Fevralın 9-da Baş prokuror Kamran Əliyev Saatlı rayon prokurorluğunun inzibati binasında Saatlı, Sabirabad, Biləsuvar, Cəbrayıl rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 86 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# Ötən il Qadın Resurs mərkəzlərinin xidmətlərindən 8336 nəfər bəhrələnib



Fevralın 9-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) 2023-cü il fəaliyyətinin yekunlarına həsr olunmuş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, komitənin sədri Bahar Muradova ötən ildə ərazi bütövlüyümüzün bərpası və bu il seçkilərdə Prezident İlham Əliyevin qalib gəlməsi ilə ölkəmizin yeni dövrə qədəm qoyduğunu vurğulayıb. Bildirib ki, bu önəmli hadisələr fonunda komitə də üzərinə düşən vəzifələri layiqincə icra etməyə çalışır.

Qeyd edilib ki, ötən il ailə, qadın və uşaq məsələləri istiqamətində normativ-hüquqi bazanın gücləndirilməsi və qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə komitə tərəfindən 6 sənəd layihəsi hazırlanıb, 5 sənəd layihəsinə rəy və təklif verilib. Eyni zamanda müxtəlif mövzuda 6 araşdırma və təhlil yekunlaşıb.

Bildirilib ki, ailə məsələləri istiqamətində 10 min 379 nəfərin iştirakı ilə 66 təlim, seminar və icma görüşü keçirilib, 7 sosial layihə icra edilib. B.Muradova Türkiyə ilə Azərbaycan arasında imzalanmış Fəaliyyət Planına uyğun olaraq, qardaş ölkədən dəvət olunmuş hekayəçilərin iştirakı ilə 5000-ə yaxın valideyn və uşaq auditoriyasını əhatə edən nağıl günlərinin təşkil edildiyini deyib.

Qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi istiqamətində 2666 nəfərin iştirakı ilə 15 təlim və seminar, konfrans keçirilib. Həmçinin 8336 nəfər Qadın Resurs mərkəzlərinin xidmətlərindən bəhrələnib. Komitənin nəzdində fəaliyyət göstərən 11 Uşaq və Ailələrə Dəstək mərkəzlərinin fəaliyyətindən 32 min 399 nəfər yararlanıb. 2023-cü il ərzində erkən nikah hadisəsi ilə bağlı 29 fakt üzrə monitorinq-ailə səfərləri təşkil edilib, 25 erkən nikah halının qarşısı alınıb.

Diqqətə çatdırılıb ki, komitənin "Qadın Dəstək Xətti"nə 4079, "Uşaq Qaynar Xətti"nə 4453, 860-Gender əsaslı zorakılıqla bağlı Dəstək xəttinə 302 müraciət daxil olub və hər biri təmin edilib.

Komitə sədrinin müavini Sədaqət Qəhrəmanova çıxışında "2021-2023-cü illər üzrə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kommunikasiya Strategiyası"nın və "Sosial Media Siyasəti"nin icra vəziyyəti, "2024-2026-cı illər üzrə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kommunikasiya Strategiyası"nın həyata keçirilməsi, Dövlət Komitəsinin tabeliyində olan Uşaq və Ailələrə Dəstək mərkəzləri tərəfindən ailə səfərlərinin təşkili və aparılması üzrə və Uşaq və Ailələrə Dəstək mərkəzlərinin əməkdaşlarının vəzifə təlimatlarının təsdiq edilməsi barədə məlumat verib.

İclasın sonunda komitənin ötənilki fəaliyyəti nəzərə alınıb, qarşıdakı sessiya üçün iş planının layihəsi təsdiqlənib.

# Azərbaycan və İsveçrə XİN-ləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu baş tutub

Fevralın 9-da Bakıda Azərbaycan və İsveçrə Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Məsləhətləşmələrdə Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, İsveçrə nümayəndə heyətinə isə Federal Xarici İşlər Departamentinin Dövlət katibinin köməkçisi, Avrasiya idarəsinin müdiri xanım Müriel Peneveyre rəhbərlik ediblər.

Görüş zamanı iki ölkə arasında siyasi, iqtisadi, energetika, nəqliyyat və humanitar sahələrdə əlaqələrin cari vəziyyəti və inkişaf perspektivləri, habelə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq mövzuları müzakirə olunub.

Bu il Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə bağlı fikir mübadiləsi aparılıb və bu əlamətdar tədbirin əməkdaşlığın inkişafı üçün yeni imkanlar yaradacağı bildirilib.

Tədbirdə postmünaqişə dövründə bölgədəki vəziyyət, Azərbaycan tərəfindən bölgədə davamlı sülhün bərqərar olunması istiqamətində atılan addımlar, işğaldan azad edilmiş ərazilərimizdə mina problemi və həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri barədə məlumat verilib.

Siyasi məsləhətləşmələr zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Xocalı soyqırımı zamanı qətlə yetirilmiş vətəndaşlara aid olduğu ehtimal edilən 8-dən çox şəxsin meyitinin basdırıldığı kütləvi məzarlıq aşkarlanıb

Məlum olduğu kimi, 2023-cü ilin sentyabrında keçirilmiş lokal xarakterli antiterror tədbirlərindən sonra Beqlaryan Raşid Aramayisi Birinci Qarabağ müharibəsi dövründə azərbaycanlı əsir-girovlara işgəncə verməkdə, eləcə də sülh və insanlıq əleyhinə, müharibə cinayətlərini törətməkdə şübhəli bilinərək saxlanılmış və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 112-ci, 113-cü, 115.2-ci, 279.1-ci və 318.1-ci maddələri ilə ittiham elan olunmaqla təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb edilib. Həmin şəxs ifadənin yerində yoxlanılması istintaq hərəkəti zamanı, özünün də daxil olduğu qanunsuz erməni silahlı birləşmələri tərəfindən əksəriyyəti qadın, uşaq və yaşlı insanlardan ibarət 200 nəfərədək mülki şəxsin 1992-ci il fevralın 26-da Əsgəran qalasına yaxın ərazidə pusquya salınaraq avtomat silahlardan atəş açılmaqla qətlə yetirildiyini və həlak olanların üzərilərindəki şəxsi əşyalar talan edildikdən sonra meyitlərin həmin ətrafda basdırıldığını bildirib, cinayət əməllərinin törədildiyi yerləri əyani şəkildə göstərib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası məlumat yayıb.

Bildirilib ki, ötən ilin noyabrında Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu aidiyyəti qurumların mütəxəssis heyətinin iştirakı ilə Raşid Beqlaryanın göstərdiyi ərazidə axtarış və qazıntı işlərinə başlayıb. Hava şəraitinin əlverişsiz olması qazıntıların müvəqqəti dayandırılmasına səbəb olsa da, sonradan Əsgəran qalası ətrafında axtarış və qazıntı işləri yenidən aparılmağa başlanılıb, qazıntı prosesində Xocalı soyqırımı zamanı qətlə yetirilmiş vətəndaşlara aid olduğu ehtimal edilən 8-dən çox şəxsin meyitinin basdırıldığı kütləvi məzarlıq aşkarlanıb.

Ərazidə axtarış, qazıntı və ekshumasiya işləri davam etdirilir.

# *Ombudsman:* "Xocalıda kütləvi məzarlığın aşkarlanması Ermənistanın Azərbaycana qarşı soyqırımı törətdiyini bir daha təsdiqləyir"

Ermənistanın uzun illər ərzində Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq, soyqırımı, deportasiya, terror siyasəti nəticəsində minlərlə soydaşımız məhz etnik və dini nifrət zəmində qətlə yetirilib, əsir və itkin düşüb, girov götürülüb.



AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Xocalı rayonunda kütləvi məzarlığın aşkar edilməsi faktına münasibət bildirərkən deyib.

Səbinə Əliyeva bildirib ki, torpaqlarımız işğaldan azad olunduqdan sonra Ağdam rayonunun Sarıcalı, Şuşa rayonunun Daşaltı, Xocavənd rayonunun Edilli, Xocalı rayonunun Fərrux, Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndlərinin ərazisində, habelə Kəlbəcərdə, Ağdamda və digər yaşayış məntəqələrində kütləvi məzarlıqlar aşkar edilib.

"Xocalı rayonunun Əsgəran qəsəbəsi ərazisində Xocalı soyqırımı zamanı qətlə yetirilən sakinlərə məxsus olması ehtimal edilən növbəti kütləvi məzarlığın aşkarlanması faktı Ermənistanın Azərbaycana qarşı insanlıq əleyhinə ən ağır cinayət olan soyqırımı törətdiyini bir daha təsdiqləyir.

Dəfələrlə Ermənistan tərəfindən törədilmiş soyqırımı cinayətləri ilə əlaqədar beynəlxalq təşkilatlara müraciət olunmasına baxmayaraq, bu soyqırımı faktlarına hələ də beynəlxalq səviyyədə hüquqi qiymət verilməmiş, çoxsaylı cinayətlərin törədilməsində təqsiri olan şəxslər məsuliyyətdən kənarda qalmışlar.

Beynəlxalq təşkilatlar Azərbaycana qarşı ikili standartlarla müşayiət olunan laqeyd münasibətə son qoymalı, insan hüquq və azadlıqlarının kütləvi və kobud şəkildə pozulmasına səbəb olan bu kimi cinayətlərə hüquqi qiymət verməli, cinayətlərin törədilməsində təqsirkar şəxslər ədalət mühakiməsinə cəlb olunmalıdırlar", - deyə Azərbaycan ombudsmanı vurğulayıb.

## *İcma:* "Ermənistanın XİN başçısının Haaqadakı çıxışı bu ölkənin öz diplomatlarına heç cür nəzarət edə bilmədiyini göstərir"

Ermənistanın xarici işlər nazirinin dünən Haaqada etdiyi çıxış onu göstərir ki, ya Ermənistan hakimiyyəti öz diplomatlarına heç cür nəzarət edə bilmir, ya da elə özü onlara gecə-gündüz Azərbaycan əleyhinə danışmaq, böhtan atmaq tapşırığı verib və bir növ, rol bölgüsü aparıb.

Bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.

Qeyd olunub ki, Ermənistanın 30 il ərzində beynəlxalq təşkilatların qərarlarını qulaqardına vurması, hətta onlara kinayə ilə yanaşması fonunda bu gün elə həmin erməni diplomatlarının BMT Təhlükəsizlik Şurasından, Beynəlxalq Ədalət Məhkəməsindən, Fransa Senatından, Litva XİN-dən, Rasmus Kanbak, Lindsi Snell kimi irqçi və muzdlu mirzələrdən, saman çöpündən mədəd umması onların düşdüyü acınacaqlı vəziyyətin bariz göstəricisidir.

# Prezident Kitabxanasının "Naxçıvan Muxtar Respublikası-100" elektron layihəsi yenilənib

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illik yubileyinin qeyd edilməsi ilə bağlı Sərəncamına uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında Azərbaycan və ingilis dillərində yaradılan və **http://nakhchivan.preslib.az** domenində yerləşdirilən "Naxçıvan Muxtar Respublikası-100" elektron layihəsi yeni materiallarla zənginləşdirilib.

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, elektron layihə 7 əsas, 47 alt bölmədən ibarətdir. Bölmələrdə Naxçıvanın həm qədim dövrlərinə, həm də muxtar respublikanın yaradılmasına gətirib çıxaran hadisələr barədə, eləcə də müasir dövrə dair sənədlər toplanıb. Yarımbölmələrdə Naxçıvanın müxtəlif dövrlərdəki inzibati-ərazi və idarəetmə forması barədə sənədlərlə, həmçinin Prezident Kitabxanasının əməkdaşları tərəfindən tərtib edilmiş Naxçıvan tarixinin xronologiyası ilə də tanış olmaq mümkündür. Layihədə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Prezidenti olduğu dövrlərdəki və dövlətimizin başçısı İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfərlərinin xronologiyası tərtib edilib. Eyni zamanda onların Naxçıvanda keçirdikləri müxtəlif görüşlər və iştirak etdikləri tədbirlərdəki çıxışlarının tam mətnləri təqdim olunur.




İstifadəçilərə Naxçıvanın tarixinə, iqtisadiyyatına, mədəniyyətinə və incəsənətinə dair müxtəlif dillərdə 130 fundamental elektron kitab və dövri mətbuatda dərc edilmiş 600 seçmə məqalənin tam mətni təqdim olunur. Biblioqrafiya bölməsində Naxçıvana dair operativ informasiya ilə maraqlanan oxucular üçün Prezident Kitabxanasının fondunda olan 440 kitabın, 188 avtoreferatın və dövri mətbuatda dərc edilmiş 2900 məqalənin biblioqrafik təsvirləri verilib.

Həmçinin kitabxananın oxu zalında "Naxçıvan Muxtar Respublikası-100" adlı geniş kitab sərgisi təşkil olunub.

Qeyd edək ki, XX əsrin 20-ci illərində Zəngəzurun bir hissəsinin Ermənistana verilməsi nəticəsində süni surətdə Azərbaycandan ayrı salınan qədim Naxçıvan diyarının zəngin tarixi keçmişi və müasir vəziyyəti barədə məlumatların dünya ictimaiyyətinin nəzərinə çatdırılmasının xüsusi əhəmiyyəti var. Zaman-zaman ermənilərin silahlı təcavüzünə və ərazi iddialarına məruz qalan, 1991-ci ildən blokada şəraitində olsa da, Naxçıvan Muxtar Respublikası hazırda Azərbaycanın ən inkişaf etmiş regionlarından birinə çevrilib. Bu gün Naxçıvan Muxtar Respublikası dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Naxçıvan hazırda beynəlxalqmiqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır.

## Komando bölmələri müxtəlif tapşırıqları yerinə yetiriblər

**Bu ilin hazırlıq planına uyğun olaraq, komando bölmələri ilə taktiki-xüsusi hazırlıq üzrə məşğələlər keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, beş mərhələdən ibarət məşğələlər zamanı komandolar müxtəlif tapşırıqları yerinə yetiriblər.

İlkin mərhələdə taktiki yerdəyişmə üsulları ilə hədəfə doğru irəliləmə və kəşfiyyat məlumatlarının toplanması üzrə fəaliyyətlər yerinə yetirilib.

Sonra hücum yarımqruplarının obyektə yaxınlaşması, basqın əməliyyatının icra olunması və hədəfdə tərtiblənmə tapşırıqları icra edilib.

Sərt iqlim şəraitində və çətin relyefli ərazilərdə keçirilən məşğələlər zamanı komandolar yüksək peşəkarlıq nümayiş etdiriblər.

# Prezident seçkiləri azad, şəffaf və mütəşəkkil keçirildi

## Beynəlxalq təşkilatlar seçkiləri yüksək qiymətləndirdilər

Ölkəmizdə prezident seçkilərinin demokratik və şəffaf keçirilməsini, seçki prosesində bütün qaydalara əməl edilməsini, seçici fəallığının yüksək olmasını xarici müşahidəçilər də təsdiqlədi.

Prezident seçkilərində iştirak üçün 90372 müşahidəçi qeydə alınmışdı ki, onlardan da 790 nəfəri beynəlxalq müşahidəçi idi. Ümumilikdə beynəlxalq müşahidəçilər 72 beynəlxalq təşkilatı təmsil edirdi. Onların arasında MDB PA, TÜRKPA, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), ATƏT Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB), İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və digər təsisatlar var idi.

Müxtəlif təşkilatları təmsil edən müşahidəçilər səsvermə başlayandan bitənə qədər seçki dairələrinin məntəqələrində prosesi izləyərək müşahidələrini apardılar.

Səsvermə bitdikdən sonra isə bütün təşkilatlar seçki məntəqələrinə baş çəkən missiyalarının müşahidələrinə əsasən, yekun bəyanat verərək seçki prosesini qiymətləndirdilər.

### İƏT missiyası seçkilərin 3 mərhələsini müşahidə edib



İslam Əməkdaşlıq Təşkilatı (İƏT) fevralın 7-də Azərbaycan Respublikasında keçirilmiş prezident seçkiləri ilə bağlı bəyanat yayaraq seçki prosesini yüksək qiymətləndirdi. Bildirildi ki, 2024-cü il fevralın 7-də Azərbaycan Respublikasında keçirilmiş prezident seçkilərini izləmək üçün Azərbaycan hökumətinin dəvəti ilə İƏT Baş Katibliyinin yüksək səlahiyyətli müşahidəçi heyəti ölkəyə göndərilib: "İƏT komandası seçkilərin üç mərhələsini müşahidə edib: səsvermə öncəsi hazırlıq, səsvermə günü və səslərin hesablanması. Komanda, həmçinin aidiyyəti qurum və partiyalarla görüşüb və səsvermənin gedişi ilə bağlı məlumatlandırılıb. İƏT komandası monitorinq funksiyalarını yekunlaşdıraraq seçki prosesinin şəffaf, azad və mütəşəkkil şəraitdə, seçicilərin siyasi və vətəndaş hüquqlarından istifadə edərək yüksək fəallıqla keçirildiyini qeyd edib".

Bəyanatda qeyd olunub ki, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hissein Brahim Taha prezident seçkilərinin uğurlu təşkili münasibətilə Azərbaycan xalqını təbrik edir.

### Seçkilərə böyük maraq demokratiyanın və fikir azadlığının təzahürüdür



Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Parlament Məclisinin (PM) vitse-prezidenti Daniel Konstantin apardıqları monitorinqin yekunlarına dair brifinqdə qeyd edib ki, gün ərzində bir neçə seçki məntəqəsində prosesi izləyiblər və seçkilərə marağın böyük olduğunu müşahidə ediblər. O vurğulayıb ki, bu, demokratiya və fikir azadlığının təzahürüdür.

Qurumun baş katibi Asəf Hacıyev də səsvermə zamanı heç bir qayda pozuntusu aşkar edilmədiyini bildirib: "Missiyamız ərzində müşahidə etdik ki, seçkilər şəffaf keçirilir və vətəndaş fəallığı yüksəkdir. Əhalinin 80 faizdən çoxu səsvermədə iştirak edib".

Həmçinin QDİƏT-in Bolqarıstan, Gürcüstan, Yunanıstandan olan nümayəndələri də seçkilərdə seçici fəallığının çox yüksək səviyyədə olduğunu, seçki prosesinin uğurlu keçdiyini, monitorinq zamanı hər hansısa uyğunsuz hala rast gəlmədiklərini qeyd ediblər. Ümumilikdə ölkəmizdə keçirilmiş prezident seçkilərini yüksək qiymətləndiriblər.

### QH ölkələrində ilk uğurlu müşahidəmiz oldu



Qoşulmama Hərəkatının Gənclər Təşkilatının üzvü Jakob Eyeru Bakıda 6 fərqli qrup olmaqla müşahidə apardıqlarını deyib. O bildirib ki, həmin məntəqələrdə hər şey qanunauyğun şəkildə olub: "Təşkilatımızın müşahidə heyəti səsvermənin bütün məntəqələrdə qərəzsiz və şəffaf şəkildə keçirildiyini görüb. Heç kim bizə haraya getmək lazım olduğunu deməyib, biz özümüz istədiyimiz yerləri müşahidə etmişik. Biz, həmçinin səsvermə bülletenlərinin sayılmasında da iştirak etmişik. Qoşulmama Hərəkatı ölkələrində ilk uğurlu müşahidəmiz oldu".

Onun sözlərinə görə, Qoşulmama Hərəkatında ilk dəfə olaraq Gənclər Təşkilatı seçkilərdə müşahidəçi kimi iştirak edib. Bu, onu göstərir ki, Azərbaycan hökuməti gənclərin inkişafına öz töhfəsini verir.

### Azad edilmiş ərazilərdə seçkilərin keçirilməsi tarixi hadisədir



Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) müşahidə missiyasının rəhbəri Osman Mesten Azərbaycanda keçirilən prezident seçkilərində aparılan monitorinqin yekunlarına dair bildirib ki, seçkilər Konstitusiyaya və Seçki Məcəlləsinə uyğun həyata keçirilib. Azərbaycan demokratik seçkilərin keçirilməsi üçün olan sənədləri də dəstəkləyir.

Seçkilərin ilk dəfə respublikamızın bütün ərazilərində keçirildiyini xatırladan TÜRKPA nümayəndəsi bildirib ki, heyətin bir qismi azad edilmiş ərazilərdə - Şuşada və Xankəndidə müşahidə aparıb. "Azad olunmuş ərazilərdə görülən işlər müşahidə edilib. Azad edilmiş ərazilərdə seçkilərin keçirilməsi tarixi hadisədir. Bu, həm Azərbaycan, həm də Türkiyə üçün əlamətdar hadisədir. TÜRKPA müşahidə missiyası olaraq, Azərbaycanda keçirilən seçkilərin beynəlxalq hüququn tələbinə tam uyğun olduğunu bildiririk", - deyə o qeyd edib.

Seçkidə əlillərə şərait yaradılmasını təqdirəlayiq hal hesab edən O.Mesten deyib ki, seçicilər arasında qadınlar və gənclər üstünlük təşkil edib. O, seçkilərin Azərbaycan xalqına və türk millətinə xeyirli olmasını arzulayıb.

TÜRKPA Müşahidə missiyasında iştirak edən digər nümayəndələr də bu seçkilərin tarixi hadisə olduğunu, Azərbaycan xalqının öz prezidentinə etimadını gördüklərini, seçkidə qanun pozuntusu müşahidə etmədiklərini vurğulayıblar.

### TDT missiyası işğaldan azad edilmiş ərazilərdə seçki keçirilməsindən qürur duyur



Türk Dövlətləri Təşkilatı (TDT) seçki günü Bakıda, Şuşada, Xankəndidə və Xocalıda monitorinqlər aparıb. Baş katib Kubanıçbek Ömürəliyev Azərbaycanda keçirilmiş prezident seçkilərində aparılan monitorinqin yekunları ilə bağlı qeyd edib ki, missiya qardaş Azərbaycanın azad edilmiş ərazilərində ilk dəfə seçki keçirilməsindən qürur və fərəh hissi keçirir: "Seçki prosesi zamanı missiyamız heç bir qanunsuzluq, narazılıq müşahidə etməyib. Hər şey qanuna uyğun idi. Seçicilərin rahatlığı üçün hər cür şərait yaradılmışdı. Müşahidə missiyamız seçkilərə təsir edə biləcək hər hansı bir mənfi halla qarşılaşmayıb. Seçki məntəqələrində beynəlxalq və yerli müşahidəçilər üçün əlçatanlıq təmin olunmuşdu. Müşahidəçilər bütün məntəqələrdə seçkilərə nəzarət edə bilirdi. Həmçinin missiya onu da müşahidə etdi ki, bütün seçki məntəqələri lazımi texnikalarla təmin olunmuşdu. Nəticə olaraq missiya bu qərara gəldi ki, Azərbaycanda prezident seçkiləri açıq və şəffaf keçirilib".

### Seçkilərin təşkili beynəlxalq standartlara uyğun idi



Müstəqil Dövlətlər Birliyinin (MDB) 13 nəfərdən ibarət müşahidə missiyası da prezident seçkilərinin yekunları ilə bağlı mətbuat konfransı keçirib. Nümayəndə heyətinin rəhbəri, qurumun baş katibi Sergey Lebedev Azərbaycana prezident seçkilərinin yüksək səviyyədə təşkili üçün minnətdarlığını bildirib. Seçki prosesi ilə bağlı fikirlərini bölüşən S.Lebedev seçkilərin yüksək seçici fəallığı ilə müşayiət edildiyini vurğulayıb, təşkilatçılığın beynəlxalq standartlara uyğun şəkildə olmasından məmnunluğunu ifadə edib.

Seçicilərdə yüksək ruh yüksəkliyinin olduğunu deyən baş katib onların müxtəlif təbəqələrdən olduqlarını diqqətə çatdırıb: "Seçkilər çox yüksək səviyyədə, ədalətli və şəffaf keçdi. Proses Azərbaycan qanunvericiliyinin tələblərinə tam uyğun şəkildə aparılıb".

### Azərbaycan xalqı öz xoşbəxt gələcəyinə səs verdi



MDB Parlament Assambleyasının müşahidəçilər qrupunun rəhbəri Jakip Asanov da Azərbaycanda prezident seçkilərinin ölkə qanunvericiliyinin və beynəlxalq standartların tələblərinə uyğun şəkildə keçirildiyini bildirib. "Bizim missiya seçki prosesinin ədalətli və şəffaf təşkilindən, açıq və qapalı səsvermənin uyğun şəkildə keçirilməsindən çox məmnundur", - deyə o qeyd edib.

Bu seçkilərin çox əlamətdar hadisə olduğunu, çünki Azərbaycan tarixində ilk dəfə ölkənin beynəlxalq səviyyədə tanınmış bütün ərazilərində keçirildiyini vurğulayan Jakip Asanov azərbaycanlıların öz xoşbəxt gələcəyinə səs verdiklərini deyib.

### Hər hansı pozuntu aşkar edilmədi



Səsvermə başa çatdıqdan sonra prezident seçkilərində aparılan monitorinqin yekunlarına dair brifinq keçirən GUAM Parlament Assambleyasında müşahidələrə əsasən, seçkilərin qanunvericiliyə uyğun həyata keçirildiyini vurğulayıb. Müşahidə missiyasının rəhbəri Altay Əfəndiyev nümayəndə heyətinin Sumqayıt şəhərində və Nərimanov rayonunda seçki məntəqələrində müşahidə apardığını deyib. O qeyd edib ki, prezident seçkiləri ölkə qanunvericiliyinə, demokratik prinsiplərə uyğun keçirilib: "Səsvermə prosesində seçicilərin tam olaraq azad şəkildə səs vermələri təmin edilib. Qrupumuz tərəfindən hər hansı qanun pozuntusu aşkar edilməyib və bizə şikayət daxil olmayıb. Bülletenlərin doldurulması prosesi şəffaf şəkildə həyata keçirilib. Seçkilər rəqabətədavamlı şəkildə baş tutub".

### Beynəlxalq müşahidəçilərin dəvət edilməsi demokratiyanın göstəricisidir



Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Can Min də Azərbaycanda keçirilən prezident seçkilərində aparılan monitorinqi qiymətləndirib.

"Şəxsən mənim üçün Azərbaycanda keçirilən tarixi seçkidə iştirak etmək böyük şərəf idi. Bizim missiyanın tərkibində ŞƏT-ə üzv dövlətlərin, qanunverici, icraedici orqanlarının nümayəndələri təmsil olunub", - deyə o əlavə edib.

Baş katib Azərbaycan tərəfindən beynəlxalq müşahidəçilərin dəvət edilməsini seçkilərin şəffaflığının və demokratiyanın göstəricisi adlandırıb: "Bu seçkilər ölkənin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir".

### Təhlükəsizlik baxımından dünyanın ən yüksək səviyyədə keçirilmiş seçkisi



Seçki prosesini izləyən Asiya Parlament Assambleyası da prezident seçkisinin yekunlarına dair bəyanatında seçkilərin yüksək səviyyədə təşkil olunduğunu qeyd edib. Müşahidə missiyasının rəhbəri Məhəmməd Reza Məcidi ölkəmizdə prezident seçkilərinin yüksək səviyyədə keçirilməsinin şahidi olduqlarını deyib. Assambleyanın üzvü İlyas Topsakal isə bildirib ki, onlar Bakıda 6 dairədə, regionlarda isə bir neçə məntəqədə müşahidələr aparıblar: "Azərbaycanda baş tutan seçkilərin təhlükəsizlik baxımından dünyada ən yüksək səviyyədə baş tutmuş seçki prosesi olduğunu deyə bilərik. Seçki prosesini aparan texniki işçilərin də prosesə çox yaxşı səviyyədə hazırlaşdığını müşahidə etdik. Səslərin sayılması prosesində də iştirak etmişik. Bu prosesdə Prezident İlham Əliyevin çox böyük sayda səs qazandığının şahidi olduq. Bu, demokratiya baxımından böyük uğurdur".

### Bütün proses şəffaf aparılıb



Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının (ASEAN) müşahidə missiyasının rəhbəri Sanya Praseut da seçkiləri yüksək qiymətləndirib. O bildirib ki, nümayəndə heyəti 7 məntəqədə seçki prosesi ilə tanış olaraq bütün prosesi izləyə bilib: "Missiyamızın qənaəti bundan ibarətdir ki, seçkilər tam şəffaf və demokratik şəkildə keçib, heç bir təzyiq hadisəsi qeydə alınmayıb. Biz səslərin sayılması prosesində də iştirak etmişik. Bütün proses şəffaf şəkildə aparılıb. Prezident seçkiləri sakit şəraitdə və ədalətli keçib. Ölkədəki sabit şəraitə görə həm yerli, həm də beynəlxalq müşahidəçilər seçki prosesini sərbəst şəkildə izləyə biliblər.

Ümumilikdə, təhlükəsizlik yüksək səviyyədə təmin olunduğu üçün Azərbaycan hökumətinin, MSK-nın fəaliyyətini yüksək qiymətləndirirəm. Şəffaf seçkilərlə bağlı Azərbaycan xalqını təbrik edirəm".

### Seçkilər bayram əhvali-ruhiyyəsində keçib



Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (İCAPP) müşahidə missiyasının rəhbəri Afif Demirkan da keçirilmiş seçkilərlə bağlı Azərbaycan xalqını təbrik edib və bildirib ki, seçki günü 07:30-dan etibarən nümayəndə heyəti seçki məntəqələrində olub: "İCAPP nümayəndə heyəti kimi seçki məntəqəsinin açılması və hazırlıq işlərini müşahidə etdik. Şahid olduq ki, seçki məntəqəsi qrafikdə olduğu kimi 08:00-da seçiciləri qəbul etməyə başladı. Eyni zamanda səsvermə qutuları lazımi şəkildə möhürlənmişdi. Gün ərzində 7 seçki məntəqəsində olduq. Həmin məntəqələrdə seçkilər sərbəst, ədalətli və şəffaf keçirilib. Hər hansı təhdidin, məhdudlaşdırmanın şahidi olmadıq. Seçki komissiyası üzvləri işlərini məsuliyyətli şəkildə həyata keçirdilər".

Müşahidəçilər səsvermə prosesi bitdikdən sonra səslərin sayılması prosesini də müşahidə ediblər. "Seçkilərin nəticəsinə mənfi münasibət gətirəcək hər hansı bir şikayət almadıq. İCAPP olaraq biz dünyadakı siyasi qrupların ən böyüklərindən biriyik. 52 ölkədən 352 partiyanı təmsil edirik. Məqsədimiz demokratiyanın təbliğidir. Azərbaycanda son seçkilər bayram əhvali-ruhiyyəsində keçib", - deyə o qeyd edib.

### Demokratik prinsiplərə bağlılığın təzahürü



Azərbaycanda prezident seçkilərini müşahidə etməyə gələn Beynəlxalq Parlament Təşkilatının (İPC) heyət rəhbəri Soro Fobeh monitorinqin yekunlarına dair brifinqdə deyib ki, müşahidə missiyası 5-i Bakıda, 5-i də Sumqayıtda olmaqla 10 seçki məntəqəsində olub. O bildirib ki, səsvermə prosesi zamanı müşahidə edilən bütün seçki məntəqələrində seçici fəallığının şahidi olublar: "Bütün yaş kateqoriyasından olan seçicilər, xüsusilə gənclər çox həvəslə seçkidə iştirak edirdilər. Səsvermə gününün uğurlu keçməsində bütün məntəqələrin əməkdaşları mühüm rol oynayıb. Onlar bizim bütün sorğularımıza cavab verib. Müşahidələrimiz zamanı biz hər hansı qarışıqlıq, pozuntu halları müşahidə etmədik. Bu da seçki prosesinin yaxşı keçirilməsinin göstəricisidir".

Soro Fobeh fiziki məhdudiyyətli şəxslərin səsverməsinə yaradılan şəraitdən də danışıb. O, bu kateqoriyadan olan şəxslərin də konstitusion hüququnun təmin edildiyini vurğulayıb və buna görə Azərbaycanı təbrik edib. "İPC-nin müşahidələri bizə belə qənaətə gəlməyə əsas verdi ki, Azərbaycanda prezident seçkiləri çox yüksək səviyyədə keçirilib. Bu da demokratik prinsiplərə bağlılığın təzahürü idi", - deyə missiya rəhbəri əlavə edib.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

***Britaniyalı jurnalist:***

# "Prezident İlham Əliyev uzaqgörən siyasətçi və hərbi lider rolunu bir daha sübut etdi"



"Prezident İlham Əliyev Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi təkcə İkinci Qarabağ müharibəsində uğur qazanmadı, o, həm də özünü uzaqgörən siyasətçi və hərbi lider kimi göstərdi. Hesab edirəm ki, indiki mərhələdə onun növbəti bir neçə il üçün rolunun təsdiqlənməsinə ehtiyac var idi. Üstəlik, növbədənkənar prezident seçkiləri Azərbaycanın neytrallığı qoruyub saxladığına dair dünyaya siqnal oldu. Onun həm Qərb, həm də Rusiya ilə çox gözəl diplomatik münasibətləri var, bu da son dərəcə vacibdir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında britaniyalı jurnalist və ekspert Neil Vatson səsləndirib.

O qeyd edib ki, Azərbaycanda faktiki olaraq ölkə 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra mövcud olmayan yeni bir quruluş yaranıb.

"Prezident seçkiləri bütün dünyanın gözü önündə və ilk dəfə olaraq Azərbaycanın bütün ərazisində keçdi. Azərbaycan hələ 2020-ci ildə özünün ərazi bütövlüyünü bərpa edib. Lakin yalnız ötən ilin sonundan bəri o, faktiki olaraq Qarabağın özünün üzərində tam nəzarəti ələ alıb, Xankəndidə yerləşən erməni qurumunun qalıqları darmadağın edilib. Seçkilər Azərbaycanda əlbəttə ki, erməniəsilli şəxslər də daxil olmaqla, etnik mənşəyindən asılı olmayaraq, səsvermə hüququ olan hər kəs üçün şans idi. Bu çox vacibdir, çünki göstərir ki, Azərbaycan yaşamaq üçün olduqca tolerant, inklüziv bir yerdir. İndi - Azərbaycanın artıq müharibə və ya "dondurulmuş" adlandırılan münaqişə vəziyyətində olmadığı bir vaxtda onun, şübhəsiz, çox güclü qalmalı olduğuna baxmayaraq, ölkə gələcəyə baxmalıdır", - deyə ekspert vurğulayıb.

Demək olar ki, eyni zamanda dörd ölkədə - Azərbaycan, Rusiya, İran və ABŞ-də keçirilən prezident və parlament seçkilərini şərh edən ekspert bu vəziyyəti olduqca maraqlı adlandıraraq deyib: "Bu seçkilərin səbəbləri müxtəlif olsa da, həmçinin onlar qarşılıqlı əlaqədədir. Düşünürəm ki, bu, sadəcə, təsadüf deyil. Biz bir çox sahədə dəyişikliklər astanasında olan dünyanı görürük. Rusiya-Ukrayna müharibəsi başa çatmayıb, getdikcə daha çox ölkə müxtəlif xarici və ya daxili məqsədləri reallaşdırmaq üçün ya Rusiyaya, ya da Ukraynaya qoşulur. Bu, həmçinin müəyyən dərəcədə Qərblə Rusiyanın müttəfiqlərindən biri olan İran arasında vəziyyətlə bağlıdır. Beləliklə, artıq dediyim kimi, hər şey bu və ya digər formada qarşılıqlı əlaqəlidir. Bu seçkilərin bir ortaq cəhəti var - bütün bu ölkələr hazırkı prezidentlərini və ya parlamentlərini təsdiq etməyə çalışırlar".

Rusiya haqqında danışan, britaniyalı jurnalist deyib ki, Prezident Vladimir Putin Rusiya-Ukrayna münaqişəsi fonunda rolunun təsdiqlənməsini istəyir. Baxmayaraq ki, Rusiyada bir çoxları onun (münaqişənin - red.) ilkin səbəbləri, yəni Krımın zəbt edilməsi ilə razılaşırdılar, bu gün onlar, əlbəttə, Ukrayna ilə müharibənin bu qədər uzanması faktından məmnun deyillər. Eyni zamanda Putin böyük Qərb ölkələri arasında ciddi nifaqa səbəb olub. Əvvəllər bütün böyük Qərb ölkələri üçün Rusiyanı deyil, Ukraynanı dəstəkləmək adi iş idi, hətta dəb halını almışdı. Lakin düşünürəm ki, indi - onlar ölkələrinin real məsrəflərini, təhlükəsizlik baxımından deyil, iqtisadi səbəblər üzündən baş verən miqrasiyanın (Ukraynadan - red.) miqyasını gördükdə getdikcə daha çox dövlət dərk edir ki, bu münaqişəyə mümkün qədər tez bir zamanda son qoymaq üçün hansısa addımlar atmaq lazımdır. Aİ-nin bəzi ölkələri Ukrayna adından müharibənin aparılmasının dəyərindən xüsusilə şikayət edirlər. Beləliklə, fikrimcə, Avropa bu vəziyyət üzündən getdikcə daha da parçalanır. Putin siyasətini inadla davam etdirərək faktiki olaraq sübut edir ki, o, getdikcə daha çox dəstək alır. Rusiya-Ukrayna münaqişəsi səbəbindən üzləşdiyi sanksiyalar və problemlərə baxmayaraq, rusiyalıların əksəriyyəti onun və onun siyasəti ətrafında birləşib, onlar vahid qüvvə təşkil edirlər, Avropa isə tam əksinə... Qərb də Ukrayna ilə bağlı siyasətində vahid mövqedə deyil.

İrana gəldikdə, N.Vatsonun fikrincə, görünür ki, tamamilə başqa vəziyyətdir. "Prezident Rəisi İranda çox populyar deyil. Lakin hər birimizə məlumdur ki, İranın siyasəti və səsvermə prosedurları dünyanın digər yerlərində tətbiq edilənlərdən tamamilə fərqlənir. Düşünürəm ki, o da rolunun təsdiqlənməsinə ümid bağlayır, lakin, əslində, bu vəzifədə onun sələfi Ruhaninin hakimiyyətə gəlməsi baş verə bilər. Buna baxmayaraq, ola bilsin ki, onun rəhbərliyi ilə İranın Yaxın Şərqdə müəyyən dairələrin olduqca böyük dəstəyini qazana bilməsi faktı Rəisiyə kömək edəcək. Beləliklə, düşünürəm ki, biz çox güman Rəisinin yenidən seçilməsini görəcəyik", - deyə ekspert qeyd edir.

Nəhayət, Birləşmiş Ştatlardakı vəziyyət. Məsələ ondadır ki, Co Bayden bir çox münasibətlərdə layiqli olduğunu sübut etsə də, özünü çox səmərəsiz bir prezident kimi sübut etdiyi hələlik fakt olaraq qalır. Onu tam şəkildə iradəsiz liberal adlandırmaq olar. "Hazırda Birləşmiş Ştatlara məhz belə liderin lazım olduğu sual altındadır. HƏMAS və İsrail arasındakı münaqişədə o, korkoranə tərəflərdən birini dəstəkləyir. Əlbəttə ki, onun Qarabağ ətrafındakı vəziyyəti dərk etməməsi tamamilə acınacaqlı idi. Fikrimcə, gələcək seçkilər onun üçün əsl sınaq olacaq. Onun əsas rəqibi Trampın, bildiyimizə görə, Kapitoli təpəsinə hücumla bağlı sonsuz problemləri var. Lakin bu, həm də korrupsiya ilə bağlı ittihamlar və onun prezidentliyinin müxtəlif mənfi aspektləri ilə əlaqədardır. Buna baxmayaraq, qorxuram ki, adi amerikalı seçici üçün Tramp bir çox münasibətlərdə Baydendən daha üstündür. Düşünürəm ki, Baydenin Rusiyaya, İrana münasibətdə güclü mövqe nümayiş etdirdiyi, İsrail tərəfdaşı olduğu əsasında yenidən seçilmək cəhdi kifayət etməyəcək. Beləliklə, ABŞ-də noyabr seçkilərindən sonra ölkədə nə olacağını təhlil etmək çox çətindir", - deyə britaniyalı jurnalist vurğulayıb.

# İlham Əliyev xalqdan aldığı böyük dəstəklə Azərbaycanı daha da inkişaf etdirəcək

## Xarici müşahidəçilərin prezident seçkiləri barədə təəssüratları yüksəkdir

Fevralın 7-də keçirilmiş prezident seçkiləri beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olub. Müxtəlif ölkələrdən və mötəbər təşkilatlardan 760 nəfər seçki prosesini izləmək üçün ölkəmizə səfər edib. Paytaxt Bakıda və regionlarda, habelə işğaldan azad edilmiş ərazilərdə seçkiləri izləyən beynəlxalq müşahidəçilər Zəfər seçkisinin şəffaf və demokratik keçirildiyini, seçici fəallığının yüksək səviyyədə olduğunu bildiriblər. Qeyd ediblər ki, Azərbaycanda keçirilən bu seçki hətta Avropa standartlarını belə üstələyir.



**Sandra Boziç,**
*Serbiya parlamentinin vitse-spikeri:*

- Azərbaycan xalqını tarixi seçki münasibətilə təbrik edirəm. Prezident seçkiləri həm qanun çərçivəsində, həm də texniki cəhətdən çox yaxşı şəkildə təşkil edilmişdi. Müşahidələrimiz bu seçkilərdə konstitusion hüquqların yüksək səviyyədə təmin edildiyini deməyə əsas verir. Xankəndi və Şuşada müşahidə apararkən seçki prosesində demokratik prinsiplərə ciddi şəkildə riayət olunduğunun şahidi olduq. Seçkilərdə hər hansı təhdid yaradan qanun pozuntusuna rast gəlmədik. Bu fakt seçkilərin tam legitim şəkildə keçirildiyindən xəbər verir. Xarici müşahidəçilər qismində bütün sənədlərə əlçatanlığı təmin etdiyi, istənilən seçki məntəqəsində müstəqil formada müşahidə aparmağa şərait yaratdığı üçün Mərkəzi Seçki Komissiyasının rəhbərliyinə təşəkkür edirik.




**Nelson Trad Filxo,**
*Braziliya parlamentinin senatoru:*

- Seçki prosesini müşahidə zamanı vətəndaşların göstərdikləri fəallıq, onların seçkiyə göstərdikləri diqqət, prosesin yüksək səviyyədə təşkil olunması bizi məmnun etdi. Növbədənkənar prezident seçkiləri uğurlu başa çatdı. Biz qanun pozuntusu ilə rastlaşmadıq. Buna görə Azərbaycan xalqını təbrik edirəm. Həmçinin bizə göstərilən qonaqpərvər münasibətə görə dərin təşəkkürümü bildirirəm.



**Pedro De Morais Neto,**
*Anqola parlamentinin nümayəndəsi:*

- Biz fevralın 7-də 15 seçki məntəqəsində olduq. Müşahidələrimizə əsasən, seçici fəallığı yüksək səviyyədə idi, xüsusilə qadın seçicilər seçki prosesində daha çox iştirak edirdilər.



**Can Min,**
*Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi:*

- Seçkilərdən əvvəl Mərkəzi Seçki Komissiyasının və digər əlaqədar qurumların nümayəndələri ilə görüşmüşdük. Ümumiyyətlə, bizim missiyanın monitorinq keçirməsi üçün lazımi şərait yaradılmışdı. Müşahidələrimizi apardıq. Belə qərara gəldik ki, Azərbaycanda keçirilən prezident seçkiləri xüsusilə seçici fəallığı ilə daha çox diqqət çəkdi. Qanunvericiliyin tələblərinə əməl olunurdu. Missiyamız Bakıda və Sumqayıtda 60-dək seçki məntəqəsində səsvermə prosesini müşahidə etdiyinə görə əminliklə deyə bilərik ki, təşkilatçılıq yüksək səviyyədə idi, seçki prosesinin səmərəli təşkili üçün kompleks işlər görülmüşdü.




**Şamil Ayrım,**
*Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla dostluq qrupunun rəhbəri:*

- Azərbaycan xalqı fevralın 7-də onlara bundan sonra daha 7 il liderlik edəcək prezidentlərini seçmək üçün səsverməyə getdi. İlk dəfə olaraq, ölkənin bütün ərazilərində səs verən xalqın böyük əksəriyyəti Müzəffər Ali Baş Komandan İlham Əliyevi dəstəklədi. Beləliklə, Azərbaycan xalqı öz tərəqqisinə yenidən yol açdı. Seçkilərin gedişatına gəlincə isə, 30 ildir müstəqil siyasət yürüdən Azərbaycanda seçkilər tam şəffaf keçirildi. İnanırıq ki, İlham Əliyev Azərbaycan xalqından aldığı bu böyük dəstəklə ölkəni daha da inkişaf etdirəcək.



**Aleksandr Yuşenko,**
*Rusiya Dövlət Dumasının deputatı:*

- Mən bir çox ölkələrdə seçkiləri müşahidəçi qismində izləmişəm. Müqayisəli baxsaq, Azərbaycanda seçicilərin daha yüksək intizama sahib olduqlarını deyə bilərəm. Dünyada ikili standartların tüğyan etdiyi bir şəraitdə seçkilərin belə şəffaf və demokratik keçirilməsi xüsusi önəm kəsb edir. Təbii ki, bir sıra Qərb təşkilatları seçkinin nəticələri ilə bağlı hansısa nöqsan axtarmağa çalışacaqlar. Lakin əsas olan odur ki, Azərbaycan xalqı seçkilərdə öz iradəsini sərbəst şəkildə ifadə etdi.



**Sergey Markov,**
*Siyasi Araşdırmalar İnstitutunun direktoru:*

- Seçki məntəqələrinin qarşısında uzun növbələr var idi. Seçki prosesi ölkə Konstitusiyasına və beynəlxalq qanunların tələblərinə uyğun aparılırdı. Seçkilərdə seçicilər doğrudan da fəal idilər. Onu da deyim ki, biz ölkənizdə seçici fəallığının yüksək səviyyədə olacağını əvvəlcədən proqnozlaşdırmışdıq. Çünki ilk dəfədir ki, müasir Azərbaycan tarixində seçkilər bütün ölkə ərazisini əhatə etmişdi. Bu fakt insanları doğru seçim etmək üçün məntəqələrə üz tutmağa təhrik edirdi. Hesab edirəm ki, bütün beynəlxalq təşkilatlar seçkilərin ədalətli və azad keçdiyini etiraf etməli olacaqlar.




**Akkan Suver,**
*Türkiyə Mərmərə Vəqfi müşahidə missiyasının rəhbəri:*

- Azərbaycanda prezident seçkiləri Avropa və dünya standartlarına tam uyğun şəkildə keçirildi. Biz 42 məntəqədə olduq, səhər saatlarından 17:00-dək seçki prosesini diqqətlə izlədik. Seçicilər, xüsusilə, qadınlar çox fəallıq göstərirdilər. Seçki günü Azərbaycan xalqı Qarabağ dastanından sonra daha bir demokratik bayram yaşadı. Bu seçkilər Azərbaycanın, ümumiyyətlə, türk dünyasının gələcəyi üçün çox önəmlidir.



**Aidos Sarım,**
*Qazaxıstan Parlamentinin nümayəndə heyətinin rəhbəri:*

- Bakıda, Sumqayıtda və regionlarda səsvermənin gedişini izlədik. Seçki prosesində heç bir qanun pozuntusu ilə qarşılaşmadıq. Seçicilər səsvermə prosesində yüksək əhvali-ruhiyyədə iştirak edirdilər. Ümumiyyətlə, seçici fəallığı yüksək səviyyədə idi. Sevindirici haldır ki, seçkilər ilk dəfə olaraq Azərbaycanın bütün suveren ərazilərində baş tutdu və vətəndaşlar səsvermə hüququndan bəhrələndilər.




**Əli Əsgər Mohammadi Sicani,**
*İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı Baş katibinin müavini:*

- Prezident seçkiləri yüksək səviyyədə keçirildi. Bu seçkilər Azərbaycan üçün bayram oldu. Bu bayramın xüsusi əhəmiyyəti ondan ibarət idi ki, seçkilər ilk dəfə Azərbaycanın bütün ərazilərində keçirildi. Seçici fəallığı, xüsusilə də qadınların aktivliyi diqqət çəkirdi. Azərbaycanın, nəhayət, 30 illik işğaldan sonra ərazi bütövlüyünü tam bərpa etməsi bizi sevindirir, lakin işğaldan azad edilmiş ərazilərdə seçkiləri izləmək imkanımız olmadığına görə təəssüflənirik.



**Tınçtık Şaynazarov,**
*Qırğızıstan Mərkəzi Seçki Komissiyasının sədr müavini:*

- Azərbaycanda keçirilən prezident seçkilərinin müşahidəsi zamanı heç bir qanun pozuntusu qeydə alınmayıb. Seçki prosesi ilə bağlı heç bir şikayət almamışıq. İstənilən ölkə Azərbaycanın seçiminə hörmət etməlidir. Bu seçkilərə ən yaxşı qiymətləndirməni isə MDB missiyası verib.




**İsgəndər Qaipkulov,**
*Qırğızıstan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü:*

- Seçki məntəqələrində bütün qaydalara əməl olunduğunu gördük. Vətəndaşlarla ünsiyyət zamanı məlum oldu ki, onların bir lideri var ki, o da Prezident İlham Əliyevdir. Missiyamız seçkiləri çox uğurlu qiymətləndirdi.




**Rana Mohammad Sohel,**
*Banqladeş Milli Assambleyasının deputatı:*

- Prezident seçkilərində seçici fəallığının yüksək olması vətəndaşların ölkənin siyasi həyatında fəal iştirakının sübutudur. Biz Azərbaycanda seçki prosesini əvvəldən sona qədər bir çox seçki məntəqələrində izləyərkən müşahidə etdik ki, proses ədalətli, azad və şəffaf davam edir. Seçki prosesi gözləntilərimizə tam cavab verdi. Məntəqələrə üz tutan vətəndaşlarda şən bayram əhvali-ruhiyyəsi var idi. Onlara heç bir müdaxilə edilmirdi, istədikləri namizədə sərbəst şəkildə səs verə bilirdilər. Səslərin hesablanması prosesi də şəffaf və metodik şəkildə aparıldı. Yerli və beynəlxalq müşahidəçilər müəyyən edilmiş qayda və prosedurlara ciddi əməl edirdilər. Müşahidə etdik ki, seçicilər də prosesdən razı qalmışdılar. Bu da seçkilərin şəffaflığını, azadlığını və ədalətliliyini təsdiqləyir.




**Dastan Urmanbetov,**
*Türk Dövlətləri Təşkilatının (TDT) katibliyinin əməkdaşı:*

- Azərbaycanda keçirilən prezident seçkilərində fəallıq müşahidə etdik. 20-dən çox məntəqədə olduq və səsvermədə böyük həvəslə iştirak etməyə hazır olan çoxlu insan gördük. Bəzi məntəqələrdə növbələr yaranmışdı.



**Vitali Yakot,**
*Maldova Parlamentinin deputatı:*

- Azərbaycan seçicilərinin seçkilərdəki nikbinliyi bizi sevindirdi. Xankəndi şəhərində seçicilərlə ünsiyyətdə olarkən bunun şahidi oldum. Şuşada və Xankəndidə seçici fəallığı çox idi. Xüsusilə Şuşada insan axını var idi. Şuşada doğulub, yenidən oraya qayıdan insanlarla söhbət etdim. Onların təəssüratları müsbət idi. İnsanların doğma yurd yerlərindən, bu şəhər və kəndlərin abadlaşdırılmasından danışarkən necə sevincli olduqlarını görmək məni ruhlandırdı. Onu da qeyd edim ki, seçki komissiyasının üzvləri müşahidəçilərə fəaliyyətlərində hər cür kömək göstərirdilər. Bizə seçki komissiyasının üzvlərinə yaxınlaşmağa, onlarla söhbət etməyə imkan yaradılırdı. Eyni zamanda seçki məntəqəsinə, səsvermə kabinəsinə, seçki qutusuna baxış keçirməyə icazə verildi. Seçki prosesinin bu cür şəffaf və açıq şəkildə aparılması bizdə xoş təəssüratlar yaratdı.



**Qazi Altunibat,**
*İordaniya Nümayəndələr Palatasının Komitəsinin sədri:*

- Azərbaycanda seçkilər ölkə qanunvericiliyinə uyğun keçirildi. Həmçinin beynəlxalq norma və prinsiplər də nəzərə alınmışdı. Biz 14 seçki məntəqəsində seçkiləri müşahidə edən zaman vətəndaşların fikirlərini diqqətlə dinlədik, prosesin gedişini yaxından izlədik. Vəziyyəti dərindən təhlil etdikdə də seçki qanunvericiliyinin pozulması hallarına rast gəlmədik.



**Ahsan Hamid Durrani,**
*Pakistanın Siyasi Araşdırmalar Mərkəzinin direktoru:*

- Səsverməyə gələn vətəndaşlarda böyük ruh yüksəkliyi müşahidə edilirdi. Seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi hər kəsin, seçicilərin, namizədlərin, eləcə də yerli və beynəlxalq müşahidəçilərin ürəyincə oldu. Elə Azərbaycan Mərkəzi Seçki Komissiyasının beynəlxalq müşahidəçiləri dəvət etməsi də bu seçkilərdə şəffaflığın qorunacağına işarə idi. Müşahidəçi kimi baş çəkdiyim müxtəlif seçki məntəqələrində heç bir qanun pozuntusuna rast gəlmədim. Uğurla başa vurduğunuz prezident seçkiləri münasibətilə xalqınızı təbrik edirəm.




**Soro Fobeh,**
*Beynəlxalq Parlamentarilər Konqresinin üzvü:*

- Məntəqələrdə əlilliyi olan vətəndaşlar üçün hər cür şərait yaradılmışdı. Bu, seçkilərin tam demokratik olmasının əyani sübutu idi. Həmçinin seçkilərdə iştirak prosesində bütün vətəndaşlar üçün bərabər imkanlar təmin edilmişdi. Seçki prosesi əhalinin bütün təbəqələri üçün əlçatanlığın təmin edilməsi baxımından xüsusilə müsbət məqam kimi yadda qaldı.



**Ahzal Kuspan,**
*qazaxıstanlı deputat:*

- Şuşa və Xankəndidə seçki prosesini izlədik. Xalq-dövlət birliyini müşahidə etdik. Seçicilər həm seçki prosesində, həm də nəticələr elan olunanda fəal və olduqca sevincli idilər. Azərbaycan xalqının Prezidentinə necə dərin inam bəslədiyinin şahidi olduq.



**Zayniddin Nizamxodjayev,**
*Özbəkistan Mərkəzi Seçki Komissiyasının sədri:*

- Azərbaycanda keçirilən prezident seçkilərini izləməkdən məmnun qaldım. Müşahidə etdim ki, seçki komissiyaları öz işlərinin öhdəsindən mükəmməl şəkildə gəlirlər. Seçicilərin fəallığını isə xüsusi qeyd etmək lazımdır. Seçki prosesi qayda-qanun çərçivəsində baş tutdu, ölkə qanunvericiliyinin və beynəlxalq hüququn tələblərinə riayət olunurdu. Şəffaf və demokratik seçkilərin keçirilməsinə nail olduğuna görə Azərbaycan xalqını təbrik edirəm.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Qalib xalq Qalib Liderinə - Zəfər yolunun davamına səs verdi!

**7 fevral 2024-cü il Azərbaycan xalqının tarixində ən əlamətdar, ən möhtəşəm günlərdən biri kimi qalacaq. Üstündən illər keçsə də, bu günü həmişə qürurla xatırlayacağıq. Həmin gün ölkəmizdə prezident seçkiləri keçirildi. Xalqımız seçkilərdə fəal iştirak edərək vətəndaşlıq borcunu layiqincə yerinə yetirdi.**

Namizədlərin sırasında xalqın böyük etimadını qazanmış Prezident İlham Əliyevin alternativi yox idi. Çünki İlham Əliyevin 20 illik prezidentlik müddətində göstərdiyi uğurlu fəaliyyət, xalq və dövlət quruculuğu üçün gördüyü böyük işlər onu əvəzolunmaz şəxsiyyət zirvəsinə yüksəltmişdi, millətinin məhəbbətini, sevgisini və ən əsası isə etimadını qazanmışdı. Məhz elə buna görə də, seçicilər ən düzgün, ən möhtəşəm seçimini edərək 7 fevral seçkilərində Prezident İlham Əliyevə, Qalib xalqın Qalib liderinə səs verdilər. Bununla da Azərbaycan xalqı tarixində ən uğurlu, ən müdrik addımlarından birini atdı.

Xalqların taleyinə, bəşəriyyətin gələcəyinə təsir edən həlledici amillərin sırasında liderlik böyük önəm daşıyır. Yaşanılmış illərin, əsrlərin təcrübəsi göstərir ki, tarixi-siyasi, coğrafi şəraitdən, siyasi sistemin xüsusiyyətlərindən asılı olmayaraq, liderlik fenomeni xalqların gələcək taleyində, dövlətin, dövlətçiliyin inkişafında başlıca rol oynayır. Lider tarix yazan, tarixin gedişatına həlledici təsir göstərən əvəzsiz şəxsiyyətdir. Azərbaycan Prezidenti İlham Əliyev məhz bu xüsusiyyətlərə malikdir.

20 il əvvəl - 2003-cü ildə xalqın böyük dəstəyi ilə Prezident seçilən İlham Əliyev demişdir: "Mən hər bir vətəndaşın Prezidenti olacağam". Prezident arxada qalmış 20 il ərzində sözünə sadiq qaldı, hər bir vətəndaşın sevimli Prezidenti oldu. Elə bu sadiqliyin, sədaqətin nəticəsidir ki, bu gün təkcə böyüklər deyil, hətta azyaşlı uşaqlar da çox haqlı olaraq qürurla İlham Əliyevə "mənim Prezidentim" deyə müraciət edirlər. Bütün bunlar isə xalqın Prezidentə sonsuz sevgisindən qaynaqlanan başlıca amillərdir.

Fevralın 7-də Azərbaycan xalqı ərazi bütövlüyü və suverenliyi tam təmin olunmuş müstəqil dövlətinin ilk prezident seçkilərini keçirdi. Seçkiləri kütləvi fəallıqla, ləyaqətlə, böyük inam və sevgi ilə keçirdi. Elə buna görə də 7 fevralda xalqımız ədalətə, sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa səs verdi. Seçkilərdə fəal iştirak etməklə xalqımız dünya güclərinə bir daha göstərdi ki, bölgənin aparıcı, demokratik xalqı bizik və Cənubi Qafqazın gələcəyini biz müəyyən edirik. Bu seçki müstəqil dövlətçiliyimizin tarixində ən mütəşəkkil, ən demokratik, ədalətli və nümunəvi seçki kimi qalacaq. 7 fevralda keçirilən prezident seçkilərində xalqımız yüksək seçki mədəniyyətini dünyaya göstərdi. Azərbaycan xalqı qədirbilən xalqdır və onu Qalib xalq etmiş Qalib Liderə vəfa borcunu layiqincə verdi.

7 fevral seçkilərində fəal iştirakı ilə Azərbaycan xalqı öz dövləti ilə bir yerdə olduğunu bir daha sübut etdi. Bu seçkilərdə həm də xalqımız birliyimizin, gücümüzün simvolu olan "dəmir yumruğ"un haqqın yanında, işğalçının qarşısında olduğunu göstərdi. Seçki günü xalqımız bir daha gur səsini Qalib Lider İlham Əliyevin məğrur, Zəfər dolu səsinə qataraq, ucadan - "Biz birlikdə güclüyük, biz bir yerdə məğlubedilməzik", - dedi. Azərbaycan xalqının bu qürur dolu səsi güc, iradə və fikir birliyimizin təntənəsi idi.

Prezident seçkiləri bütün siyasi fəaliyyətini xalqının xoşbəxt gələcəyinə yönəldən, 20 il ərzində xalqa verdiyi vədləri ləyaqətlə, ədalətlə, qətiyyətlə yerinə yetirən, "Bizim siyasətimiz bizim işimizdir", "Sözümüz imzamızdır" söyləyən Qalib Liderə doğma xalqının inamını, güvənini ifadə edən dəstəyinin göstəricisi oldu. Bu seçki həm də Azərbaycanın uğurlarını gözü götürməyən, inkişafımızı, qalibiyyətimizi, Zəfərimizi, uğurlarımızı həzm etməyən Qərbdəki qara qüvvələrə xalqın vurduğu tərs şapalaq təsiri bağışladı.

İnsanların böyük coşqu ilə, həvəslə iştirak etdiyi seçkilər dünya güclərinə bir daha sübut etdi ki, uluların dediyi kimi, el gücü sel gücüdür. Məğlubedilməz bu gücün, bu qüdrətin qarşısında heç bir qara qüvvə dayana bilməz!

Seçki günü məntəqələrdə səs vermək üçün növbələr yaranmışdı. Seçicilər Qalib Liderə səs verməyə tələsirdilər. Həmin gün təkcə seçkidə iştirak edənlərin deyil, bütövlükdə 60 milyonluq Azərbaycan xalqının nəbzi bir vuraraq sanki: biz səninlə birlikdəyik, cənab Ali Baş Komandan deyirdi! 7 fevral seçkilərində Azərbaycan xalqı gələcək xoş günlərə Prezident İlham Əliyevlə birlikdə gedəcəyini dünyaya mesaj verdi.

Demokratik şəraitdə keçirilən seçki Azərbaycanı haqsız yerə hədəfə alan, qələbələrimizi qəbul etmək istəməyən bəzi məkrli xarici ölkə və beynəlxalq təşkilatlara da tutarlı cavab oldu. Azərbaycan demokratik, şəffaf seçki ilə və xalqın dövlət başçısını dəstəkləməsi ilə dünyaya birlik nümunəsi göstərdi. Beləliklə, dünya bir daha Azərbaycan dövlətinin gücünü gördü. Yüksək seçici fəallığı, demokratik və şəffaf seçki, xarici müşahidəçilərin çoxluğu, hətta ABŞ-dən olan qurumun "exit-poll" keçirməsi bütün dünyanın gözü qarşısında oldu.

Fevralın 7-də prezident seçkiləri ölkə tarixində ilk dəfə səsvermənin Qarabağ da daxil olmaqla, erməni işğalçılarından azad edilmiş bütün ərazilərində keçirildi. Bu, qürur duyulası, fəxr ediləsi bir gün idi. Seçkilər olduqca şəffaf, demokratik bir şəraitdə keçirildi. Bunu ekspertlər də, xarici müşahidəçilər də müsahibələrində qeyd ediblər.

Böyük tarixi sınaqdan, qalibiyyətlə başa vurduğumuz 44 günlük Vətən müharibəsindən sonra ilk dəfə keçirilən bu seçkilərdə xalq yenidən 20 il Azərbaycanı qurub-yaradan, daim müstəqilliyimizi möhkəmləndirən, ölkəmizin iqtisadi gücünü artıran, beynəlxalq nüfuzunu yüksəldən, dünyada Azərbaycanı söz sahibi edən Prezident İlham Əliyevə böyük etimad göstərdi, ona böyük zəfərlər yaşadan Qalib Liderinə, Müzəffər Ali Baş Komandana səs verdi. Səs verdi ki, Prezident İlham Əliyevlə birlikdə zəfərlərimiz, uğurlarımız, qələbələrimiz davamlı olsun.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Fransanın insan haqlarından danışmağa haqqı yoxdur

**"Fransa bəzi ölkələrdə öz marağına uyğun siyasi sabitliyi pozmaq üçün insan haqları və demokratiya kimi ali dəyərlərdən sui-istifadə edir. Faciə həm də orasındadır ki, Fransanın özbaşınalıqları demokratiyadan ağızdolusu danışan Qərb dövlətlərinin gözü qarşısında baş verir və onlar səslərini belə çıxarmırlar. Belə başa düşülür ki, Fransaya insan haqlarını tapdalamaq və demokratik prinsipləri pozmaq olar. Eyni zamanda Fransa bu prinsipləri təmin etmiş ölkələrə qarşı şər-böhtan yağdırmaq, bundan təzyiq vasitəsi kimi istifadə etmək yolu da tutub. Bu, ədalətsizlik və vicdansızlıqdır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat bildirib ki, Qərbdə Fransaya ali prinsipləri xatırladan olmadığına görə, bu ölkə müstəmləkəçilk siyasətindən əl çəkmir, insanların hüquq və azadlıqlarını tapdalayır: "Məsələn, 2024-cü il yanvarın 28-də Korsikada 700-ə yaxın insan müstəqillik uğrunda mübarizə aparan strukturları və fəalları birləşdirən, Fransanın müstəmləkə hökmranlığına qarşı mübarizəyə sadiqliyini təsdiqləyən yeni "Nazione" hərəkatını təsis edib. Fransa həmin hərəkata qarşı soyqırımı siyasəti aparır. Makron hakimiyyətinin polisləri "Nazione" hərəkatının fəallarına qarşı zor tətbiq etməkdə davam edirlər. Korsikalıların həbsi, təqiblər, onlara qarşı alçaldıcı və təhqiredici hərəkətlər genişləndirilib. Halbuki, korsikalılar da dünyanın bütün sivil xalqları kimi təməl haqlarına malik olmaq üçün mübarizə aparırlar. Onlar da öz dillərində danışmaq, təhsil almaq və milli-mənəvi dəyərlərini inkişaf etdirmək haqqına sahibdirlər. Lakin Fransa hesab edir ki, korsikalıların heç bir haqqı yoxdur və onlar əbədi olaraq qul və kölə kimi yaşamalıdırlar. Yəni Fransanın insan haqlarından anladığı bir şey olsaydı, əvvəlcə özü tətbiq edər, sonra başqa ölkələrdə səhv axtarmağa başlayardı".

Deputatın dediklərinə görə, Fransanın ölkəmiz əleyhinə guya ermənilərin etnik təmizlənməsi ilə bağlı qəbul etdiyi qətnamələr qərəzlidir. Hər zaman qanunun aliliyinə, insanların hüquq və azadlıqlarına böyük hörmətlə yanaşan Azərbaycana qarşı belə böhtan atmaq ədalətsizlikdir. Fransa ünvanımıza saxta ittihamlar səsləndirməklə heç nə əldə edə bilməyəcək.

"AŞPA-da Azərbaycana qarşı nümayiş etdirilən qərəzin və ikili standartların müəllifi də Fransadır. Ümumiyyətlə, Parisin əli milyonlarla insanın qanına bulaşıb. Demokratik prinsipləri ayaq altına atan bu ölkənin Azərbaycandan nəsə tələb etməyə haqqı yoxdur. Bu məsələdə Fransaya dəstək verənlərə hüququn aliliyi və insan haqları maraqlıdırsa, bunu ilk növbədə Avropanın mərkəzində yerləşən Fransadan tələb etsinlər. Biz isə Fransanın müstəmləkəçilik siyasətinə qarşı mübarizə aparan xalqlara öz dəstəyimizi davam etdirəcək və onların təməl hüquqlarının təmin olunmasına çalışacağıq. Dünyada gec, ya tez haqq-ədalət öz yerini tapır", - deyə müsahibimiz əlavə edib.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Fransa məqsədli şəkildə regionda gərginlik yaradır

Azərbaycanın 2020-ci ilin Vətən müharibəsindəki qələbəsindən sonra Fransanın ölkəmizə qarşı tutduğu qərəzli mövqeyini anlamaq o qədər də çətin deyil. Əslinə qalsa, Ermənistanın hərbi məğlubiyyəti Fransanın Ermənistan üzərindən regionda qurduğu Cənubi Qafqaz siyasətinin iflasa uğraması deməkdir.

Elə son üç ildə Fransanın ölkəmizə qarşı qərəzinin əsl səbəbi də Parisin Cənubi Qafqazda apardığı uğursuz, avantürist siyasətinin ifşa olunmasıdır. Səhvlərini anlamayıb, məğlubiyyətini qəbul etmək istəməyən rəsmi Paris üzdə özünü Ermənistanın müttəfiqi, dostu və müdafiəçisi kimi göstərərək qlobal maraqları naminə daha təhlükəli ssenarilər qurur. Birmənalı olaraq regionda destabilizasiya yaradaraq Ermənistanı yenidən müharibəyə təhrik edir. Fransanın təşəbbüsü ilə əsasən fransız və almanların sabiq jandarm qüvvələrindən təşkil olunmuş Avropa Birliyinin müşahidə missiyası adı ilə sərhədlərimizə cəmləşən kəşfiyyat müşahidə missiyasının əsas məqsədi müşahidələr apararaq müəyyən kəşfiyyat məlumatları toplamaqdır. Son vaxtlar Azərbaycan sərhədində baş verən hadisələr də bunu təsdiqləyir. Parisin məqsədi öz hərbi mövcudluğunu Ermənistan-Azərbaycan sərhədinə keçirmək və yeni toqquşmalara və hətta hərbi əməliyyatların bərpasına nail olmaqdır.

Bu günlərdə Fransa Milli Jandarma İdarəsinin generallarından birinin Ermənistan ərazisindən Azərbaycan sərhədinə yaxınlaşaraq müşahidə aparması Fransanın ölkəmizə qarşı hərbi təxribat törətmək niyyətində olması ilə bağlı ehtimalları gücləndirir.




Ermənistanı ardıcıl olaraq silahlandırmağa çalışan, birgə hərbi təlimlər keçirən bir ölkənin generalının sərhədlərimizə yaxınlaşması heç şübhəsiz ki, Fransanın daha bədnam niyyətdə olduğunu göstərir.

Özünü dünyada Ermənistanın "müdafiəçisi" kimi göstərib regionda qlobal niyyətini gerçəkləşdirməyə çalışan Fransanın məkrli siyasəti heç də Ermənistanın maraqlarını ifadə etmir. Əksinə, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasının qarşısının alınmasına, regionda yalnız ölkəmizin deyil, İran, Rusiya və hətta Gürcüstanla da münaqişə vəziyyətinə gətirməsinə, Ermənistanın dalan dövlətinə çevrilməsinə xidmət edir.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova da bildirib ki, Qərbin, xüsusilə də Fransanın məqsədi Cənubi Qafqazı daha bir qarşıdurma meydanına çevirməkdir: "Onlar region ölkələrinin maraqlarına məhəl qoymurlar, bölgədə təhlükəsizliyin, sabitliyin və çiçəklənmənin təmin olunması üçün heç nə etmirlər. Hesab edirəm ki, Bakı və həmçinin bəzi ölkələr artıq dünyanın digər yerlərində özünün kökdən düşmüş siyasi nüfuzunu Cənubi Qafqazda bərpa etməyə çalışan Parisin zəhlətökənliyindən yorulub".

Məsələ burasındadır ki, Fransanın istər 2020-ci il Vətən müharibəsi zamanı, istərsə də son üç ildə ölkəmizə qarşı davamlı olaraq sərgilədiyi qərəzli münasibətə dövlətimiz tərəfindən həmişə tutarlı cavab verilib. Azərbaycan DTX Fransa kəşfiyyatının Şərqi Avropadan Mərkəzi Asiyaya qədər geniş coğrafiyada fəaliyyət göstərən şəbəkəsini ifşa etməklə, Fransanın apardığı siyasəti dünyada ifşa etdi.

Fransa prezidenti Emmanuel Makronun yarıtmaz siyasəti bu gün Fransanı müsəlman dünyası ilə üz-üzə qoyub. Fransa Mali, Burkina Faso və Nigerdən biabırcasına qovulub. Mərakeşlə əvvəlki münasibətlər artıq mövcud deyil. Əlcəzairdə isə özəl məktəblərə fransız dilində dərs keçmək qadağan edilib. Tunis, Mali, Cibuti, Nigeriya, Çad, Seneqal, Vyetnam, Qəmər adaları, Haiti və digər ölkələr Fransanın onlara vurduğu yaraların acısını heç də unutmayıblar.

Afrikada siyasi-iqtisadi maraqları iflasa uğrayan Fransa Ermənistan vasitəsi ilə Cənubi Qafqaza yerləşib uduzduqlarını bu regionda kompensasiya etməyə çalışır. 2020-ci ilin payızından Azərbaycana qarşı ardıcıl olaraq qərəzli mövqe tutan Paris regiona gedən bütün körpüləri özü dağıdıb. Yolunun bağlandığını hiss edən Paris yenidən Cənubi Qafqaza dönmək üçün qarışıqlıq yaradıb, gərginliyi artırıb, hərbi toqquşmalara səbəb olmaq üçün hər cür iyrənc vasitələrə əl atır. Emmanuel Makron hesab edir ki, Ermənistan və Azərbaycan arasında müharibə baş verərsə, Paris bölgədə yenidən arbitr olaraq Cənubi Qafqazda yerləşib, mövqelərini möhkəmləndirə bilər. Görünən budur ki, Fransa XXI əsrdə insanlığa yaraşmayan məkrli siyasətini davam etdirməkdə hələ də israrlıdır.

Emmanuel Makronun xarici siyasətdə uğursuzluqları göz önündədir, iflasa uğrayıb. Fransanın daxili siyasətinə gəldikdə isə, "sarı jiletlilərin" etirazları, fermerlərin aksiyaları bu ölkənin yanlış yolda olduğunun nəticəsidir. Ölkənin iqtisadi və sənaye çəkisi getdikcə azalır, dövlət borcu astronomik həddə çatır. Bir sözlə, Makronun xarici və daxili siyasətində davamlı şəkildə qeyri-sabitlik, ardıcıl səhvlər və ziddiyyətlər özünü göstərir. Fransanın ən uğursuz rəhbəri kimi Fransa tarixinə düşən Makron heç bir izahı olmadan müxtəlif bölgələrdə hərbi-siyasi qarşıdurmalar, daxili çəkişmələr yaratmaq yolu tutub. Amma necə deyərlər, bıçaq daşa dirənib. Afrikada, Asiyada soyqırımı cinayətləri törədib, insanların azadlıqlarını əllərindən alıb, dövlətçiliklərini məhv edən Fransanın müstəmləkəçilik siyasətini Azərbaycan ifşa edir, həm də dünyanın bir sıra yerlərində fransızların nəzarət etdiyi ərazilərin yerli əhalisinin azadlıq mübarizələrinə dəstək verir. Fransanın ölkəmizə olan qərəzli münasibətinin bir səbəbi də onun əsl simasının dünyaya tanıdılması üçün Azərbaycanın gördüyü işlərdir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Fransa Cənubi Qafqazı müharibəyə sürükləyir

### Rəsmi Paris Ermənistandakı revanşist qüvvələri qızışdırmaqla məşğuldur

**"Bir sıra Qərb ölkələrinin və bəzi beynəlxalq təşkilatların Azərbaycana qarşı qərəzli münasibət nümayiş etdirmələri ilk dəfə deyil. Azərbaycan daim dünya güclərinin ikili standartlara əsaslanan siyasəti ilə üz-üzə olub".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat qeyd edib ki, xüsusilə Vətən müharibəsindən sonra bu cür radikal hallara daha çox rast gəlinir. 44 günlük müharibə nəticəsində torpaqlarımızın işğaldan azad edilməsindən sonra Azərbaycan Cənubi Qafqaz regionunun sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün təşəbbüslərlə çıxış edib. Ermənistanla sülh sazişi imzalamaq təklifi də ilk olaraq Azərbaycan tərəfindən irəli sürülüb. Münaqişə başa çatdıqdan sonra xalqımızın uzun illər ərzində məruz qaldığı əzab-əziyyətlərə, məhrumiyyətlərə və dağıntılara baxmayaraq, Azərbaycan Ermənistanla davamlı sülhün təmin edilməsi istiqamətində fəal iş aparır. Məqsəd regionun sülh, sabitlik və əməkdaşlıq məkanına çevrilməsidir.

K.Bayramov bildirib ki, Qərbin və Avropanın bəzi qərəzli dövlətləri, beynəlxalq təşkilatlar sülh prosesinə əngəl yaratmaqda davam edirlər: "Tarixi zəfərimizdən və suverenliyimizin tam təmin olunmasından ötən dövr ərzində bu yanaşmanın daha açıq müstəviyə keçdiyi diqqətdən kənarda qalmır. Fransa qərəzli, ədalətsiz mövqeyi, qəbul etdiyi absurd qərarları ilə Azərbaycana təzyiq göstərməyə çalışır. Bununla da Ermənistan və onun havadarları olan bir çox ölkə çalışır ki, sülh müqaviləsinin imzalanması prosesini uzatsın. Məhz bu səbəbdən də Vətən müharibəsi və sonrakı dövrdə Fransa Azərbaycana qarşı BMT Təhlükəsizlik Şurasında bir neçə dəfə qətnamə qəbul olunmasını müzakirələrə çıxarmaq üçün cəhdlər göstərib. Ancaq bu cəhdlərin heç biri uğurla nəticələnməyib". Deputat vurğulayıb ki, Avropa Şurası, onun parlamenti qərəzli addımları ilə öz maraqlarına xidmət edən Fransa, Almaniya kimi dövlətlərin alətinə çevrildiyini göstərməklə, əslində, oyuncaq təsisat olduğunu bir daha sübut edir. AŞPA-nın son addımı da Fransanın tarixi zəfərimizdən sonra Azərbaycana qarşı açıq müstəviyə keçən qərəzli kampaniyasının davamıdır.

Deputat diqqətə çatdırıb ki, Paris əlində olan bütün Avropa təsisatlarına Azərbaycana qarşı qərarlar, qətnamələr qəbul etdirməklə, mətbuatda ölkəmiz əleyhinə yazılar dərc etdirməklə, eyni zamanda hərbçilərini və silah-sursatını Ermənistana göndərməklə vəziyyəti gərginləşdirməyə çalışır. Onun göstərişi ilə oturub-duran bir çox ölkə də analoji hərəkət nümayiş etdirir. O cümlədən, Hindistan da bu yolu tutub. Paris hazırda Ermənistana hücum silahlarının tədarükünü Hindistan üzərindən həyata keçirir. Hindistanın Ermənistana göndərdiyi "Trayan" özüyeriyən artilleriya sistemləri Fransanın siyasi dəstəyi və maliyyəsi hesabına həll edilib. Bu sistemlər Fransanın "Nexter Systems" şirkətinin Hindistandakı tərəfdaşları ilə birgə hazırlanır.

K.Bayramov qeyd edib ki, Fransa silahların verilməsi ilə yanaşı, təlimlər adı ilə Ermənistan ordusunda kadr hazırlığını da həyata keçirməyə cəhdlər göstərir. "Fransanın bu siyasəti Cənubi Qafqazda gərginlik riskini artırmaqla yanaşı, hərbi sahədə yeni "dayaq" tapan Ermənistanı sülh danışıqlarında tələblər irəli sürməyə və prosesi uzatmağa da sövq edir. Təəssüf doğuran hal ondan ibarətdir ki, Qərb qurumları Ermənistana əlavə silahların verilməsinə göz yumur. Qərb dövlətləri anlamaq istəmirlər ki, bu siyasət Ermənistanın aqressiv iddialarının güclənməsinə gətirib çıxaracaq və bütün regionun sabitliyini təhlükə altına salacaq. Ortada təcrübə də var. SSRİ dağıldıqdan sonra o dövr üçün ən müasir silahlarla təmin olunan Ermənistanın təxribatları Qafqazda bir milyona yaxın insanın ev-eşiyindən didərgin düşməsinə, Azərbaycan torpaqlarının işğalına gətirib çıxartdı. İndi də Fransanın mövcud müqavilələr əsasında Ermənistana verməkdə olduğu silahlar regionda sabitliyə mənfi təsir edir və sülh prosesini çətinləşdirir. Qərb ölkələri anlamalıdırlar ki, Ermənistana əlavə silahlar vermək planı rəsmi Paris tərəfindən son dərəcə məsuliyyətsiz bir işdir", - deyə o əlavə edib.

K.Bayramov bildirib ki, rəsmi Bakı dəfələrlə Parisi Ermənistanı silahlandırmaqdan çəkinməyə çağıraraq onu sərt tənqid edib. Həmçinin Emmanuel Makronun Azərbaycanın beynəlxalq hüquqla probleminin olmasıyla bağlı fikrinin sadəcə gülüş doğurduğunu bəyan edib. Ən acınacaqlısı isə odur ki, bu gün Avropa hələ də xaricə demokratiya ixracı adı altında ölkələrin daxili işlərinə müdaxilə edir, hakimiyyətlərin dəyişdirilməsinə çalışır.

Deputat vurğulayıb ki, onlar sözdə dünyada sülhə çağırış etsələr də, əslində, Ukraynada və Qəzzada başlayan müharibələrin başa çatmasına, atəşkəs elan olunmasına birbaşa mane olurlar. Harada ki, xalqla iqtidar birliyi var, orada onların avantürası baş tutmur. Həmçinin bu oyunu dəfələrlə ölkəmizə qarşı oynasalar da, planları iflasa uğrayıb.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## *David ARAXAMİYA:* "Ukrayna Ali Radasının AŞPA-ya və Milli Məclisə müraciəti öz rolunu oynamalıdır"

"Avropa Şurası Parlament Assambleyasında (AŞPA) yaranmış vəziyyət, hesab edirik ki, təəssüfdoğuran anlaşılmazlıqdır".

Bu fikri AŞPA-nın qış sessiyasında Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin təsdiq edilməməsi ilə bağlı qərara münasibət bildirən Ukraynanın hakim "Xalqın xidmətçisi" fraksiyasının Ali Radadakı rəhbəri David Araxamiya AZƏRTAC-a müsahibəsində deyib.

"Yaranmış vəziyyətə görə təbii ki, çox üzüldük. Biz bir-birimizin - həm Azərbaycanın, həm doğulduğum vətənim Gürcüstanın, həm də təəssüf ki, hazırda belə qanlı müharibənin getdiyi Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü dəstəkləyirik. Bu isə hər bir dövlətin öz suverenliyini müdafiə etmək, beynəlxalq səviyyədə tanınmış sərhədlərini qorumaq hüququdur. AŞPA-da baş vermiş vəziyyət, hesab edirik ki, təəssüfdoğuran anlaşılmazlıqdır. Hisslərə qapılmaq lazım deyil. Bizim parlamentin Xarici əlaqələr komitəsi həm Azərbaycan tərəfinə, həm də AŞPA-ya müraciət edib. Bir xahişimiz var, - biz bu prosesin subyekti deyilik və iştirakçı kimi ortada olmaq istəmirik, - istəyirik ki, hər iki tərəf danışıqlar masası arxasında əyləşsin, ümumi razılıq əldə edilsin və hər şey olduğu kimi geri qaytarılsın. Çünki Azərbaycan və Azərbaycanın AŞPA-dakı nümayəndə heyəti uzun onilliklər ərzində çox səmərəli işləyir, bütün dəyərləri - multikulturalizmi, demokratik dəyərləri bölüşürlər. Ona görə də bizə elə gəlir ki, bu anlaşılmazlıq daha çox hər iki tərəfin emosiyalarından qaynaqlanır. Buna görə bir neçə onillik ərzində davam etmiş təmsilçiliyi dayandırmaq üçün heç bir səbəb yoxdur. Ona görə də indi hər hansı detala varmıram. Mənə elə gəlir ki, bizim parlamentdən olan deputatlarımızın hamısının həm sizin parlamentə, həm də AŞPA rəhbərliyinə etdiyi müraciət öz rolunu oynamalıdır, çünki biz bugünkü vəziyyətimizdə birliyin nə olduğunu başa düşürük. Bu gün birlik böyük dəyərdir. Belə halların baş verdiyini görəndə birliyin çox vacib olduğunu anlayırıq. Ona görə də biz istəyirik ki, müharibə şəraitində yaşayan ölkə olaraq hər iki tərəfə müraciət edək və tərəflər danışıqlar masası arxasında əyləşib həll yolunu tapsınlar", - deyə David Araxamiya bildirib.

### Azərbaycan bütün aspektlərdən beynəlxalq səviyyədə tanınmağa layiq ölkədir

AŞPA-nın üzvü olmadığını xatırladan D.Araxamiya bu qurumun mövqeyinin dəyərlərə necə zərbə vuracağını qiymətləndirə bilmədiyini qeyd edərək deyib: "Azərbaycana dəfələrlə səfər etmişəm və bu ölkə ilə bağlı təcrübəmi bölüşə bilərəm. Azərbaycan multikultural ölkədir, burada müxtəlif dinlərə, millətlərə tolerant yanaşılır, dözümlülük var. Mən Azərbaycanda küçələri gəzmişəm, sadə azərbaycanlılarla söhbət etmişəm. Çox rahat şəkildə piyada gəzmişəm. İnsanlar bu ölkədə özlərini çox təhlükəsiz hiss edirlər, kriminogen durum çox aşağı səviyyədədir. Ona görə də hesab edirəm ki, Azərbaycan bütün aspektlərdən beynəlxalq səviyyədə tanınmağa layiq ölkədir. Ümid edirəm ki, bizim indi




başladığımız təşəbbüs həm ölkənizə, həm də AŞPA rəhbərliyinə bütün tərəflər üçün müsbət nəticəyə gətirib çıxarmağa, ümumi təmas və dialoq nöqtələrini tapmağa kömək edəcək".

### İlham Əliyevi yenidən Prezident seçilməsi münasibətilə təbrik edirəm

Azərbaycanda növbədənkənar prezident seçkilərinin nəticələrinə dair sualı cavablandıran fraksiya rəhbəri İlham Əliyevi yenidən Prezident seçilməsi münasibətilə təbrik edib.

"Mən cənab Əliyevi şəxsən tanıyıram. Mən də prezidentimizin təbrikinə Ukrayna xalqı adından qoşuluram, Azərbaycan xalqı bizim üçün qardaş xalqdır. Ukraynada çoxlu azərbaycanlı yaşayır, ona görə də mən Prezidentinizə, ölkənizə səmimi-qəlbdən cansağlığı, firavanlıq arzulayıram. Əlbəttə ki, bütün azərbaycanlılar xoşbəxtdirlər. Sizin böyük tarixi Qələbəniz var. Siz ərazi bütövlüyünüzün bərpası ilə bağlı ilk nəticələri əldə edəndə mən elə orada idim, mindiyim taksinin sürücüsü ilə söhbət edəndə o dedi ki, bu hadisə əsrlər boyu yaddan çıxmayacaq. Bütün təbriklərə qoşuluram", - deyə David Araxamiya bildirib.

### Azərbaycan müharibə zamanı Ukraynaya ən operativ yardım göndərən ölkədir

Azərbaycanın Ukraynaya müharibə dövründə humanitar yardımlarını yüksək qiymətləndirən həmsöhbətim bildirib ki, müharibə zamanı Azərbaycan Ukraynanın dost dövlətləri arasında ən tez reaksiya verənlərdən biri oldu. Bizdə terror aktı ilə bağlı vəziyyət yarananda, Avropanın ən böyük su-elektrik stansiyası partladıldı, sözün əsl mənasında, bütün şəhərlər su altında qaldı. Mən o zaman sizin ölkə rəhbərliyinə zəng etdim və 24 saat ərzində ilk təyyarə yükləndi və ünvana çatdı. Daha sonra bir neçə təyyarə göndərildi. Həmin vaxt bu, bizim üçün çox vacib idi. Təbii ki, daha böyük həcmdə yardımlar edən ölkələr var, amma burada önəmli olan Azərbaycanın həmişə göstərdiyi operativlik, səmimiyyət və mehribanlıqdır. Ona görə də biz vaxtında göstərdiyi köməyə və bizə dost münasibətinə görə Azərbaycana minnətdarıq və həmişə minnətdar olacağıq", - deyə fraksiya rəhbəri qeyd edib.

### Müharibə ilə bağlı vəziyyətimiz təəssüf ki, sadə deyil

David Araxamiya Ukrayna-Rusiya müharibəsinin gələcək vəziyyəti ilə bağlı danışarkən bildirib ki, müharibənin gedişi bu gün müsbət, sabah mənfi ola, onun dinamikası dəyişə bilər: "Təəssüf ki, indi vəziyyətimiz sadə deyil, çünki beynəlxalq yardımlarla bağlı məsələlər var, bu, ABŞ-da daxili siyasət mövzusuna çevrilib. Amma buna baxmayaraq, bizim çox müsbət proqnozlarımız var. Biz inanırıq və rəqəmlərdən də görürük ki, Ukrayna və Rusiyanın itkiləri təxminən 1-in 3-ə və ya 1-in 4-ə nisbətində Ukraynanın xeyrinədir və biz indi daha çox müdafiə əməliyyatındayıq.

Həmişə olduğu kimi, ordu və müharibə qanunları deyir ki, özünü müdafiə edənlər daha az itki verir və düşmənə daha çox zərbə vururlar.

Bu gün müharibə strategiyası dəyişir. Bütün dünya, bütün analitiklər döyüş meydanında baş verənləri təhlil edirlər. Çünki hamı artıq başa düşür ki, ənənəvi məhvetmə üsulları - artilleriya, zirehli texnika, praktiki olaraq lazım deyil, çünki pilotsuz uçuş aparatları onları məhv edir, dronların müharibəsi gedir. Yəni, NATO-nun analitik qeydlərində gələcəkdə müharibələrin necə olacağı ilə bağlı oxuduqlarımı, təəssüf ki, bu gün artıq qismən ölkəmdə döyüş meydanında görürük. Əlbəttə, hamımız sülh istəyirik, amma təbii ki, sülhü başqa şərtlərlə deyil, bizim üçün əlverişli şərtlərlə istəyirik. Başa düşürük ki, biz heç kimə hücum etməmişik. Bizə qarşı təcavüz edilib. Buna görə də bu gün bütün dünya bu prizmadan baxır, təbliğat hər şeyi nə qədər dəyişməyə çalışsa da, hamı nə baş verdiyini anlayır. Biz sakit yaşayırdıq və gözəl bir gündə bizə hücum etdilər. Amma biz özümüzü müdafiə edəcəyik. Dövlət, hakimiyyət, Ukrayna xalqı özünü müdafiə etməyə hazırdır. Tərəfdaşlarımız, müttəfiqlərimiz, dostlarımız hər zaman bizə kömək etməyə hazırdırlar", - deyə David Araxamiya bildirib.

## Cəlil Məmmədquluzadə - 155

# Ecazkar qələmin gücü

**XX əsr Azərbaycan realist ədəbiyyatının görkəmli nümayəndəsi, yazıçı, publisist, naşir və ictimai xadim Cəlil Məmmədquluzadə zəngin yaradıcılığı ilə çoxəsrlik ədəbiyyatımıza və milli mətbuatımıza böyük töhfələr verən istedadlı yazıçılarımızdandır. Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan bu böyük düha sahibinin yaratdığı hekayə, povest və dram əsərlərinin, publisistik üslubda qələmə aldığı çoxsaylı məqalələrinin hər biri öz mövzu və problematikasına, aktuallığına, bədii siqlətinə, ecazkar, bənzərsiz dil və üslub orijinallığına görə xalqımızın mənəvi sərvətinə çevrilərək əbədiyyət qazanmışdır.**

Milli-mənəvi dəyərlərimizin tərcümanı kimi bir əsrdən artıqdır ki, söz xəzinəmizi zənginləşdirən bu unikal sənət əsərləri hələ neçə-neçə əsrlərin hüduduna yetəcəkdir. Yazıçının ecazkar qələminin gücü ilə yaradılan, hər biri bir roman qədər sanballı, dəyərli, həyati olan maraqlı hekayələri nəinki Azərbaycan ədəbiyyatında, eyni zamanda dünya ədəbiyyatının bu janrda yazılmış zəngin xəzinəsində qərarlaşıb. Cəlil Məmmədquluzadənin dərin fəlsəfi düşüncələrini, real müşahidələrini bir güzgütək özündə ehtiva edən "Poçt qutusu", "Usta Zeynal", "İranda hürriyyət", "Qurbanəli bəy", "Quzu", "Dəllək", "Rus qızı", "Kişmiş oyunu", "Zırrama", "Molla Fəzləli", "Xanın təsbehi", "Konsulun arvadı", "Pirverdinin xoruzu" və başqa hekayələri realist nəsrimizin ən dəyərli nümunələri kimi dünya arenasında müəllifinə şöhrət qazandırıb. Yazıçı bu ölməz sənət inciləri ilə XX əsr Azərbaycan hekayəçiliyinə yeni ab-hava, dərin fəlsəfi məzmun, lakoniklik, orijinal və bənzərsiz üslub, novatorluq, qeyri-adi təhkiyə tərzi gətirib.

Cəlil Məmmədquluzadə "Çay dəstgahı", "Danabaş kəndinin əhvalatları", "Kişmiş oyunu", "Kamança", "Danabaş kəndinin məktəbi", "Dəli yığıncağı", "Ölülər", "Anamın kitabı" kimi sanballı və monumental əsərləri ilə realist Azərbaycan ədəbiyyatının, dramaturgiyamızın inkişafında, təkamülündə və formalaşmasında müstəsna rol oynadı və adını ədəbiyyat tariximizdə əbədiləşdirdi.

Cəlil Məmmədquluzadənin redaktorluğu ilə 1906-cı ilin 7 aprelində Tiflisdə nəşrə başlayan "Molla Nəsrəddin" jurnalı bütün Şərq aləmində ilk satirik, rəngli-şəkilli jurnal kimi mətbuat tariximizin böyük salnaməsini yaratdı. 25 il xalqının milli dirçəlişində müstəsna rol oynayan bu satirik mətbuat orqanı Azərbaycan və eləcə də türk xalqlarının milli oyanış və tərəqqisinə misilsiz töhfələr verdi. Öz ətrafına Ö.F.Nemanzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, M.S.Ordubadi, Ə.Qəmküsar, Ə.Nəzmi, Ə.Razi kimi şair və yazıçıları toplayan bu unikal jurnal "Molla Nəsrəddin" ədəbi məktəbinin yaranmasına və beynəlxalq aləmdə böyük nüfuz qazanmasına geniş imkanlar açdı.

"Molla Nəsrəddin"in mövzu və ideya qaynaqlarının zənginliyi onun geniş miqyasda yayılmasına və məşhurlaşmasına gətirib çıxardı. Orijinal üslublu bu satirik jurnal Azərbaycan mətbuatının sonrakı inkişafına və təkamülünə də güclü təsir göstərdi. "Molla Nəsrəddin" jurnalının çoxsaylı mövzu və problematikasında böyük azərbaycançılıq ideyası, öz xalqını azad, demokratik və müstəqil görmək istəyi bütün fəaliyyəti boyu davam etmişdir. Bu taleyüklü problemin həlli istiqamətində ardıcıl və prinsipial mübarizə aparan "Molla Nəsrəddin" jurnalı sonadək əqidəsinə sadiq qalmış, bir çox məhrumiyyətlərlə, təqiblərlə üzləşmişdir. Jurnal fəaliyyətə başladığı dövrdə Azərbaycan məmləkəti rus imperiyası tərəfindən istila edilmiş, çar hökumətinin zülm və istibdadı altında hüquq və azadlıqları boğulmuş, asılı bir vəziyyətə salınmışdır. Dövrün bir çox ziyalıları kimi mollanəsrəddinçilər də Azərbaycanı qəsdən qəzalara, quberniya və mahallara bölən, "parçala və hökm sür" siyasətini yeridən imperiyanın riyakarlığını 25 il jurnalın səhifələrində yer alan satirik şeirlərdə, felyetonlarda, teleqraf xəbərlərində və digər janrlı əsərlərdə tənqid atəşinə tutmuşlar. Azərbaycan dilini, ədəbiyyatını, mədəniyyətini, tarixini sıxışdıraraq öz içərisində əritməyə çalışan şovinistlərin çoxqatlı və çoxplanlı məkrli siyasətini ezop dili ilə ifşa etmişlər.

Ümummilli Lider Heydər Əliyev Cəlil Məmmədquluzadəni cəsarətli, vətəndaşlıq hissini uca tutan bir yazıçı kimi xarakterizə edərək deyirdi: "Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətləri, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir. O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında da əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük vətəndaşlıq cəsarəti idi, böyük xidmətdir və bunu biz daim qiymətləndirməliyik. Ona görə də Cəlil Məmmədquluzadənin yaradıcılığı, əsərləri bu gün bizim milli ideologiyanın formalaşmasına və yaranmasına, onun konsepsiyasının eyni şəkildə hazırlanmasına çox kömək edə bilər və çox kömək edəcəkdir".

"Molla Nəsrəddin" jurnalı milli-mənəvi dəyərlərimizin məhvinə çalışan imperialist qüvvələrə qarşı vahid mövqedən çıxış etməyin zəruriliyini gündəmə gətirir, xalqımızın öz müqəddəratını təyin etmək hüququna malik olduğunu geniş oxucu auditoriyasına çatdırırdı. Jurnal azad, müstəqil və demokratik dövlət quruculuğuna nail olmağın yolunu milli birlikdə görür, xalq mənafeyini şəxsi mənafedən üstün tutmağın əhəmiyyətini açıqlayaraq yazırdı: "Nə qədər ki, qamusları vərəqlədim, nə qədər ki, camaət içində dolandım, "millət" sözünü nə eşitdim, nə də bir kitabda gördüm. O yerdə ki, lüğət kitabında gərək yazılaydı "millət", orada "millət" əvəzinə yazılıb: "şəxs". O yerdə ki, söz düşəndə gərək millət sözü danışıla, orada "əşxas" ləfzi istemal olunur. Və məhz bu səbəbdəndir ki, bizlərdə millət qorxuları şəxsi qorxular şəklində zühura gəlir, milli işlərimiz əvəzinə şəxsi dəsgahlar peyda olur".

C.Məmmədquluzadə yaradıcılığında Azərbaycanın ictimai-siyasi həyatı, sosial mühit, elm və təhsil məsələləri, qadın azadlığı, dini xurafatın, cahilliyin tənqidi kimi taleyüklü məsələlərlə yanaşı, həm də beynəlxalq aləmdə baş verən qlobal problemlərə də geniş yer verilmişdir.

"Molla Nəsrəddin" jurnalı 25 illik fəaliyyəti dövründə Azərbaycan dilinin milli təəssübkeşi olmuş, öz səhifələrində dərc etdirdiyi, məqalə, felyeton, satirik şeir, teleqraf xəbərləri və digər janrlı yazılarda ana dilimizin rus, ərəb, fars və sair dillər vasitəsilə korlanmasına qarşı çıxmış, yad dillər içərisində itib-batmasından ciddi narahatlıq keçirmişdir. Realist sənətkar bu taleyüklü məsələyə ciddi önəm vermiş, az qala jurnalın hər sayında bu problemin aktuallığından söhbət açmış, Azərbaycan dili haqqında həm özünün, həm də mollanəsrəddinçi əqidə və məslək dostlarının yüzlərlə yazılarını dərc etdirmişdir. Ümummilli Lider C.Məmmədquluzadənin ana dilini milli müstəviyə çıxarmasını, xalqımızın müqəddəratının əsas atributlarından biri kimi səciyyələndirməsini yazıçının vətəndaşlıq mövqeyi və azərbaycançılıq ideologiyasının təzahürü kimi mənalandırır: "C.Məmmədquluzadənin fəaliyyətində ən dəyərli cəhətlərdən biri də Azərbaycan xalqının dilinin inkişafı üçün göstərdiyi xidmətlərdir. Onun daim işlətdiyi "Vətən, Vətən, Vətən! Millət, Millət, Millət! Dil, Dil, Dil! Sözləri xalqımızın, millətimizin fikirlərini, arzularını ifadə edir. Ədibin ana dilinə-Azərbaycan dilinə böyük diqqəti, ana dilini bilməyə səsləməsi və ana dilinin, Azərbaycan dilinin hər yerdə hökm sürməsinin zəruriliyinə dair fikirləri, yazıları o vaxt üçün vacib idi, bu gün də çox aktualdır".

Cəlil Məmmədquluzadə irsinin və onun redaktorluğu ilə nəşr olunan



"Molla Nəsrəddin" jurnalının araşdırıcısı akademik İsa Həbibbəyli Heydər Əliyevin böyük demokrat ədib haqqında söylədiyi dəyərli fikirlərin davamı olaraq yazır: "Cəlil Məmmədquluzadə təkcə mətbuatda yox, həm də ədəbiyyatda azərbaycançılıq məfkurəsinin ideoloqudur... Qüdrətli ədib bu mövzunu ən parlaq şəkildə 1920-ci ildə qələmə aldığı "Anamın kitabı" dramında əks etdirmişdir. "Anamın kitabı" - Azərbaycanın milli istiqlalı haqqında XX əsr boyu yazılmış əsərlərin mənəvi Anasıdır".

Akademik İsa Həbibbəyli yazıçının müxtəlif arxivlərdə qorunub saxlanılan 176 felyetonunu, 35 məqaləsini, 14 şeirini, 9 məktubunu, 2 tərcüməsini, "Ər", "Lənət" və "Oyunbazlar" dramlarını və bir hekayəsini aşkara çıxararaq çap etdirmiş və geniş oxucu auditoriyasının ixtiyarına vermişdir. O, yazıçının nəsil şəcərəsinin axtarılıb tapılması istiqamətində də böyük işlər görür və yazıçının həyat yoluna işıq salaraq yazır: "C.Məmmədquluzadə 1907-ci il iyunun 15-də Qarabağın məşhur xanlarından olan Əhməd bəy Cavanşirin (1828-1902) qızı Həmidə xanımla (1873-1955) ailə həyatı qurmuş, Mirzə Cəlilin bu nikahdan Midhət (1908-1932) və Ənvər (1911-1979) adlı iki oğlu dünyaya gəlmişdir. Midhət Məmmədquluzadə Azərbaycan Politexnik İnstitutunun Hidrotexniki qurğular fakültəsini bitirmiş, Dövlət Plan Komitəsində Mingəçevir su-elektrik stansiyasının layihəsini hazırlayan komissiyanın elmi katibi vəzifəsində çalışmışdır. Ənvər Məmmədquluzadə Azərbaycan Tibb Universitetinin məzunu olmuş, Böyük Vətən müharibəsi illərində sovet ordusunun tərkibində İrana getmiş, taleyin hökmü ilə həyatının qalan hissəsini həmin ölkədə yaşamışdır. Ə.Məmmədquluzadə Bakıda ikən evləndiyi Tibb İnstitutunun məzunu Məhin Dadipurdan 1940-cı ildə Mehri Məmmədquluzadə (Səqqət-çiya) dünyaya gəlmişdir. Ə.Məmmədquluzadə İranda Məhin Dadipurdan ayrılmış, polyak qızı Zotiya Bahrinovskaya ilə ailə qurmuşdur. Bu nikahdan Midhət Cavanşiri (2013-cü ildə Tehranda vəfat etmişdir), Teymur Cavanşiri (1992-ci ildə Tehranda dünyasını dəyişmişdir), İrena Cavanşiri və Nizhət Cavanşiri dünyaya gəlmişdir.

Hal-hazırda Mirzə Cəlilin nəslinin davamçılarından Martin Cavanşiri Polşada, Ramin Cavanşiri İslandiyada (Midhət Cavanşirinin övladı), Məhin Səqqətçiya və Nizhət Şəcəri (Ənvər Məmmədquluzadənin övladları) Fransada, İrena Süleymani (Ənvərin qızı) İranda yaşayırlar. İ.Həbibbəylinin dəvəti ilə C.Məmmədquluzadənin nəticəsi Martin Cavanşiri və onun oğlu Pşemislav Cavanşiri 16-21 noyabr 2019-cu ildə Bakıda olmuş, ulu babalarının ev-muzeyini və məzarını ziyarət etmişlər".

Cəlil Məmmədquluzadənin zəngin və çoxşaxəli yaradıcılığı, yüksək vətənpərvərliyi, böyük sənətkarlığı həmişə dövlətimizin diqqət mərkəzində olmuşdur və bu ənənə çağdaş dövrdə də böyük qədirşünaslıqla Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu il anadan olmasının 155 illiyini hörmət və ehtiramla yad etdiyimiz böyük realist sənətkarın 100, 125 və 150 illik yubileyləri dövlət səviyyəsində geniş qeyd olunmuşdur. Bütün bunlar Azərbaycanın milli istiqlalı, azadlığı uğrunda fədakarcasına mübarizə və mücadilələrdən keçən Cəlil Məmmədquluzadənin şəxsiyyətinə, ölməz ədəbi irsinə, bənzərsiz yaradıcılığına və sənətinə ümumxalq ehtiramının dərin ifadəsidir.

Cəlil Məmmədquluzadənin yaradıcılığında "Molla Nəsrəddin" jurnalının ideyalarına işıq saçan, milli təfəkkürün oyanışı və azərbaycançılığın formalaşmasının bel sütununu təşkil edən "Azərbaycan" məqaləsinin xüsusi yeri var. Bu dəyərli və tarixi əhəmiyyətli məqalə jurnalın əsl məramnaməsi olmaqla yanaşı, həm də Mirzə Cəlil irsinin əsas leytmotivini təşkil edirdi.

Heydər Əliyev Mirzə Cəlil publisistikasının şah əsəri olan bu məqaləni ədibin demokratik dövlət quruculuğunu əks etdirən ən qiymətli əsəri hesab edərək, həm də məqalə müəllifinin müstəqil Azərbaycanın demokratik ruhlu sənətkarlarından biri kimi bu gün də sıralarımızda olduğunu bəyan edirdi.

Cəlil Məmmədquluzadə "Təzə partilər", "Azadeyi-vicdan", "Xoşbəxtlik", "Firqələr davası", "Tüstü", "Misyonerlik" və başqa məqalə və felyetonlarında özünün demokratik dövlət quruculuğu, azad seçki, hüquqi cəmiyyət, Azərbaycanda çoxpartiyalı sistemin əsas parametrləri, insan haqlarının, konstitusiya hüquqlarının qorunması kimi mühüm və önəmli problemləri diqqət mərkəzində saxlamışdır. C.Məmmədquluzadə Tiflisdə Müsəlman Milli Komitəsinin yığıncağında oxumaq üçün yazdığı "Cümhuriyyət" (1917) məqaləsində demokratik dövlət quruculuğunun əsas prinsiplərini belə şərh edir: "Cümhuriyyət", yəni latınca "Respublika" elə bir hökumətə deyirlər ki, orada məmləkətin idarəsi camaatın öz öhdəsində və ixtiyarındadır, necə ki, məsələn, Firəngistan, İsveçrə və qeyriləri".

Akademik İsa Həbibbəyli yazır: "..."Cümhuriyyət" məqaləsi Mirzə Cəlilin cəmiyyətşünaslıq görüşlərinin yekunu və zirvəsidir. "Cümhuriyyət" məqaləsi Cəlil Məmmədquluzadə demokratizminin nizamnaməsidir. Böyük demokrat ədib bu əsərində "padşahlıq taxtından yıxılan Nikolayın... idarəsi dağılandan sonra" ölkədə yaranmış mürəkkəb vəziyyətdə çaşqın qalan, yol axtaran azərbaycanlılara - həmvətənlərinə respublika tipli müstəqil dövlət qurmaq uğrunda səy göstərməyi zəruri saymışdır". C.Məmmədquluzadə məqalədə cümhuriyyət üsul-idarəsinin spesifik xüsusiyyətlərini, hüquqi cəhətlərini açıb göstərməklə yanaşı, məmləkətin idarə edilməsinin xalqın ixtiyarında və səlahiyyətində olması fikrini açıq-aşkar bəyan edirdi.

Məqalədə seçkinin obyektiv, düzgün keçirilməsinin zəruriliyi göstərilir və eyni zamanda saxtakarlığın qarşısının alınması üçün hansı təxirəsalınmaz işlərin görülməsi, əsas məsələlərin təşkili və vəkillərin bu istiqamətdə görəcəyi işlər barəsində yazıçı müfəssəl məlumat verirdi.

Yazıçı sonda azadlıqsevər, demokratik düşüncəli insanlara səslənərək deyir: "Əgər bizdə insanlıq hissi hələ ölməyibsə - və güman edirəm ki, ölməyib, - o vədə gərək uca səs ilə cümhuriyyət qəhrəmanlarını alqışlayıb deyək: Yaşasın cümhuriyyət!"

"Cümhuriyyət" məqaləsinin yazılmasından bir əsrdən artıq vaxt keçməsinə baxmayaraq, o, çağdaş mərhələdə də çox böyük aktuallıq kəsb edir. Məqalədə irəli sürülən mütərəqqi müddəalar bu gün Azərbaycan xalqının həyatında mühüm rol oynayır. 7 fevral 2024-cü ildə xalqımız azad, müstəqil, demokratik bir seçkidə fəal iştirak edərək vətənimizin ərazi bütövlüyünün təminatçısına çevrilən, Qarabağ problemini öz uzaqgörən, müdrik siyasəti və yenilməz ordumuzun qüdrəti ilə həll edən böyük bir siyasi Liderə səs verdi. Azərbaycan xalqı cənab İlham Əliyevə böyük etimad göstərərək Azərbaycan Respublikasının Prezidenti seçməklə xalqımızın və Cəlil Məmmədquluzadənin timsalında vətənimizin istiqlalı uğrunda mübarizələrdən keçən ziyalılarımızın arzularını gerçəkləşdirdi.

*Gülbəniz BABAYEVA,*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Mətbuat tarixi və publisistika şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent*

# Hərb Tarixi Muzeyində "Qars müqaviləsindən Naxçıvan dəhlizinə və dünyaya" adlı elmi seminar keçirilib

**Fevralın 9-da Azərbaycan Hərb Tarixi Muzeyində Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illiyinə həsr olunmuş "Qars müqaviləsindən Naxçıvan dəhlizinə və dünyaya" adlı elmi seminar keçirilib.**









AZƏRTAC xəbər verir ki, Müdafiə Nazirliyinin idarə və müəssisələrinin, veteran təşkilatlarının nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olan qəhrəmanlarımızın ruhu birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə muzey rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qəni-zadə deyib: "XX əsrin əvvəllərində Antanta dövlətləri Rusiya və Türkiyəyə qarşı mübarizə aparırdı. 1921-ci il martın 16-da "Dostluq və qardaşlıq haqqında" Moskva müqaviləsi qəbul edildi. Müqavilənin üçüncü maddəsinə əsasən, Naxçıvan vilayəti bu müqavilənin əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərtilə muxtar ərazidir.

Naxçıvanın statusu məsələsi Rusiya ilə Türkiyə arasında bağlanmış Moskva müqaviləsi ilə müəyyənləşdirilib. Həmin müqavilədə Naxçıvanın statusunda üç mühüm məsələ yer alıb. Bunlar Naxçıvana muxtariyyət statusu verilir, Naxçıvan Azərbaycanın himayəsi altında olmalıdır, Azərbaycan bu himayə haqqını heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcək", - deyə muzey rəisi vurğulayıb.

Elmi seminarda muzeyin tədqiqatçı baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılovun çıxışı dinlənilib.

Naxçıvan Muxtar Respublikasının yaradılması və inkişafına həsr olunmuş qısametrajlı sənədli film nümayiş etdirilib.

Tədbirin bədii hissəsində hərbi-vətənpərvərlik mövzusunda mahnılar səsləndirilib.

# Kitabxanada "Naxçıvan Muxtar Respublikası - 100" adlı elektron məlumat bazası hazırlanıb

**Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamış gözəl diyarı Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 ili tamam olur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.**




Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında sərəncamdan irəli gələn tədbirləri həyata keçirmək məqsədilə "Naxçıvan Muxtar Respublikası - 100" adlı elektron məlumat bazası hazırlanıb.

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, elektron məlumat bazasında müxtəlif illərdə muxtar respublikaya dair imzalanan rəsmi sənədlər, Naxçıvan diyarının qədim tarixi, inzibati-ərazi vahidləri, mədəniyyət, təhsil, iqtisadiyyat, səhiyyə sahələri, görkəmli şəxsiyyətləri haqqında məlumat verilir. Bazada Naxçıvan Muxtar Respublikası haqqında Azərbaycan və xarici dillərdə qələmə alınan kitabların, məqalələrin biblioqrafik təsvirləri, Naxçıvan Muxtar Respublikası Baş nazirinin sabiq müavini Təranə Quliyevanın "Naxçıvanlılar Heydər Əliyevi, Ulu Öndər isə Naxçıvanı qorumuşdu...", Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyevin "İlham Əliyevin yeni Naxçıvan modeli", AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin "Azərbaycanın dövlət müstəqilliyinin Naxçıvan təməli və dərsləri" və Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasının baş müəllimi Yunis Xəlilovun "Moskva və Qars beynəlxalq müqavilələri müstəvisində Naxçıvanın hüquqi statusu" məqalələrinin tam mətni təqdim edilir.

Kitabxana əməkdaşları tərəfindən hazırlanan elektron məlumat bazasında "Naxçıvan - İslam mədəniyyətinin paytaxtı - 2018", "Avtoreferatlar, dissertasiyalar", "Notlar", "İzomateriallar", "Foto və videoqalereya", "Virtual sərgi" bölmələri də mövcuddur.

"Naxçıvan Muxtar Respublikası - 100" adlı elektron məlumat bazası kitabxananın rəsmi saytında yerləşdirilib.

# Özbəkistanda Azərbaycan ədəbiyyatına dair tədbir olub

**Özbəkistanın Nukus Dövlət Pedaqoji Universitetindəki Hüseyn Cavid adına Azərbaycan Mədəniyyəti və Ədəbiyyatı Mərkəzində seminar keçirilib.**





AZƏRTAC xəbər verir ki, tədbirdə Nizami Gəncəvi, Əlişir Nəvai və Məhəmməd Füzuli arasındakı mədəni-ədəbi əlaqələr və onların təsiri ilə türk dünyasında əsərlər yaradan şairlər, Azərbaycan ədəbiyyatında türkçülük məfkurəsi məsələləri haqqında fikir mübadiləsi aparılıb.

Mərkəzin direktoru Feruza Salamova seminarda tələbələrə son zamanlar Özbəkistan-Azərbaycan mədəni-ədəbi əlaqələri istiqamətində həyata keçirilmiş layihələrdən danışıb. O, Azərbaycan ədəbiyyatı ilə bağlı mərkəzdə olan nəşrlər haqqında məlumat verib, kitabları tələbələrə təqdim edib.

Qeyd olunub ki, mərkəzdə daim Azərbaycan-Özbəkistan ədəbi əlaqələrinə dair mühazirələr, seminarlar təşkil olunur, iki xalqın ortaq dəyərlərinə həsr olunmuş açıq dərslər keçirilir. Mərkəzdə Azərbaycanla bağlı yaradılan mini kitabxanada Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin iqtisadi, siyasi, mədəni nailiyyətləri, Azərbaycanın tarixi, mədəniyyəti və ədəbiyyatına dair nəşrlər özbək dilinə tərcümə olunaraq oxuculara təqdim edilir.





# Mədəniyyət





Milli-mənəvi dəyərlərimiz

## Nümunəvi tolerantlıq məkanı

Azərbaycan çoxmillətli dövlətdir. Bütün millətlərin rahat yaşaması və inkişaf etməsi üçün ölkəmizdə çox münbit şərait yaradılıb. Ümummilli Lider Heydər Əliyevin vaxtilə yürütdüyü siyasətin nəticəsidir ki, hazırda Azərbaycanda bütün millətlər və din mənsubları öz adət-ənənələrinə, dinlərinə sadiq qalaraq rahat yaşayırlar.



Xalqımızı başqalarından fərqləndirən əsas amillərdən biri də multikultural dəyərlərə sahib olmasıdır. Azərbaycanda tarixən bütün dinlərə, mədəniyyətlərə hörmətlə yanaşılıb. Müasir Azərbaycanın banisi Ulu Öndər Heydər Əliyevin hakimiyyəti illərində ölkəmizdə formalaşan multikultural dəyərlər bu gün yeni inkişaf mərhələsinə qədəm qoyub.

Mədəni dəyərlərin müasir tələblər səviyyəsində inkişafının, ölkədə sabitliyin və tərəqqinin əsas amil olduğunu nəzərə alan Ümummilli Lider Heydər Əliyev multikulturalizmin siyasi və hüquqi müstəvidə yerini çox böyük uzaqgörənliklə müəyyənləşdirib. Ulu Öndər Azərbaycanın gələcək uğurlu inkişafı naminə dəqiq ideoloji hədəf seçib və uğurlara hesablanan müdrik siyasəti ilə illərlə formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə yüksəldib. Uzaqgörən fikirləri və işıqlı düşüncələri ilə tolerantlıq ənənəsinə böyük töhfələr verib.

Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa edib. Məhz elə buna görə də bu gün Azərbaycan dünyaya tolerantlıq nümunəsi kimi təqdim olunur. Ölkəmizdə mövcud olan yüksək multikultural dəyərlər, tolerantlıq, dünyəvi dinlərin sərbəst şəkildə fəaliyyət göstərməsi Azərbaycanı dünyaya daha çox sevdirir.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin 20 illik hakimiyyəti dövründə tolerantlıq dəyərləri və ənənələri daha da inkişaf edib. Çox sevindiricidir ki, XXI əsrin Azərbaycanı bu münasibətlər sistemini özündə cəmləşdirərək müasir dünyanın tolerantlıq simvollarından birinə və digər cəmiyyətlər üçün örnək modelinə çevrilib.

Tolerantlıq həmişə azərbaycanlıların həyat tərzi olub. Milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq hamı Azərbaycanı öz vətəni, öz torpağı bilib. Elə buna görə də bu gün Azərbaycan dünyada müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq və dostluq şəraitində yaşadığı ölkə kimi tanınır.

Tarixin bütün dövrlərində həm Azərbaycan şifahi xalq ədəbiyyatında, həm klassik ədəbiyyatında, həm də tarixi maddi-mədəniyyət nümunələrində xalqımızın sərgilədiyi tolerantlıq bütün dünya dövlətlərinə, xalqlarına nümunə olub. Dahi Azərbaycan şairi Nizami Gəncəvi yaradıcılığı da sivil dünyaya örnəkdir. Onun yaradıcılığında bəşərilik o qədər güclüdür ki, dünyanın hər bir xalqı asanlıqla özünü bu misraların içərisində tapa bilir. Bu isə Azərbaycan xalqının dünya ədəbiyyatına, mədəniyyətinə bəxş etdiyi əvəzsiz bir töhfədir.

Azərbaycanda tolerantlıq, birgəyaşayış ən bariz nümunəsini 44 günlük Vətən müharibəsində daha parlaq şəkildə özünü göstərdi. Ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda silaha sarılaraq döyüşlərə yollandılar. Onlar torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük hünər və qəhrəmanlıqlar göstərdilər.

2020-ci il sentyabr ayının 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsindəki parlaq Zəfərimizdən sonra Heydər Əliyev Fondunun təşkilatçılığı ilə 32 ildən sonra Şuşada - Cıdır düzündə "Xarıbülbül" festivalı keçirildi. Həmin festivalda Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri iştirak etdilər. Onlar festivalda öz milli mədəniyyətlərinin nümunələrini nümayiş etdirdilər. Bütün dünya Azərbaycanın tolerant ölkə olduğunu bir daha gördü.

Bu gün ölkəmizdə bütün xalqların ürəyi eyni ahənglə döyünür. Azərbaycanı da yaşadan, inkişaf etdirən isə bu amildir. Bütün azsaylı xalqların hüquqları qorunur və onlara ana dilini, mədəniyyətini, dinini yaşatmaq üçün əlverişli şərait yaradılır. Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, ictimai fikrinin formalaşmasında, dövlətçiliyinin inkişafında çoxlarına örnək olacaq vətənpərvərlik nümunəsi göstərilir.

Bu gün Azərbaycanın tutduğu prinsipial mövqe, dövlətimizin başçısının uğurlu siyasəti, azərbaycançılıq ideologiyasının əmin-amanlıq, həmrəylik kimi yüksək dəyərlərə sadiq qalması respublikamızı sivilizasiyaların qarşılıqlı əməkdaşlığını təmin edən bənzərsiz bir dövlətə çevirib.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Teatr xadimlərimiz

## Sənətin unutdurmadığı "Unudulan adam"

Özünəməxsus yaradıcılıq üslubu ilə Azərbaycan kino sənətində iz qoymuş aktyor Həsənağa Salayev 1921-ci ildə Bakıda qulluqçu ailəsində dünyaya gəlib. Yeddi yaşında 6-cı Şura məktəbində təhsil almağa başlayıb. 1937-ci ildə həmin məktəbin doqquzuncu sinfini yüksək qiymətlərlə başa vurub. Elə həmin il Bakı Teatr Texnikumuna daxil olub. 1938-ci ildə Akademik Milli Dram Teatrının aktyor heyətinə qəbul ediləndə hələ tələbə idi. Təhsilini başa vurduğu günlərdə, 1941-ci ildə müharibəyə yollanıb. Ona çox doğma olan teatra bir də 1946-cı ildə dönüb.



Gənc, istedadlı və yaraşıqlı aktyora həm teatrın repertuarında olan, həm də yeni tamaşalarda maraqlı rollar tapşırılıb. Çox keçməyib ki, Akademik Milli Dram Teatrının aparıcı aktyorlarından biri kimi tanınıb. Həsənağa Salayev müxtəlif illərdə "Xanlar"da Mamulya, "Fərhad və Şirin"də Fərhad, "Vaqif"də Eldar, Qacar və Vaqif, "Qatır Məmməd"də Əziz, "Şərqin səhəri"ində Mustafa, "Otello"da Montano, "Antoni və Kleopatra"da Sezar, "Qış nağılı"ında Florizel və Leont, "Türkiyədə"də Hüseyn Həlim, "Həyat"da Abbas, "Cavanşir"də Qartal və Söhrab, "Alov"da Əmin Bəxtiyarov, "Sevilya ulduzu"nda Tavera, "Sənsiz"də Fərhad, "Qaçaq Nəbi"də Vəli, "Solğun çiçəklər"də Bəhram, "Od gəlini"ndə Qorxmaz, "Almaz"da İbad, "Oqtay Eloğlu"da Oqtay, "Daş qartal"da Maksim, "Hind gözəli"ndə Çarudatta, "Hacı Qara"da Heydər bəy, "Şeytanın şagirdi"ndə Riçard Daycen, "İkinci səs"də Rəşad, "Şöhrət və ya unudulan adam"da Doktor, "Orlean qızı" Dünua, "Səyavuş"da Keykavus rollarını uğurla ifa edib.

Aktyorluq məharətinə kinorejissorlar da laqeyd qalmayıblar. Onu çəkdikləri filmlərə dəvət ediblər. Kino sənətində ilk addımlarını 1947-ci ildə rejissor Yefim Dziqanın ekranlaşdırdığı, "Azərbaycanfilm" kinostudiyasında istehsal olunan "Fətəli xan" filmində yaralı əsgər rolu ilə atıb. Sonralar "Görüş", "O olmasın, bu olsun", "Onu bağışlamaq olarmı?", "Koroğlu", "İstintaq davam edir" bədii və "Aygün" televiziya filmlərində Süleyman, Musa, Əzim Əzimzadə, Qüdrət, Eyvaz, Mayor Rüstəmov, Əmirxan rollarına çəkilib.

Həsənağa Salayev həm də Azərbaycanda dublyajın formalaşmasında böyük əməyi olan sənətkarlardan biri idi. O, filmlərdə, radio tamaşalarında səsləndirdiyi hər bir obrazın daxili aləmini tamaşaçıya çatdıra bilirdi.

Aktyorluq sənətində uğurlarına görə, o, 1959-cu ildə Əməkdar artist, 1974-cü ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb.

"Romantik və realist aktyor məktəblərinin estetik prinsiplərini öz yaradıcılığında məharətlə əks etdirən aktyor" adlandırılan Həsənağa Salayev öz sevimli sənətini hər zaman uca tuturdu. Tamaşaçıların diqqətini bircə sözü, ya da hərəkəti ilə cəlb edə bilirdi, diqqət mərkəzində olmağı bacarırdı. Aktyor ona həvalə olunan hər bir rola çox ciddi yanaşırdı.

Unudulmaz rolların ustası olan aktyoru peşəkarlığının zirvəsində ikən - 1975-ci ildə keçirdiyi infarkt tədricən səhnədən uzaqlaşdırdı. 1976-cı ildə, əlli dörd yaşında iflic xəstəliyinə düçar oldu. Yataq xəstəsi olan sənətkara baş çəkməyə gələnlərin sayı getdikcə azaldı. Aktyor bir zamanlar səhnədə əzəmətli görünüşü, məğrur səsi ilə ifa etdiyi "Unudulan adam" tamaşasındakı qəhrəmana çevrildi. O, 1981-ci il oktyabrın 2-də dünyasını dəyişdi. Amma adı sevənlərinin qəlbində əbədi yer tutdu.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## "Bir, iki - bizimki" tamaşası yenidən səhnədə



**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Xalq yazıçısı Kamal Abdullanın "Bir, iki - bizimki!" pyesi əsasında hazırlanan eyniadlı tamaşa nümayiş olunub.**

Teatrın Mətbuat xidmətindən bildirilib ki, quruluşçu rejissoru Əlif Cahangirli olan tamaşada rolları Əməkdar artist Ayşad Məmmədov, aktyorlar İlahə Həsənova, Ziya Ağa, Xədicə Novruzlu və Davud Arif ifa ediblər.

Səhnə əsəri dünyagörüşləri fərqli olan iki insanın söhbəti, bir-birinə təmassız toxunuşları, ehtirası, sevgisi, peşmanlığı, mübahisəsi, yenə də qovuşmaq arzuları üzərində qurulub. Onların dialoqu kişinin xarakteri, kimliyi haqqında geniş düşüncələr yaradıb. Bütün ömürlərini öz ağuşuna alan faciə də məhz budur: bir-birini sevən, bir-birinə can atan insanların bir-birinin dünyalarındakı ayrılıq. Elə birinin ölü, o birinin diri olması da simvolikdir.

Əsər bir-birini anlamaq istəyən və anlamayan, tapmaq istəyən və tapmayan iki nəfərin duyumlar dramı kimi təqdim olunub.

## Bakıdakı Rus evində "Gənc istedadların musiqi dünyası" adlı konsert keçirilib

**Bakıdakı Rus evində Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) professoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Könül Hüseynovanın sinfinin "Gənc istedadların musiqi dünyası" adlı konserti təşkil olunub.**



Rusiya İnformasiya-Mədəniyyət Mərkəzindən (RİMM) bildiriblər ki, konsert BMA və Bakıdakı Rus evi tərəfindən birgə təşkil olunub. Tədbirdə əvvəlcə Bakıdakı Rus evinin rəhbəri İrek Zinnurov çıxış edib. Gecədə tamaşaçıları müxtəlif dövrlərə və üslub istiqamətlərinə aid yerli və xarici klassik musiqi aləminə parlaq və maraqlı səyahət gözləyirdi. Belə geniş üslub əhatəsinə müvafiq olaraq proqram tarixi yanaşma əsasında qurulmuşdu.

Musiqi sənəti şedevrləri Azərbaycanın Əməkdar artisti Rəna Əliyeva, Azərbaycan Akademik Opera və Balet Teatrının solisti Adil Axundov, beynəlxalq müsabiqələr laureatları Rəvan Mustafazadə, Namiq Səlimov, Fuad Əfəndiyev, Elşən Məmmədovun, eləcə də BMA-nın professoru Könül Hüseynovanın sinfinin tələbələri, beynəlxalq müsabiqələrin laureatları Gülnar Ağayeva, Nurel Kərimova, Zəminə Kərimova, Nərminə Mürşüdzadə, Fidan Əmirova, Nəzrin Qulamova, Elvinə Yəhyayeva, Aysel İbrahimli, Tasura Hüseynova, Rasimə Abdullayeva, Fidan Yunus, Səkinə Quliyeva, Şəms Əskərova və Sara Mustafayevanın ifasında təqdim olunub.

İstedad və səs

"Vətənim, soy-köküm, ailəm, sənətim, gələcək arzularım barədə danışmaq mənim üçün həmişə fəxrdir. Atam Ramil Kazımov köklü şuşalıdır. İşğaldan əvvəl heç cür inana bilməyiblər ki, tac-şəhərimizdəki son anlarıdır və həmin əsrarəngiz məkanı tərk edərək, 30 il ərzində Şuşasız yaşamaq məcburiyyətində qalacaqlar.

## Müsabiqələr qalibi



Nənəm orada məktəb direktoru vəzifəsində çalışırdı və babamla birgə son günədək doğma yurdlarından çıxmaq niyyətində olmayıblar. Özlərinin dediyinə görə, vəziyyət elə gərginləşibmiş ki, artıq qalmaq mümkün deyilmiş. Əlbəttə, bütün həyatı Şuşa ilə bağlı insanların belə uzun müddət onunla ünsiyyəti itirmələri xeyli ağır və ağrılıdır. İndi isə Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfər zəminində Qarabağın tam azadlığı hər bir azərbaycanlı kimi bizi də çox sevindirir".

Bu sözləri gənc və istedadlı həmyerlimiz, N.A.Rimski-Korsakov adına Sankt-Peterburq Dövlət Konservatoriyasının "Akademik vokal" şöbəsinin II kurs tələbəsi Teymur Kazımov deyir. Hələ 19 yaşında olmasına baxmayaraq, Azərbaycan mədəniyyətinin, musiqisinin səsini bütün dünyaya çatdıran, ölkə daxilində və xaricdə çoxsaylı nüfuzlu tədbirlərə qatılan vokalçı 27 beynəlxalq və respublika musiqi müsabiqəsinin laureatıdır. Onlardan iyirmisində birinci yeri tutub, ikisində Qran-priyə layiq görülüb. Ötən ilin martında ABŞ-nin Florida şəhərində baş tutan Cövdət Hacıyev adına "Florida Keys" VIII beynəlxalq onlayn musiqi müsabiqəsi (Vokal Pro nominasiyasında Qran-pri və Heydər Əliyev mükafatı), 30 oktyabrda Sankt-Peterburqda keçirilən "Nevski solovey" Ümumrusiya uşaq vətənpərvərlik mahnı müsabiqəsi (Müslüm Maqomayevin "Baharlı yurdum - Azərbaycan" mahnısını ifasına görə 1-ci yer), 2021-ci ilin 2-14 yanvarında Türkiyədə Caspi Art Competitions "New Year's Stars" beynəlxalq festivalı (1-ci yer), Moskvada "Qara Qarayev adına açıq internet müsabiqəsi" (1-ci yer və Peşəkar mükəmməlliyə və sənətkarlığa görə Xüsusi Diplom), "Yelena Obraztsova Mədəniyyət Mərkəzinin mükafatı uğrunda III Vokal və instrumental sənət müsabiqəsi" (1-ci yer) və digər ünlü festivallar bu qəbildəndir.

Bir məqamı da vurğulayaq ki, Teymur incəsənətimizi təbliğ edən vətənpərvər sənətçi kimi yalnız müsabiqələrlə kifayətlənmir, Azərbaycan diasporunun sərhədlərimizdən kənarda, əsasən də Rusiyada təşkil etdiyi mərasimlərə mütəmadi şəkildə qatılır.

Kazımov Teymur Ramil oğlu 2005-ci il aprelin 15-də Bakı şəhərində anadan olub. 2019-cu ildə Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin "Fortepiano" ixtisası üzrə tam kursunu Fərqlənmə Diplomu ilə bitirib. 2022-ci ildə Bakı şəhəri Nərimanov rayonunda yerləşən "ERUDİT" tam orta təhsil məktəbini əla qiymətlərlə başa vurub. Eyni zamanda Üzeyir bəy Hacıbəyli adına BMA-nın Orta ixtisas musiqi məktəb-studiyasında "Akademik vokal" ixtisası üzrə təhsil alıb.

Məktəb-studiyanın direktor müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Aytən İbrahimova sevimli tələbəsi haqqında deyir:

- Teymur Kazımov çox istedadlı musiqiçidir. O, gözəl səsə malik olması ilə yanaşı, özünü pianoçu, bəstəkar kimi də sınayır və yüksək nəticələr təqdim edə bilir. Onunla iki yaradıcı işimiz olub. İlk təqdim etdiyimiz, 44 günlük Vətən savaşımızdakı qələbə münasibətilə Gülər Əlvanqızının sözlərinə yazdığım "Zəfər nəğməsi" əsərimin uğurlu ifaçısıdır. Daha sonra məktəb-studiyanın 40 illiyinə həsr etdiyim himni özünəməxsus tərzdə oxudu.

Teymur Kazımov Vətənimizin bir parçası və sənət məbədi olan Qarabağımızdan səsləri havalanan, yaddaşlarda əbədi yaşayacaq Xan Şuşinskinin, Bülbülün, digər korifeylərimizin layiqli davamçısıdır.

***Qurban MƏMMƏDOV***

Elm adamları

## Musiqiyə həsr edilən ömür



Onun dünyaya göz açdığı şəhər Qafqazın Konservatoriyası, Azərbaycanın mədəniyyət paytaxtı, musiqi beşiyidir. Musiqişünas Aida Tağızadə 1934-cü il fevralın 5-də Şuşa şəhərində ziyalı ailəsində dünyaya gəlib. Atası Zeynal Tağızadə dilşünas, filologiya elmləri doktoru idi. Anası Sayalı Hacıyeva isə pedaqoji və tibbi təhsil almışdı.

Valideynləri Aida xanımın çox gözəl təlim-tərbiyə və təhsil almasına səy göstərirdi. O da ata-anasının arzu və ümidlərini doğruldurdu. Aida Tağızadə orta məktəbi bitirdikdən sonra Asəf Zeynallı adına Musiqi Məktəbində təhsil aldı. Həmin məktəbi qırmızı diplomla başa vurdu. Üzeyir bəy Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına (indiki Bakı Musiqi Akademiyası) daxil oldu. Konservatoriyada fortepiano üzrə ifaçılıq şöbəsində oxumağa başladı. İki ildən sonra təhsilini musiqişünaslıq şöbəsində davam etdirdi. Ali təhsilini böyük uğurla başa vurdu.

Aida Tağızadə 1958-ci ildə Azərbaycan Dövlət Konservatoriyasında əmək fəaliyyətinə başladı. 1979-cu ildə görkəmli bəstəkar Cövdət Hacıyevə həsr olunmuş monoqrafiyası işıq üzü gördü. 1985-ci ildə çapdan çıxan növbəti kitabında isə o, bəstəkar Soltan Hacıbəyovun yaradıcılığını təhlil etmişdi. Elə 1969-cu ildə müdafiə etdiyi namizədlik dissertasiyasında da Soltan Hacıbəyovun əsərlərini, bəstəkarın üslubu üçün səciyyəvi olan bir sıra xüsusiyyətləri yüksək səviyyədə araşdırmışdı.

Müxtəlif qəzet və jurnallarda Aida Tağızadənin 100-ə yaxın məqaləsi dərc olunub. Həmin məqalələrində, əsasən Üzeyir bəy Hacıbəyli, Fikrət Əmirov, Qara Qarayev, Arif Məlikov və digər böyük bəstəkarların yaradıcılığı, özlərinə məxsus dəst-xəti, bədii üslubu təhlil edilib. Aida Tağızadə məqalələrində Müslüm Maqomayev, Fidan və Xuraman Qasımova bacıları, Sərvər Qəniyev, Elmira Səfərova, Fəridə Quliyeva, Aida Abdullayeva kimi sənətkarların yaradıcılığına da geniş yer verib. O, "XX əsr Azərbaycan musiqisi" məqalələr toplusunun tərtibçisi və elmi redaktorudur.

1996-2007-ci illərdə Türkiyənin Ankara Bilkənd Universitetində çalışdığı zaman da Azərbaycan musiqi mühiti ilə əlaqələrini davam etdirdi. "XX əsr Azərbaycan musiqisi" məqalələr toplusunun ikinci cildini hazırladı. Dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin 110 illiyinə həsr olunmuş həmin kitab 1997-ci ildə çap olundu.

Aida Tağızadənin istedadlı bəstəkarlarımızın yaradıcılığına həsr etdiyi kitab və broşürləri Azərbaycan musiqişünaslığına dəyərli töhfə hesab edilir. Milli musiqi mədəniyyətinin inkişafına böyük xidmətlər göstərmiş görkəmli sənətşünas, professor Aida Tağızadə bir çox elmi metodik əsərlərin və dərsliklərin müəllifidir. O, eyni zamanda bacarıqlı pedaqoq kimi uzun illər musiqişünaslar nəsli yetişdirib. "Musiqi tarixi" kafedrasının müdiri işlədiyi zaman yüksək təşkilatçılıq bacarığını göstərib. Aida Tağızadənin rəhbərliyi və iştirakı ilə neçə-necə sənətşünaslıq dissertasiyası uğurla müdafiə olundu.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasından altı il ötür





Azərbaycan İlahiyyat İnstitutunun (AİI) yaradılmasının altıilliyi münasibətilə tədbir keçirilib. AİI rektoru dosent Aqil Şirinov öncə kollektivin hər bir üzvünü ali təhsil müəssisəsinin altıilliyi münasibətilə təbrik edib.

Bildirib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din siyasəti onun layiqli davamçısı - Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə bütün sahələrdə olduğu kimi, bu istiqamətdə də diqqət və qayğının bariz nümunəsi olaraq, cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tabeliyində Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını göstərə bilərik.

AİI rektoru institutun əldə etdiyi nailiyyətlərdən bəhs edərkən bildirib ki, ali təhsil müəssisəsinin yarandıqdan sonra apardığı tədris, təşkil etdiyi respublikadaxili və beynəlxalq elmi konfranslar, simpoziumlar, forumlar, eləcə də akademik heyətin din sahəsinə töhfə verən elmi araşdırmaları, xalqın dini baxımdan düzgün istiqamətdə maarifləndirilməsi prosesində yaxından iştirak etməsi institutun Azərbaycan ictimaiyyətinin etimadını qazanmasına səbəb olub.

A.Şirinov vurğulayıb ki, AİI dövlətçilik prinsiplərinə sadiq qalan, ölkəmizin dini mühitini nəzərə alan, dünyəvilik, müasirlik təfəkkürünü özündə birləşdirən ali təhsil müəssisəsidir. İnstitut tələbələrinin yüksəkixtisaslı peşəkar kadr kimi yetişməsinin vacibliyinə diqqət çəkən rektor qeyd edib ki, institutun məzunları, artıq ölkəmizin bir sıra bölgələrində imam, imam müavini və dini ayinlərin icraçısı vəzifələrində çalışırlar.

AİI rektoru institutun fəaliyyətində göstərdikləri dəstəyə görə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə, Mənəvi Dəyərlərin Təbliği Fonduna, Qafqaz Müsəlmanları İdarəsinə dərin minnətdarlığını bildirib.

Sonda Azərbaycan İlahiyyat İnstitutunun rektoru dosent Aqil Şirinov, tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru dosent Mübariz Camalov və elm və innovasiyalar üzrə prorektoru dosent Mirniyaz Mürsəlov ali təhsil müəssisəsinin uğurunun bütün kollektivin uğuru olduğunu bildirərək, kollektivin hər bir üzvünü AİI-nin yaradılmasının altı ili münasibətilə təbrik ediblər.

*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Avropanın 12 ölkəsində fermerlər tətil keçirirlər

Avropada fermerlərin aksiyaları davam edir. Fermerlər inflyasiya, kənd təsərrüfatı məhsullarının idxalının artması və Avropa İttifaqının ekoloji tələbləri səbəbindən gəlirlərinin azalmasından narazıdırlar.



Artıq etirazlar İspaniyaya da sirayət edib. Minlərlə traktor ölkə boyu yolları bağlayıb, etirazçılar Barselonada yürüş edib və Fransa ilə sərhəddə maneələr qurublar. Ölkə daxilində avtomobillərin hərəkəti ciddi şəkildə çətinləşib.

Etirazlar İspaniyanın demək olar ki, bütün bölgələrinə təsir edib, əsas magistral yollarda və şəhərlərdə nəqliyyatın hərəkəti iflic vəziyyətinə düşüb. Fermerlər anbarlara və limanlara girişi əngəlləyir, bazarları bağlayırlar. Malaqada nümayişlər polislə toqquşmaya çevrilib.

Ən böyük etiraz aksiyaları Fransada keçirilməkdədir. Bu aksiyalarlarda fermerlər traktorlarla yolları bağlayır, təkər və saman yandırır, küçələrə və dövlət idarələrinin qarşısına peyin səpirlər. Yerli hakimiyyət onları yanacaq subsidiyalarından məhrum etməməyə və bəzi ekoloji tələbləri yüngülləşdirməyə söz versə də, etirazlar səngimir.

Yaxın günlərdə etiraz aksiyalarının Polşaya da yayılması gözlənilir. Yaranmış vəziyyətlə bağlı Polşa həmkarlar ittifaqları bildiriblər ki, böhran təsərrüfatın fiziki mövcudluğunu təhlükə altına qoyur. Onlar Aİnin standartlarını icra etməyən ukraynalı istehsalçılarla rəqabət apara bilmədiklərini bildirirlər. Buna görə fermerlər yenidən Ukrayna ilə sərhədi bağlamağı, həmçinin Polşanın iri şəhərlərində etiraz aksiyaları keçirməyi planlaşdırırlar.

Ukrayna Dövlət Gömrük Xidmətindən verilən məlumata görə, polşalı fermerlər bu ölkə ilə sərhəddəki beş keçid məntəqəsində yük maşınlarının hərəkətini məhdudlaşdırmaq niyyətindədirlər. Verilən məlumata görə, avtobus və minik avtomobillərinin hərəkəti adi qaydada həyata keçiriləcək, məhdudiyyətlər yalnız yük avtomobillərinə şamil ediləcək.

Artıq Avropa İttifaqının 12 ölkəsində kənd təsərrüfatı işçilərinin nümayişləri keçirilir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının hesablamalarına görə, bu dövlətlər Avropada ətin yarıdan çoxunu və taxılın 40 faizini istehsal edirlər. Beləliklə, Avropa tezliklə enerji böhranı ilə yanaşı, həm də ərzaq böhranı ilə üzləşə bilər.

Almaniya, Fransa, Belçika, İtaliya, İspaniya, Niderland, Yunanıstan və digər ölkələrin fermerlərinin tələbləri oxşardır. Onlar hazırkı şəraitdə işlərinin dözülməz hala gəldiyini bəyan edirlər. Aİ-nin ekoloji gündəliyinə görə fermerlər bürokratik və tənzimləyici maneələrlə üzləşirlər. Məsələn, ispan fermerləri iddia edirlər ki, Aİ-nin pestisidlərə qadağası göbələklərin düyü tarlalarını bürüməsinə səbəb olub.

İqtisadiyyatı hansısa yolla yaxşılaşdırmağa çalışan milli hökumətlər isə fermerləri yanacaq və gübrə almaq üçün subsidiyalardan məhrum etməyə məcburdurlar. Üstəlik, Ukraynadan ucuz məhsullar Avropa bazarına ayaq açıb.

2022-ci ildə Ukrayna ərzaqlarına olan rüsumları ləğv edən Aİ öz fermerlərini faktiki olaraq çətin vəziyyətə salıb. Bundan əlavə, Brüssel üçüncü ölkələrlə - Meksikadan Avstraliyaya qədər, - azad ticarət sazişləri üzərində işləyir ki, bu da Aİ fermerləri üçün əlavə çətinliklər yaradır.

Avropa Komissiyasının sədr müavini Maros Şefçoviç iddia edir ki, kənd təsərrüfatı və təbiətin mühafizəsi əl-ələ birlikdə addımlamalıdırlar. Öz növbəsində, Avropa Xalq Partiyasının rəhbəri Manfred Veber fermerlərlə birlikdə ətraf mühiti qoruyacağına söz verib…

Sözlər, əlbəttə, gözəldir, lakin böhrandan çıxmaq üçün heç bir həll yolu təklif edilmir. Fermerlərin nümayəndələri bu kimi açıqlamaları kənd təsərrüfatı sektorunun gələcəyi üçün heç nə verməyən "oyun" adlandırıblar.

Bu arada etirazların fonunda Avropa Komissiyası bir sıra güzəştlərə getməyə hazır olduğunu bildirib. Məsələn, söhbət pestisidlərin tam ləğvindən yox, 2030-cu ilə qədər onların istifadəsinin yarıya qədər azaldılmasından gedir. Ancaq bu, fermerləri qane etmir. Onları Aİ-nin hazırkı rəhbərliyinin problemlərin həllini qəsdən təxirə salmaq planları daha da qıcıqlandırır. Belə ki, Aİ-də kənd təsərrüfatının gələcəyi ilə bağlı strateji konsepsiyanın "yayın sonunda", yəni Avropa Parlamentinə seçkilər bitdikdən sonra təqdim edilməsi planlaşdırılır.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Həkəri Balıqçılıq Təsərrüfatında əlvan farellər satışa çıxarılıb

Şərqi Zəngəzur İqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən aldığımız məlumatda bildirilir ki, 2023-cü ilin iyul ayından təsərrüfata körpə farel və nərə balıqları gətirilib: "Ən tez yetişən farel balığı olduğu üçün bu ilin fevral ayından satışa çıxarılır. İlkin başlanğıcda - fevral-mart aylarında satışa çıxarılan əlvan farel balığının çəkisi 700 kiloqramdır".



Müəssisədə iki gün davam edən çeşidlənmədən sonra balıqlar çəkisinə görə ayrılıb. İki növdə - qızılı və göy qurşağı rəngdə olan 200, 250, 300 və 350 qramlıq əlvan farellər müştərilərə təklif olunur. Restoran və digər iaşə obyektləri əsasən, 200-250 qramlıq balıqlara üstünlük verir. Əhalinin nisbətən böyük balıqlara tələbatı olduğuna görə onlar üçün 300-350 qramlıq farellər təklif edilir.

Aprel-may aylarından isə cökə balıqlarının satışa çıxarılması planlaşdırılır. Çəkisi 600-700 qram olan erkək cökə balıqları 1 kiloqrama çatanda satışı təşkil olunacaq.

Məlumatda o da bildirilir ki, paytaxt bazarına da çıxmaq nəzərdə tutulur: "Laçın balığına tələbat çox yüksəkdir. Böyük bazarlara ən azı bir-iki ton məhsulla çıxmaq lazımdır. Təbii ki, başqa şəhərlərdə də bazar təşkil ediləcəkdir".

Satışda hazır nərələr də var. Çəkisi 1-1,2 kiloqramdan çox olan nərə balıqları təmizlənib donduruculara yığılıb. Həkəri Balıqçılıq Təsərrüfatında istehsal olunan məhsulu saxlamaq üçün ümumilikdə 10 tonluq saxlama kameraları var.

Bundan sonrakı mərhələdə hər ay balıq satışının təşkil olunması planlaşdırılır.

***L.QULİYEV, "Azərbaycan"***

# Peşə hazırlığının təşkili məsələləri müzakirə edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyində peşə hazırlığı istiqaməti üzrə fəaliyyət göstərən özəl tədris müəssisələrinin nümayəndələri ilə görüş keçirilib.

Böyük Qayıdışa dair Dövlət Proqramı çərçivəsində görülən işlər barədə məlumat verilib. Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə insan kapitalının inkişafı, bu istiqamətdə peşə kurslarının təşkili və ixtisaslı kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi əsas prioritetlərdən biridir.

Qeyd olunub ki, artıq Laçın, Şuşa, Füzuli, Zəngilan, Cəbrayıl şəhərləri, Laçının Zabux və Sus, Füzulinin Dövlətyarlı, Cəbrayılın Horovlu və Şükürbəyli, Qubadlının Mahruzlu və Zilanlı, Ağdərənin Talış və Suqovuşan, Ağdamın Xıdırlı, Sarıcalı, Kəngərli, Salahlı Kəngərli, Baş Qərvənd kəndlərinin işsiz və işaxtaran sakinləri üçün peşə hazırlığı kurslarının təşkili işlərinə başlanıb. Ümumilikdə həmin ərazilərimizdə 2026-cı ilədək ilkin mərhələdə 12 min şəxsin peşə hazırlığına cəlbi nəzərdə tutulub.

Görüşdə işğaldan azad olunan ərazilərimizə köçürülən şəxslərin dayanıqlı məşğulluğunu təmin etmək və işəgötürənlərin tələblərinin qarşılanması üçün özəl tədris müəssisələri ilə birgə peşə hazırlığının təşkili, bu sahədə gələcək əməkdaşlıq imkanları müzakirə olunub.

**Türkanə Yafəs qızı Gündüz ilə İ.N.V. MTK arasında bağlanmış Bakı şəhəri N.Nərimanov rayonu, Əlicabbar Orucov küçəsi, 11A 1952-ci məhəllə, blok 1, 17-ci mərtəbə, mənzil 93 A ünvanına dair müqavilə itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov və komitənin üzvləri Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası
**NAZLI XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əhliman Əmiraslanov Nağıyevlər ailəsinə
**NAZLI NAĞIYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin rəhbərliyi Nağıyevlər ailəsinə anaları
**NAZLI XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası
**NAZLI XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev və xidmətin kollektivi Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyeva anası
**NAZLI XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hünzlə başsağlığı verirlər.

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Bakı Şəhəri İcra Hakimiyyəti başçısı Aparatının Ərazinin planlaşdırılması və inkişafı şöbəsinin müdiri Mübariz Əlmədətova anası
**SƏMƏNGÜL XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əhməd Əhmədzadə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası
**NAZLI XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyevə anası
**NAZLI NAĞIYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Oruc Zalov Nağıyevlər ailəsinə
**NAZLI NAĞIYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası
**NAZLI XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Şəmsəddin Hacıyev Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası
**NAZLI NAĞIYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Vaqif Həsənov və Həbib Həsənov Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası
**NAZLI XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qərbi Kaspi Universitetinin rektorluğu və professor-müəllim heyəti Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası
**NAZLI NAĞIYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Tibb Universitetinin Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası
**NAZLI NAĞIYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3934**
**Sifariş 283**

**Qiyməti 60 qəpik**